

*İlyas Yusif oğlu Nizami 1141-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Nizami öz ana d... dərindən bilməklə yanaşı, o dövrün elm dili olan ərəb dilini və şeir dili olan fars (dəri) d... mükəmməl öyrənmiş, dövrünün kamil bir aliminə çevrilmişdir. Buna görə də müasirləri «hər şeyi kamil bilən alim» anlamına gələn «Həkim» adlandırırdılar. Gəncəvi isə onun nisbəsidir. Şair 1209-cu il mart ayının 12-də vəfat etmişdir. Bu tarix qəbir daşı üzərində qeyd edilmişdir.*

İNCİ
uşaq ədəbiyyatı

# XƏMSƏ

*Nizami Gəncəvi*

# İSKƏNDƏRNAMƏ

*məktəblinin kitabxanası üçün*

***Bu kitab Şərq dünyasının və Azərbaycanın dahi mütəfəkkir şairi Nizami Gəncəvinin 870 illiyi münasibəti ilə işıq üzü görmüşdür.***

- 16509 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Bakı – 2012**

N 75

Redaktor
**F.ü.f.d., dos. Şəmil Sadiq**

Naşir
**Müşfiq XAN**

Nəsrə çevirənlər
Şərəfnamə **Zibeydə Həşimova**
İqbalnamə **Mehdi Calal, Arzu Əsədova**

Korrektorlar
**Akif Dadaşov, Elçin Əfəndiyev, Ülkər Kazımova, Dilbər Babayeva**

Mətn dizayneri
**Esmira Hüseynova**

Dizeyner
**Teymur Fərzi**

Bu kitab Hədəf Nəşrlərinin "İNCİ" uşaq ədəbiyyat silsilə kitablarına aiddir.

Layihənin müəllifi
**Şəmil Sadiq**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

Layihənin rəhbəri
**Müşfiq XAN**
Yazıçı

Hədəf Nəşrləri MMC-nin rəsmi razılığı olmadan kitabın və ya onun hər hansı bir hissəsinin təkrar nəşri, elektron və mexaniki üsulla çoxaldılması **qəti qadağandır**.

Kitabla bağlı təklif və iradlarınızı **www.facebook.com/Hədəf Nəşrləri** rəsmi səhifəsinə yaza bilərsiniz.
**© Hədəf Nəşrləri / 2012**

# I hissə

# ŞƏRƏFNAMƏ

## İskəndərin taxta çıxması

Rum şahı Feyləqus vəfat edəndən sonra onun yerinə oğlu (Makedoniyalı) İskəndər taxta çıxdı. İskəndər taxta çıxan kimi, Rum ölkəsində yeni dönəm başladı. O, atasından qalan köhnə və yararsız adətləri atıb, yaxşıları isə həyata keçirməkdə daha məsuliyyətli olurdu.

Qısa zamanda ölkədə yeni qanunlar qoyan və buna əməl edən İskəndər bütün ölkənin sevimlisinə çevrildi. O, hamını sevər, hamıya qayğı göstərər, ədalətin bərpa olmasına çalışardı. Hətta öz ölkəsindəki insanları bütün vergilərdən azad etmişdi. Rumda tikanların yerinə güllər əkdirən hökmdar dünyanın əsas hissəsinə sahib oldu. Qərbdə Aristotel adı ilə tanınan böyük filosof Ərəstu İskəndərin vəziri idi. Bir



yerdə böyüyən, birgə təhsil alan Ərəstu İskəndərin böyüməsində ən böyük xidməti olan adamlardan idi. O, İskəndərə hər işində tədbir tökər, məsləhətlər verərdi.

Günlərin bir günü İskəndər öz sarayında məclis qurub şadlanırdı. Bu zaman bir çox məzlum insan sarayın həyətində "aman" deyə səs salır. İskəndər öyrənir ki, bunlar misirlilərdir. Zəncilər onların ölkəsinə hücum edib, hər yanı dağıtmış, misli görünməmiş qanlar axıtmışdı. Əgər o köməyə getməsə qısa zamanda Misir adlı zəngin bir ölkə yer üzündən silinə bilər.

İskəndər ağıllı, bilikli, savadlı, uzaqgörən vəziri Ərəstudan məsləhət istədi. Ərəstu dedi ki, bu sənin gücünü göstərmək üçün bir şansdır. Əgər bir ordu zəfərlər qazanarsa, onun təməli daha güclü olar.

Bunu eşidən İskəndər əmr etdi ki, qoşun hazırlansın, döyüşə başlayacağıq.

Üz-üzə gələn ordular gecəyə qədər qanlı vuruşmanı davam etdirdilər. Səhər açılanda İskəndər Tutiyanuş adlı məharətli elçisini rəqib hökmdar Zəngibar şahı Pələngərin yanına göndərdi. Elçi şaha dedi:

- İskəndər istəyir ki, siz qan tökmədən təslim olasınız və o da sizi bağışlayar!

Elçinin sözü bitməmiş Zəngibar şahı onun başını kəsib hamının gözü qarşısında qanını şüşəyə tökdürüb içdi.

Tutiyanuşla birgə gedən elçililər gördükləri bu dəhşətli səhnəni İskəndərə danışırlar. İskəndər döyüşü davam etdirməli olur.

Pələngərin bu vəhşi hərəkətindən qorxan döyüşçülər məğlub olurlar.

İskəndər öz vəziri Ərəstuya bu vəziyyətdən çıxmaq üçün bir tədbir görməsi üçün müraciət edir. Ərəstu ona qoşunun gözünün qorxduğunu söyləyir və məsləhət görür ki, şah düşmən önündə möhkəm dayanmaq üçün bir yol tapıb onun Zəngibar şahından daha yırtıcı olduğunu düşmənlərə göstərsin.

İskəndər bilicinin məsləhəti ilə hamının gözü qabağında zənci əsirlərindən birinin başını kəsib bişirilmək üçün mətbəxə göndərir. Sonra isə aşbazın gətirdiyi qara qoyun başını zənci başı adıyla ləzzətlə yeyərək özünün adamyeyən olduğunu qarşı tərəfə anladır.

Zənci əsirlərindən fürsət tapıb qaçanları Rum şahının qorxunc bir adamyeyən olduğunu öz ordularına çatdırırlar. Dəhşətə gələn zəncilər inam hissini itirir və əvvəlkitək döyüşə bilmirlər. Vuruş zamanı meydanda bir neçə pəhlivanı məğlub edən İskəndər zəncilərin başçısı Pələngəri məhv edərək qalib gəlir.

Hökmdar bundan sonra Ruma qayıdır. Bu zaman onun İran şahı Dara arasında narazılıq baş verir. Daranın elçisi İskəndərin yanına gələrək onun xərac tələbini çatdırır. İskəndər xərac verməyəcəyini qəti şəkildə bildirir. Onun belə sərt cavabından qəzəblənən Dara İskəndərin top və çovkanla oynayan bir uşaq, özünün isə saysız-hesabsız qoşuna malik qüdrətli bir şah olduğunu göstərmək məqsədilə qasidə bir top,



bir çovkan, bir çuval da küncüd verərək Ruma yollayır. Hədiyyənin mənasını çox gözəl anlayan İskəndər onu bilərəkdən belə yozur ki, "Dara topla yuvarlaq yer kürəsini nəzərdə tutur, çovkanı isə cahanı özümə tərəf çəkmək üçün mənə göndərib. "Sonra küncüdü yerə dağıdıb saray quşlarına dənlədir və bununla Daranın saysız-hesabsız qoşunlarını məhv edəcək igid döyüşçüləri olduğunu rəqibinə çatdırır. Əvəzində isə elçiyə iki çuval üzərlik verərək yola salır. Bununla da demək istəyir ki, üzərlik dənələri acı olduğu üçün heç bir quş onu yeməz. Yəni Rum qoşunlarına Daranın ordusu qalib gələ bilməz.

## Daranın İsgəndərlə müharibəsi

Deyilənə görə Dara İskəndərin sahib olduğu torpaqlara qoşun göndərir. Camaatı qırıb, ölkəni viran qoyur. Daranın bu hərəkətindən İskəndər xəbər tutanda casuslardan biri İskəndərə deyir ki, düşmən qoşunu sərxoşdur, əgər qəfil hücum etsə, düşməni darmadağın edə bilər. Bunu eşidən İskəndər gülərək dedi: günəş gizlənməyi sevməz, mən bunu özümə rəva bilmərəm. Böyük İskəndər adi bir quldur kimi zəfər qazana bilməz.

Digər bir casus isə dedi:

- Düşməniniz sayı-hesabı bəlli olmayan bir qoşunla üstünüzə gəlir.

İskəndər buna da belə cavab verdi:

- Bir qılınc yüz öküzün bağrını dələr.

Sərkərdənin bu sözü bütün qoşunu ruhlandırdı. O, nəzarətində olan bütün ölkələrə xəbər göndərdi ki, hər kəs



durmadan dərgaha gəlsin. İskəndər Rumdan, Əfrəncədən, Misirdən, Rusdan gələnləri içkisiz bir məclisə yığdı.

İskəndər məclisə yığılanlara Daranın açdığı müharibədən, döyüşlərdən söz açıb və onların bu haqda fikirlərini soruşur. Sərkərdələrin sözlərini eşidəndən sonra İskəndər anladı ki, sərkərdələr ona kömək edəcək.

Beləliklə o müharibəyə qərar verdi və qoşun yığmaq üçün əmr etdi. İsgəndər fala baxdıraraq öz taleyinin üstün gəldiyi bir gün müharibə üçün uğurlu hesab etdi və qılıncla, qoşunla, varla, dövlətlə Daranın ölkəsinə hücuma keçdi. Daranın ölkəsində əhali İsgəndərin gəlişini böyük sevinclə qarşıladı, çünki hər kəs Daranın zülmündən təngə gəlmiş və bu zalımın əlindən qurtulmaq istəyirdi. Buna görə də İskəndərə xilaskar kimi baxırdılar. Bunu eşidən Dara ağıllı kəslərdən çarə istədi və İskəndərə qalib gəlməyin yollarını axtardı. Fəribərz adlı bir pəhləvan vardı. O, Daraya dedi ki, vaxtilə ulu babası ona demişdir ki, vaxt gələcək Rum elindən bir sərkərdə dünyanı fəth edib, İranı da məğlub edəcək. Ola bilər ki, bu İskəndər olsun ona görə də sülh bağlayaraq onu ölkəyə buraxmamaq ən doğru yoldur deyə Daraya məsləhət verdi. Dara bu sözlərdən hiddətlənərək qocaya sərt cavab verdi və öz qüdrətindən söz açaraq İskəndərin ondan aciz, zəif olduğunu bildirdi. Bununla da hirsi soyumadı və İskəndərə təhqiramiz bir məktub yazdı. İskəndər də öz növbəsində ona

özünəməxsus bir cavab məktubu göndərdi. Beləliklə iki böyük hökmdar arasında müharibə başladı.

Döyüş zamanı Daranın zülmündən cana gəlmiş iki sərkərdə ona xəyanət edərək İskəndərə sığınırlar. Onlar İskəndərə Daranı öldürəcəklərinə dair söz verirlər və əvəzində ondan çoxlu pul tələb edirlər. İskəndər onlara inanmasa da razılaşır. Xain sərkərdələr isə Daranı öldürərək yenidən İskəndərin yanına gəlirlər. İskəndər ölüm ayağında olan Daranın yanına gəlir və onu qanlar içində torpağa sərilmiş görür. O Daranın halına acıyır və onun üçün ağlayır. Nəhayət Dara ölməzdən əvvəl son nəfəsdə İskgəndərdən üç şey istəyir: birincisi onunla ədalətli rəftar etməyi, ikincisi İran taxtına zərər yetirməməyi və üçüncü hərəmxanaya toxunmamağı və qızını qorumağı.

Beləliklə İskəndər İran taxtının sahibi oldu və xəzinənin üzünü xalqa açdı. Daraya verdiyi sözlərə də əməl etdi və nəhayət əmr etdi ki, Daranı öldürən iki xaini edam etsinlər ki, şaha xəyanət etməyin aqibətini hər kəs yaxşı anlasın. Bundan sonra İsgəndər Daranın qızı Rövşənəklə evlənir və İstəxrə gələrək başına tac qoyur. Beləlikldə o rəsmən İran taxtının sahibi olur, ölkədəki hər cür fitnə-fəsadı aradan qaldırır, ədalətilə xalqın rəğbətini qazanır və bütün dünyaya səs salır. Bir gün o dünyanı səyahət etmək qərarına gəlir. Buna görə də Rövşənəyi və əldə etdiyi xəzinəni Ruma göndərir. Bu qərarından sonra o ilk səfərini Ərəbistana edir. Ərəblər



İskəndəri yaxşı qarşılayıb ona və hər çeşid lüzumlu yeməklər, bəslənmiş sürülər, ağır xəzinələr bağışlayırlar. Hökmdar Kəbəni ziyarət edir, Kəbənin qapılarını öpərək böyük Tanrını anır. Bundan sonra Yəmənə gəlir və Yunana dönmək üçün hazırlıq görür. Bu vaxt Azərbaycan ölkəsindən bir elçi gələrək İskəndərə deyir:

- Ey şahım, Dəvali adlı hökmdar ölkəmizə zülm edir. Bunu eşidən İsgəndər Ərmənə qoşun çəkir və-burada sülhü, abadlığı bərpa edir. Abxaz şahını da özünə tabe etdikdən sonra 15 gün ov üçün çöldə, dərədə, çəməndə at sürür. Ovda gəzişərkən bu gözəl ölkəni və şah Nüşabəni görməyə can atır.

## İskəndərin Bərdəyə gəlməsi və Nüşabə ilə görüşməsi

Çox qədim zamanlardan belə rəvayət edirlər ki, olduqca gözəl, səfalı bir diyar olan Bərdəyə Nüşabə adlı qadın hökmdarlıq edirmiş. Bu qadın çox gözəl, mətanətli, ürəyi saf, mehriban bir insan idi. Onun sarayında yalnız qızlar xidmət edərmiş. Nüşabə qadın olmasına baxmayaraq at oynatmaqda, qılınc tutmaqda heç də kişilərdən geri qalmazmış. Buna görə də onun ölkəsində, sarayında hamı ona ehtiram göstərər, hörmət bəslərmiş. Nüşabə gözəl, mehriban olduğu qədər də ağıllı və ədalətli bir hökmdar idi.

Bir gün şahlar şahı İskəndər Bərdəyə gəlir və buranın cənnətə bənzər gözəlliyinə heyran olur. Gördüyü bu gözəlliklərdən heyrətlənən hökmdar ətrafdakılardan soruşur:

- Bu gözəl, möhtəşəm, cənnət kimi ölkə kimindir?

Burada padşahlıq edən kimdir?

Ona cavab verirlər:



- Bu gözəl torpaqların sahibi bir qadındır. O elə bir qadındır ki, gözəllikdə, mərdlikdə, ədalətdə tayı-bərabəri yoxdur. Bu qadın Kəyan nəslindəndir və çox möhtəşəm bir sarayı vardır. O, hər gün öz büllur sarayında əyləşir və gəlinlər, qızlar onun xidmətində dururlar. Bu qadın öz cənnət köşkündə həm ibadətlə məşğul olar, həm də mey ilə, çalğı ilə dolu məclislərdə günlərini keçirər.

İskəndər bu sözləri eşidib təəccübləndi və bu hökmdar qadını görməyə çox maraq göstərdi.

Bu vaxt Nüşabəyə xəbər verirlər ki, böyük İskəndər onun ölkəsinə gəlib. O, tez padşahın adına layiq hədiyyələr, ləziz yeməklər, gözəlcə bəslənmiş canlı heyvanlar, növbənöv dadlı meyvələr göndərdi. Nüşabə bu hədiyyələri hər gün göndərməyə davam etdi. Nəhayət böyük İskəndər qadının bu qədər mərdliyini görüb heyran qaldı və ürəyində onu görmək arzusu daha da artdı. O, ölkədəki bu heyrətləndirici gözəlliyin sirrini öyrənmək üçün öz kimliyini gizləyib və elçi qiyafəsində Nüşabənin sarayına gəlir.

Xidmətçi qızlar Nüşabəyə xəbər verir ki, Rum ölkəsindən bir elçi gəlmişdir. Nüşabə hazırlıq görür və padşahlıq taxtına oturaraq elçinin hüzura gəlməsini əmr edir. İsgəndər elçi kimi qapıdan girir, lakin təzim etmir. O sarayda gördüklərindən heyrətə gəlir. Hər yerdə hurilər, pərilər gəzişir, qızlar, gəlinlər bir-birindən gözəl hər yan daş-qaşla bəzənmişdir, bütün saray işıq saçır. Gördüklərinin və gözəl

Nüşabənin qarşısında böyük İskəndərin dili tutulur. Çox ağıllı qadın olan Nüşabə isə İskəndəri tanıyır və onun elçi olmadığını anlayır, lakin bunu ona bildirmir. Elçi qiyafəsindəki İskəndər hökmdar İskəndərin adından Nüşabəyə deyir:

- Mən sənin ölkənə ayaq basmışam. Bəs nə üçün sən mənim hüzuruma gəlmədin? Başımı noğulla, kababla, meyvə, şərabla aldadırsan. Bunlar qəbuldur ancaq sən gərək mənə təzim edəsən. Ona görə də səhər tezdən qəbul başlanarkən sən də mənim dərgahıma gələrsən.

Bütün bunları dinlədikdən sonra Nüşabə cavab verdi:

- Eşq olsun sənə ey cəsur padşah. Sən özün özünə elçilik edirsən? Mən səni tanıdım, sən İskəndərsən. Sən məni toruna salmaq istəyirdin lakin özün mənim toruma düşdün.

İskəndər özünü ələ verməmək üçün yenə dilləndi:

- Ey bu taxtın gözəl sahibi mən İskəndər deyiləm, adi bir elçiyəm. Yəni İskəndər o qədərmi acizdir ki, özünə elçilik etsin?

Ağıllı, tədbirli Nüşabə cavab verdi:

- Niyə məni aldatmağa çalışırsan? Əgər sən həqiqətən elçi olsaydın hüzura gələrkən mənə boyun əyərdin. Lakin sən bunu etmədin. Sən bizimlə hökmlə rəftar edirsən və belə rəftar ancaq hökmdarlara məxsusdur.

İsgəndər cavab verdi:



- Mən İskəndər deyiləm, elçiyəm. Sizinlə hökmlə danışmağımın səbəbi də məni göndərənin belə əmr etməsidir.

Bu səfər Nüşabə kəskin bir cavab verir:

- Sənin bu davranışın yersizdir, gəl özünü bu qədər çaşdırma.

Nüşabə bu sözləri deyərək üstündə İsgəndərin şəkli olan ipək parçanı ona göstərir və böyük bir məğrurluqla dillənir:

- Bu şəklə diqqətlə bax. Bu sima kimindir? İndi inad etməyin yeri qalırmı?

İskəndər parça üzərində öz şəklini görüb ağıllı Nüşabəyə cavab verməkdə aciz qaldı. Böyük İsgəndər Nüşabənin qarşısında qorxudan saraldı və ikiqat qaldı.Onu böyük bir təlaş aldı və Allaha sığındı. Nüşabə onun bu vəziyyətini görüb dedi:

- Ey uğurlu, böyük tacidar bunu bil ki, mən qadın olsam da heç də kişilərdən geri qalmaram, dünyanın hər işi mənə yaxşı bəllidir. Mən sənə şəklini ona görə göstərdim ki, sən də mənim kim olduğumu yaxşı dərk edəsən. Amma indi bil ki mən sənə hörmət edəcəyəm və səni adına layiq qarşılayacağam.

Bu sözlər qarşısında pərt olan İsgəndər Nüşabənin ağlına, cəsarətinə və mərdliyinə heyran qalır və heç bir söz deyə bilmir.

Bundan sonra Nüşabə İskəndərin şərəfinə süfrə düzəltdirir. O süfrəyə içində dörd cür ləl-cəvahirat olan xonça qoydurur.

Nüşabə deyir:

– Ey böyük hökmran yeyiniz ən dadlı xuruşlardan.

İskəndər heyrətlə deyir:

– Ey sadə dilbər, heç daş-qaş da yeyilərmi?

Nüşabə gülərək cavab verir:

- Madam ki, bunlar yeyilməz onda nə üçün sən daş-qaş üçün dünyanı fəth edirsən, əgər daş-qaş yeyilmirsə onda nə üçün bunlardan ötrü bu qədər qan tökürsən?

İskəndər deyir:

- Ey xanımlar xanımı doğru söyləyirsən. Eşq olsun belə sağlam fikirli gözələ. Sən mənə mərdliyin yolunu göstərdin. Doğrudan da sənin adın ucadır.

Beləliklə dünyanı fəth edən böyük fatehə Azərbaycan qadını, uzaqgörən və mərd hökmdar olan Nüşabə çox ibrətamiz bir dərs verir.

Bundan sonra İsgəndər Nüşabəylə əhd-peyman bağlayaraq Bərdəni tərk edir.



16509

## İskəndərin Dərbənd qalasını alması

Çox qədim rəvayətlərin birində deyilir ki, böyük İskəndər daim faydalı işlər görər, yaxşı insanlarla ünsiyyət qurar, şahlarla yanaşı məzlumlarla da maraqlanarmış. O, zahidlərə, hikmətli insanlara hörmət edər, onlarla məsləhətləşərmiş. Elə bir vaxt gəlir ki, onun ordusundakı əsgərlər bu işdən inciyir. Onlar İsgəndərə deyir:

- Ey dünyaları sarsıdan hökmran! Sənin zəfər qazanmağının səbəbi sənin ordundur. Bəs niyə sən bizə yox, zahidlərə nəzər salırsan, dara düşəndə bizimlə yox onlarla məsləhətləşirsən?

İskəndər bu sözlərə təəssüflənsə də əsgərlərə bir cavab vermir.

Bu əhvalatdan bir neçə vaxt keçir. İsgəndər və ordusu çox yollar aşaraq Dərbəndə gəlib çatırlar. Bu vaxt görürlər ki, burada bir mötəbər qala var. Bu qalada quldurlar məskən salmışdır və yoldan keçəni talan edir, incidirlər.

İskəndər orduya bu qalanı almağı əmr edir. Ordu nə qədər çalışıb vuruşsa da bir nəticə hasil olmur. Nəhayət onlar yorulub İskəndərin yanına gəlib ona deyirlər:

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi PREZİDENT KİTABXANASI

- Ey qüdrətli hökmdar biz nə qədər çalışsaq da qalanı ala bilmədik. Yaxşısı budur geri dönək.

İskəndər onlardan soruşur:

— Burada yaxınlıqda bir zahid varmı?

Bir nəfər deyir:

- Bu yaxın köhüldə qoca bir zahid yaşayır. Heç kimlə ünsiyyət etmir, bir çəngə otla keçinir. Böyük hökmran bu sözləri eşidib dərhal qocanın olduğu yerə gəlir. İskəndər qocanı ehtiramla salamladıqdan sonra ona vəziyyətini izah edir. Qoca deyir:

- Zənnimcə siz cahangir İsgəndərsiniz?

İskəndər təəccüblənərək soruşur:

- Sən məni necə tanıdın?

Qoca cavab verir:

- Elə bilmə ki, dünyada tək sənin güzgün var. Mənim də qəlbim güzgüdür ona görə də insanları tanıya bilirəm.

İskəndər qocanın müdrik, ağıllı adam olduğunu görüb deyir.

- Ey sınaqlı qoca gəlmişəm səndən çarə istəməyə. O dağ başındakı qalanı azğın quldurlar tutub və mən də bu qalanı ələ keçirmək, quldurlardan azad etmək istəyirəm.

Vəziyyəti anlayan qoca dərindən bir ah çəkir. Onun ahından uca dağ yerindən oynayır. Qoca İskəndərə deyir:

- İndi sən qayıt. Uca dağ yerindən oynayıb. İskəndər qərargahına geri dönəndə görür ki, qalabəyi hüzura gəlib.



Qalabəyi İskəndərə bildirir ki, qalanın hasarı dağılmışdır. Beləliklə qala İsgəndərə tabe olur. İsgəndər üzünü ordusuna tutub deyir:

- Görürsünüzmü qırx gündə daş-qalaqla ala bilmədiyiniz qala bir qocanın ahından yerlə yeksan oldu.

Əsgərlər bu sözlərdən sonra öz səhvlərini anlayır və bir daha İskəndərin ağlı, zəkası qarşısında baş əyirlər. Bu vaxt həmin qaladan bir neçə nəfər gəlib İskəndərə şikayət edirlər:

- Bu qıpçaq xalqı dəhşətdir. Bizim əkin-biçinimizi məhv edib, qalanı da uçurub.

İskəndər əmr edir ki, qala təmir edilsin və əhaliyə əkin-biçin üçün şərait yatradılsın. Belə yorucu gündən sonra İskəndər istirahət etmək üçün bir məclis qurur və əmr edir ki, bir neçə nəfər gəlib əfsanə söyləsin. Aralarından bir nəfər deyir:

- Burada bir qala var. Deyilənə görə bu qala həm gözəl, həm də mübarək bir qaladır. Rəvayətə görə bu qalada Keyxosrovun taxtı, camı var. Həm də burada Keyxosrovun nəslindən bir məlikzadə padşahlıq edir və Keyxosrovun qəbrini gecə-gündüz düşməndən qoruyur.

Bu söhbəti eşidən İskəndərin əhvalı açılır və onda bu qalaya getmək həvəsi yaranır.

## İskəndərin Sərir qalasına getməsi və Keyxosrovun qəbrini ziyarət etməsi

Bir gün İsgəndər qoşununu Sərir şəhərinə çəkdi. O, Keyxosrovun qəbrini görmək istəyirdi. Sərir əhalisi bunu eşidib onu çox yaxşı qarşıladılar. Çünki əhali bilirdi ki, İskəndər qüdrətli və ədalətli bir padşahdır onlara zərər verməyəcək. Beləliklə İskəndər gəlib şəhərə yetişdi. Bütün xalq onun hüzuruna gəlib, hörmətlə baş əydilər. Böyük İskəndər sərirlilərdən xahiş edir ki, onu Keyxosrovun qəbri olan yerə aparsınlar. Sərirlilər onun bu sözünə görə bir neçə qulu yoldaş olsun deyə İskəndərin əmrinə verib yola salırlar. İskəndər bu ağır yolda yorulmadan irəliləyir və nəhayət gəlib qalaya çatır. Əhali onu Keyxosrovun taxtında əyləşdirir. İskəndər Keyxosrovun taxtında özünü çox bəxtiyar hiss edir, lakin ehtiram əlaməti olaraq taxtda çox oturmayıb və oradan



tez düşür. Nəhayət uzun məclislərdən, söhbətlərdən sonra böyük İskəndər əsl məqsədi üçün yola düzəlir. O, Keyxosrovun yatdığı yerə gəlib çatmaq üçün çox qayalar, dağlar keçir. Bir vaxt atlar yorulur və artıq gedə bilmirlər. İskəndərin yanınadakılardan biri deyir:

- Şahım budur Keyxosrovun qəbrinə çox yaxınlaşmışıq. Amma bundan artıq getmək olmaz. Gəl geri dönək.

İskəndər onun sözünə məhəl qoymur və yola piyada davam edir. İskəndər gəlib qəbirə yaxınlaşanda dərin bir quyudan alov çıxdığını görür. Qüdrətli bilicisi Bəlinasdan soruşur:

- Bu alovlar nədir, bunun sirrini açıqlaya bilərsənmi?

Bəlinas quyuya enir, alovu nəzərdən keçirdikdən sonra deyir:

- Bu kükürddür. Burada hər yer kükürdlə doludur. Biz tez buradan çıxmalıyıq yoxsa yanıb külə dönərik.

Beləliklə onlar böyük çətinliklə oradan uzaqlaşıb şəhərə dönürlər. İskəndər burada bir məclis qurub, Sərir hökmdarına hədiyyələr, xələtlər verir. Gecə yatıb dincəldikdən sonra böyük İsgəndər bu səfəri də başa vurmaq üçün hazırlıq görür.

## İskəndərin Hindistana getməsi

Günlərin bir günü böyük İskəndərin könlünə Hindistana səfər etmək düşür. O, ağıllı kəsləri yanına çağıraraq onlara bu qərarını açıqlayır və deyir:

- Mən atımı Hindistana çevirəcəyəm. Öncə Keydin üstünə ordu töküb itaət etməsini istəyəcəm. Əgər o mənə tabe olsa ölkəyə zərər verməərəm, yox əgər itaətdən boyun qaçırsa tacını qoparıb, yurdunu viran edəcəyəm.

Bunu eşidənlər onun bu fikirlərindən razı qaldılar və onu dəstəklədilər.

Beləliklə böyük hökmran Hindistana üz tutdu. O ağıllı kəslərdən məsləhət almadan hərəkət etməzdi.

Həmin gün İskəndər Keydə xəbər göndərib deyir:

- Mən indi Hində gəlmişəm. Çarpışmaq istəyirsənsə üstümə ordu çək. Əgər mənə tabe olsan onda qılıncımdan qurtularsan.



Bu sözləri eşidəndə Keyd qorxuya düşür, Daranın başına gələnləri yadına salır. İsgəndərə belə bir cavab məktubu göndərir:

- Böyük hökmran, sən niyə məni savaşa çağırırsan. Mən sənə sadəcə nökərəm, sənə həmişə kiçiklik edərəm. Əgər söz versən, mənimlə dost olsan sənə dünyada tayı olmayan dörd dəyərli şey göndərərəm; I qızımı göndərərəm ki, gözəllikdə tayı yoxdur. II bir yaqutdan cam göndərərəm ki, içindəki şərabı nə qədər içsən də azalmaz. III göylərin sirrini bilən, gizlini aşkar edən bir filosof göndərərəm. IV isə hər dərdi bilən, hər xəstəyə şəfa verən təbib göndərərəm.

Uca hökmran bu xəbərdən razı qalır və Keydə belə bir cavab məktubu yazır:

- Ey böyük hökmdar əgər dediklərini mənə göndərsən mən də sənə söz verirəm ki, sənin ölkənə tük qədər də zərər verməərəm. Hind hökmdarı Keyd bu məktubu oxuyub çox şad olur və söz verdiyi şeyləri hökmdara göndərir. İskəndər də öz növbəsində bu şeyləri qəbul edir və çox sevinir. İskəndər bir müddət Hindistanda qalıb xoş gün keçirir və sonra Çinə səfər etməyi qərara alır.

## İskəndərin Hindistandan Çinə getməsi

Qədim zamanlardan xəbər verənlər belə nağıl edirlər ki, İskəndərin ordusu Tibet dağına çatanda gülməyə başlayır. Bu hal padşaha maraqlı görünür.

Hökmdar soruşdu:

- Niyə burda insanlar qəhqəhə çəkir?

Cavab verirlər ki, zəfəran rəngli bu torpaq insanları səbəbsiz güldürür.

İskəndər buraları keçərək cənnətə bənzər məkana gəlib çatır. Böyük hökmran Çinin gözəlliklərini görüb heyran qalır.

O, Çin xaqanına məktub yazır. Məktubunda İsgəndər deyir:

- Mən sənin ölkənə qədəm basmışam səndən tabe olmağı, itaət göstərməyi tələb edirəm. Əgər məni kinlə qarşılasan mən də sənə kin göstərərəm, yox əgər məhəbbət göstərsən mən də sənə məhəbbət göstərərəm.



Məktubu oxuyan xaqan təşvişə düşür. Çox fikirləşdikdən sonra elçi qiyafəsində İsgəndərin hüzuruna gedir. İsgəndər onu hüzura qəbul edir və deyir:

- Xaqandan nə xəbər gətirmisən?

Xaqan ona belə cavab verir:

- Xaqandan sənə gizli xəbər gətirmişəm. Gərək mən bunu sənə deyəndə yanımızda heç kəs olmasın.

İskəndər ehtiyat edərək yanına bir qılınc qoyur və elçiylə tək qalmasını əmr edir.

- İndi heç kim yoxdur, bir mənəm, bir sən. Buyur sözlərini söylə.

Xaqan cavab verir:

- Ey böyük hökmran sənin yanına öz adımdan gəlmişəm. Yəni mən elçi deyil, xaqanın özüyəm.

İskəndər təəccüblənərək deyir:

- Niyə bu yola əl atdın? Heç mənim hiddətimdən qorxmadınmı?

Xaqan cavabında deyir:

- Yüz min dəfə afərinə layiq olan hökmdar mən ki, sənə namərdlik etməmişəm. Sən də mənə namərdlik etməzsən. Mən dost kimi gəlmişəm niyə sənin qılıncından qorxum? Bilirəm ki, böyük İskəndər adil hökmdardır.

İskəndər deyir:

- Xoş gəldin. Artıq bu düşkünlükdən azad ol, bu gəlişinin sirrini aç.

Xaqan deyir:

- Gəlməkdə məqsədim sənin fikrini, yolunu öyrənməkdir. Mən səninlə sülh üçün gəlmişəm. Əgər Çin taxını məndən istəsən sənə boyun əyərəm.

İskəndər söylədi:

- Ey fikri gözəl xaqan indi ki mən sənə qılınc çəkmədən təslim oldun, onda taxtında başın uca olsun. Yalnız bir şərtim var ki, ölkən yeddi il mənə xərac versin. Qalan vergiləri ölkənə halal edirəm.

Çin xaqanı dedi:

- Uca hökmran əgər mənim yeddi il yaşamağıma təminat versən, mən sənə yeddi illik xərac verməyə hazıram.

İskəndər bu cavabı bəyənir və deyir:

- Görürəm şüurun, ağlın incədir ona görə də tək bir illik xərac versən qəbuldur.

İskəndərlə əhd-peyman bağlayan xaqan öz ordugahına qayıdır. Bir gün İsgəndər öz ordugahında oturduğu vaxt ona xəbər verirlər ki, xaqan qoşun toplayıb hücuma keçib. İskəndər elə bilir ki, xaqan öz əhdinə xilaf çıxıb. Ona görə də qoşun hazırlayır və ordunu qarşılayır. Qoşunlar üz-üzə gələndə İskəndər deyir:

- Ey xaqan niyə öz əhdinə xilaf çıxdın? Yoxsa verdiyin sözləri unutmusan?

Xaqan cavab verir:



- Ey böyük hökmran, mən öz əhdimə sadiqəm. Gəlməkdə məqsədim müharibə deyil, qoşunumla səni ziyarət etməkdir. Beləliklə hər iki hökmdar bir daha sülhü bərqərar edib dost məclisi qururlar. Beləcə onlar bir neçə gün bir yerdə ovla məşqul olub, birgə şənlik edirlər.

## Rum və Çin nəqqaşlarının yarışı

Günlərin birində Çin xaqanı ilə Rum hökmdarı İskəndər bir məclisdə əylənərkən belə bir müzakirə düşür ki, çin nəqqaşı daha yaxşıdır yoxsa Rum nəqqaşı?

Uzun müzakirələrdən sonra qərara alırlar ki, nəqqaşları yarışdırsınlar. Nəqqaşların hərəsi bir tağın altında durur. Onların arasına pərdə asılır ki, bir-birlərinə baxmasınlar. Yarış başlayır. Müəyyən olunmuş vaxt bitdikdən sonra pərdə açılır və hamı gördüyündən heyrətə gəlir. Çünki hər iki nəqqaşın çəkdikləri rəsm eyni idi və onlar arasında heç bir fərq tapmaq olmurdu. Padşah əmr etdi ki, yenə aradan pərdə asılsın və yenidən nəqqaşlar rəsm çəksinlər. Bu zaman Rum nəqqaşı öz məharətini göstərir, lakin Çin nəqqaşı heç nə çəkə bilmir. Bunu görən İskəndərin kefi açılır, üzü gülür. Sonda müəyyən olur ki, əvvəlki yarışda yanaşı olan nəqqaşlardan çinli nəqqaş rumlunun çəkdiyini eyniylə köçürürmüş. Lakin elə



köçürürmüş ki, heç bir fərq qoymaq olmurmuş. Nəticədə belə qərara gəlirlər ki, hər iki nəqqaşı mükafatlandırsınlar. Çünki belə gözəl köçürə bilmək özü də bir istedaddır.

Nəhayət İskəndər ölkəsinə dönməyi qərara alır. Çin xaqanı getməzdən əvvəl böyük hökmrana qonaqlıq təşkil edir və onu hədiyyələrə bələyir. İsgəndər dünyada tayı olmayan bu hədiyyələrdən olduqca məmnun qalır. Getmək vaxtı çatanda İskəndər ordusu ilə yola düzəlir və Çin xaqanı ilə vidalaşır.

Deyilənə görə İskəndər geri dönərkən yol boyu Çində əldə etdiyi xəzinəni paylayırmış və hətta yeni şəhərlər saldırırmış. Bu şəhərlərdən biri də Səmərqənd hesab olunur.

**İskəndərin Rus qoşununun hücumundan xəbər tutması**

Keçmiş əhvalatlardan xəbəri olanlar belə nəql edərlər ki, bir vaxt İskəndər öz ölkəsinə dönməyə hazırlıq görərkən Abxaz hökmdarı Dəvalı onun yanına gələrək deyir:

- Padşahım, ruslar bizim xalqa zülm edirlər. Hər yerə basqın edib, şəhərləri viran qoyurlar. Hətta Bərdə hökmdarı gözəl Nüşabəni də əsir almışlar.

İskəndər bunları eşidib hiddətlənir və deyir:

- İndi ki, sən bunları mənə xəbər verdin artıq geri dur. Bu işləri mən sahmana salaram. Ruslara hədlərini bildirərəm.

Bu sözləri deyərək İskəndər atına minərək qoşununu Ceyhun sahilinə, oradan da Xarəzmə doğru çəkir. Çox yollar getdikdən sonra gəlib qıpçaq çölünə çatır. Hökmdar buradakı qadınların üzünü örtmədiklərini görüb, əsəbiləşərək qıpçaqların böyüklərini yanına çağıraraq deyir:



- Niyə sizin qadınlar üzlərini örtmürlər? Açıq gəzmək qadına yaraşmaz.

Qıpçaqlar cavab verir:

- Bizim adətimizdə üz örtmək yoxdur. Əgər baxmaq istəmirsənsə sən gözlərini ört.

Hökmdar bu işə çox əsəbiləşir. Onun ağıllı bilicisi Bəlinas deyir ki, mən bu işə əlac edərəm.

O, ağ mərmərdən çadralı bir qadın heykəli qoydurur. Bu heykəlin yanından keçən qadınlar bunu görüb üz-gözlərini gizləməyə başlayırlar. Hökmdar Bəlinasdan soruşur:

- Niyə bu qadınlar mənim məsləhətimi dinləmədilər, amma adi daş parçasından ibrət götürdülər?

Bəlinas cavab verir:

- Şahım, bu qıpçaqlar daşürəkli olurlar ona görə də onlara daş ürək dərs verdi.

İskəndər bir qədər rahat olduqdan sonra nəhəng ordusunu yığaraq ruslarla döyüşə hazırlıq gördü. Bu xəbər gəlib ruslara çatdı. Bunu eşidən rus sərdarı Qıntal yeddi rus soyundan qoşun yığdı sonra isə üzünü ordusuna tutub dedi:

- İskəndərin ordusu ancaq bər-bəzəkdən, daş-qaşdan ibarətdir. Onlar bizim kimi güclü aslanlarla döyüşə adət etməmişlər. Mən onları bir həmlədə yıxıb viran edərəm. Bu sözlər onun ordusunda ruh yüksəkliyi yaratdı. Onlar öz ordugahlarına dönüb məclis qurdular. Digər tərəfdə də böyük İskəndər məclis qurmuşdu. O da öz ordusuna qazandığı

qələbələrdən, fəth etdiyi ölkələrdən danışaraq onlarda ruh yüksəkliyi yaradırdı. Nəhayət böyük hazırlıqlardan sonra iki ordu üz-üzə gəldi. Hər iki ordu bir-birindən yaraqlı-yasaqlı idi. Beləliklə günlərlə dəhşət saçan döyüşlər baş verdi. Həm ruslardan həm də rumlulardan minlərlə ölənlər, yaralananlar, əsir düşənlər oldu, qan su yerinə axdı. Uzun sürən döyüşlər zamanı bir gün İskəndər öz çadırına çəkilir. O düşünür ki, artıq bu qədər döyüşlər olub, hələdə qalib gələ bilməyib. Vəziri ona ağıllı məslət verib deyir:

- Böyük hökmran siz dünyanı fəth etmisiniz, sizin qüdrətiniz hər kəsə bəllidir. Əgər qılıncla qalib gələ bilmiriksə başqa tədbir tökərik. İndi bir fal açarıq sənin bəxtinin üstün gəldiyi bir günü yenidən hücum çəkərsən, zəfər əldə edərsən.

Bu sözləri dinlədikdən sonra İskəndərin ürəyi rahat olur. Əvvəlki kimi İskəndər yenə ordusunu silahlandırdı. Yenə ağır döyüşlər başlandı. Bu səfər İskəndərin taleyi ona kömək olur. Bu qanlı meydanda ruslara qalib gəlir və Qıntala ağır zərbə endirir. Elə ki, İskəndər zəfər çalır, istəyir bir az dincəlsin. O tanrısına şükürlər edib və xəzinəni əhaliyə paylayır, özü də bir müddət istirahətə dalır.



## Nüşabənin xilas edilməsi

Böyük İskəndər ruslara qalib gəldikdən sonra bir məclis qurdurdu. Sonra əmr etdi ki, ruslardan əldə olunan qənimətlə hesaba alınsın. Dəyərli daş-qaşların, bəslənmiş kök qoyunların, sərvətin, xəzinənin sayı hesabı yox idi. Bunları görən İskəndər şadlanır, bir az şərab içib, sərxoş olduqdan sonra əmr edib rusların yanına şahını çağırtdırır. Onu layiqli yerdə oturdub zəncirini açdırır, ona xələt verir. Beləliklə iki padşah bir-birlərinə olan kinlərini unudurlar. İskəndər ruslara əmr edir ki, əsir olunmuş Nüşabə azad olunsun. Nüşabə əsirlikdən azad olandan sonra İskəndərin məclisinə gəlib, əyləşir. Bu məclisdə Dəvaliylə Nüşabənin arasında nikah bağlanır. Nikah bağlandıqdan sonra onlar Bərdəyə gəlirlər. İskəndər rus şahını xərac vermək şərti ilə vətəninə geri göndərir. Qıntal buna razı olur və bundan sonra böyük İskəndərin adını ehtiramla yad edir.

## İskəndərin dirilik suyu axtarması

Çox qədim zamanlardan bəri belə rəvayət edirlər ki, bir gün böyük İskəndər tanrısına ibadət etdikdən sonra bir məclis qurur. Bu məclisdə hərə bir rəvayət danışır. Hərə öz bildiyi rəvayətləri danışdıqdan sonra sıra məclisdə oturan qocaya çatır. O deyir:

- Dünyada zülmət adlı bir diyar var ki, orada dirilik suyu mövcuddur. Əgər ömrünüzü uzun etmək istəyirsinizsə o dirilik suyunu əldə etməlisiniz.

Məclisdəkilər bu sözlərə mat qalır. Şah deyir:

- Yoxsa bu işdə başqa hikmət var? Elə su varmı ki, zülmətdə insanı ölümdən qurtarsın?

Qoca cavab verir:

- Ey uca tacidar, o qaranlıq yerin adı zülmətdir. O zülmət içində bir həyat suyu var. Kim o sudan içsə xəstəlikdən, ölümdən uzaq olar. Əgər mənim sözümə şübhəniz varsa, kamil qocalardan soruşun.



İskəndər bu sözləri eşitdikcə marağı artır və soruşur:

- O zülmət harada yerləşir?

Yolu padşaha göstərirlər. Padşah da öz yolunu zülmətə çevirir və dirilik suyunun arxasınca gedir. Padşah bu yolu gedərkən çox uzun yollar qət etməli olur. Beləcə padşah ordusu ilə irəliləyərkən bir çölə gəlib çatırlar. Bu çöldə onlar bir mağaraya rast gəlirlər.

Çölbəyi o mağaraya Bünğar adı vermişdi. Bundan sonra zaman keçdikcə o şəhərin adı Bulğar qalır. Bir qədər getdikdən sonra İskəndər əmr edir ki, qocalar və xəstələr burda qalsınlar, yola davam etməsinlər. Beləliklə az getdilər, çox getdilər və birdən elə bir yerə gəlib çatdılar ki, hər yeri zülmət bürüdü. Padşah bunu görüb təəccübləndi və dedi:

- Bu yolda doğru iz göstərən kimdir?

Bilənlər söyləyir:

- Bu qaranlıq pərdədir iç-üzü görünməz. İrəli getmək mümkündür, geri dönmək çətin olar.

Amma çox çarə axtardılar tapan olmadı. Onların arasında bir gənc oğlan var idi. O öz atasına çox bağlıydı. Elə ki, padşah əmr etdi ki, qocalar yola davam etməsin bu oğlan çox pis vəziyyətə düşür. O gizlincə atasını da özü ilə bərabər götürür.

Belə bir vəziyyət gəlib yetişdi oğlan gəlib atasından məsləhət aldı:

- Ata, hökmran gəlib zülmət bir yerə çatıb ki, indi burdan çıxmaq üçün çarə axtarır.

Atası deyir:

- Burada gizli bir sirr var. Burdan çıxmaq üçün padşaha yeni doğacaq olan boğaz bir madyan lazımdır. Körpə dal yaq doğulan kimi onun başını bir yerdə kəssinlər. Anası bunu görüncə ürəyi yanacaq, içində hiddət oyanacaq. O madyan geri dönərkən ordu da onun arxasınca getsin. Beləliklə padşah zülmətdən qurtular.

Oğlan gəlib bunları padşaha danışdı. Padşah soruşdu:

- Sən bunları haradan bilirsən?

Cavan oğlan dedi:

- Padşahım, o gün ki siz əmr etdiniz qocalar yola davam etməsin mənim öz atama ürəyim yandı, onu da özümlə götürdüm. Bütün bunları ona danışdım, o da bu danışdıqlarımı məsləhət gördü.

Padşah əmr etdi ki, qocanın dediyi kimi bir madyan gətirsinlər.

Rəvayətə görə İskəndər zülmətə girərkən atını Xızır peyğəmbərə verir ki, ona yol göstərsin. Xızır Peyğəmbər həmən yola düzəlir və hər yanda həyat suyunu axtarmağa başlayır. Nəhayət bu çeşmə tapılır. Bu elə bir çeşmə idi ki, tərifə gərək yox idi. Xızır həyat suyunu tapınca gözlərinə işıq gəlir. O, həyat suyuna enərək həm orada yuyundu, həm də bu sudan içdi. Sonra bir qədəhdə su ayırdı ki, gələndə İskəndərə



versin. Lakin bir az sonra Xızır gödü ki, çeşmə yox oldu. Xızır anladı ki, sudan İskəndər içə bilməyəcək, çox pis oldu. Sonra Xızır da gözlərdən itdi.

Lakin bu əhvalatları rumlular başqa cür danışırlar. Onlar belə rəvayət edirlər ki, Xızırla İlyas bir-birləri ilə getdikləri yolda yoldaş idilər. Onlar çeşməyə yetişəndə atdan enib, bulaq başında süfrə açdılar. Süfrədə yemək üçün balıq da var idi. Onlardan biri su içmək üçün bulağa əyilir və əlindəki balıq suya düşür.

O balığı sudan götürmək istədikdə görür ki, balıq diridir. Onlar anlayırlar ki, bu dirilik suyu imiş. O bu sudan doyunca içdi və dostuna da xəbər verdi ki, bu əbədi həyat suyundan içsin.

Ərəblər isə bu haqda başqa bir rəvayət danışırlar. Ərəb rəvayətində belə deyilir ki, qədim zamanlarda yolunu azmış rumlu dəstəsi bu dirilik suyunun yerini tapıbmış. Belə deyilir ki, Xızır və İlyas bu sudan içirlər amma heç kimə bu haqda heç nə demirlər. İskəndər də bu çeşməni ələ keçirmək üçün zəhmətlə at çapır. O, dirilik suyuna yetişmək dilərkən gəlib sulu bir çəmənə çatır. Çeşməyə çatmaq üçün İskəndər qırx gün, qırx gecə yol gedir və nəhayət yorulub bir kölgəlikdə dincəlir. İskəndər görür ki, get-gedə kölgəlik zülmətə çevrilir. Bundan qorxan şah geri dönməyin yollarını axtarır. Bu zaman onun qarşısına bir mələk çıxır və deyir:

- Bu dünyanı sən ələ keçirmisən amma hələ də doymamısan?

Sonra mələk şahın əlinə pul boyda daş qoyaraq dedi:

- Bu daşı gözün kimi qoru. Çalış bu dünyada bu daş ağırlığında daşlar ələ keçir. Qəlbində minlərlə dilək olsa da bu daş qədəriylə kifayətlən.

İskəndər bu daşı əlinə alan kimi mələk yox olur. Bir qədər getdikdən sonra ona hatifdən səs gəlir:

- İnsanın qismətini yazısıdır verən. İskəndər çeşməni zülmətdə ararkən bu Xızıra qismət oldu.

Bu səsi dinlədikdən sonra İskəndər anladı ki, artıq dirilik suyunu axtarmaq əbəsdir. O, mənasız bir şeyə maraq göstərdiyini başa düşür və orduya fərman verir ki, geri dönsünlər. Qisməti olmayan şeyə həvəs göstərdiyi üçün İskəndər dirilik suyunu əldə edə bilmir. O gəldiyi yol ilə də geri dönür. Bu yolda ona madyan rəhbər olur.



### İskəndərin zülmətdən çıxması

Rəvayətə görə İskəndərin zülmətdən çıxmasına madyan rəhbərlik edibmiş. Qocanın da dediyi kimi madyan balasının başının kəsilməsini görüb qaçırmış. İskəndər və ordusu da onu izləyərək heç bir dəfə də olsa çaşmadan gəlib işıqlı dünyaya çatırlar. Amma İskəndər öz diləyinə çatmamışdı. Buna baxmayaraq padşah buna heyfislənmirdi, çünki anlamışdı ki, ruzini ancaq qismətlə tapmaq mümkündür. Padşah səfərdən sonra yatmağa üz qoyur. Uzun bir yuxu çəkir və dincini alır. Birdən onun yadına zülmətdə olarkən mələyin verdiyi daş düşür. Padşah əmr edir ki, tərəzi qoyulsun. Tərəzinin bir gözünə dağlardan da ağır daşlar qoyuldu. Nə qədər ağır daşlar qoysalar da, yenə mələyin verdiyi daş ağır gəldi.

Orada olanlardan biri dilləndi:

- Xızır deyirmiş ki, bu daşın qənimi ancaq bir ovuc torpaqdır.

Bu sözə inanıb çəkinin bir gözünə torpaq tökürlər. Bu zaman görürlər ki, çəkinin gözləri bərabərləşdi. Bu hadisədən şah anladı ki, şahlığın tamahını yalnız qəbir doyurar.

Günlərin bir günü böyük İskəndər şahlara layiq bir məclis qurur. O bütün ölkələrin şahlarını bura çağırmışdı. Hər kəs bu məclisdə şirin-şirin söhbət edirdi. Birdən söz zülmətdəki çeşmədən düşdü və söhbət get-gedə uzanmağa başladı. Bu məclisdə oturanların arasında bir qoca var idi. O dilləndi:

- Ey böyük İskəndər, sən ölməmək üçün dirilik suyunu axtarırdın. Bunu bil ki, bu ölkədə bir şəhər var. Bu şəhərdə bir nəfər də olsa ölən tapılmaz. Bu şəhərin yaxınlığında bir dağ var. Bəzən o dağdan səslər gəlir və deyilir ki, ey filankəs yuxarı səmtə səfər eylə. Bu sözü eşidən adam da dərhal deyiləni edir. Gedən adam isə dağların ardında yox olur. Bu sirri hələ də açıb öyrənən yoxdur. Əgər ölümdən qurtulmaq istəyirsənsə, bu şəhərə səfər elə.

Padşah bunları eşidib əmr edir ki, bir neçə nəfər getsin həmin şəhərdə bir az qalsın, bu işin əslini öyrənsin və mənə doğru xəbər gətirsin. Əgər dağdan sizə səs gəlsə getməyin. Hətta adınızı çağırsalar belə getməyin.

Əmri alanlar baş əyib, yola düzəldilər. Onlar gəlib bu şəhərə çatdılar. Bir neçə vaxt burada qaldılar. Nəhayət elə bir



vaxt yetişdi ki, dağdan gələn səs onlardan birini çağırdı. Dostları nə qədər etsələr də onu saxlaya bilmədilər. Beləliklə bir neçə nəfər də bu şəkildə çağırıldı və onları da saxlamaq olmadı. Bu əhvalatdan sonra şahın göndərdiyi adamların qalan hissəsi geri döndü. Onlar baş verənləri şaha çatdırdılar. İskəndər bu işdən heyrətləndi və dedi:

- Öyrənən yoxdurmu bu gizli hikməti?

Heç kəs cavab verə bilmədi. Şah çox uzun müddət fikrə getdikdən sonra dedi:

- Bu o deməkdir ki, o dağa gedən ömrünü başa vurmuşdur və bu dünyadakı vaxtı bitmişdir. Əcəl pəncəsindən heç kim yaxa qurtara bilməz. Ona görə də o dağa dırmananlar əslində o biri dünyaya gedirlər.

### İskəndərin Ruma qayıtması

Rəvayət edənlər belə söyləyirlər ki, İskəndər bir mağara yanında çadırını qurur və burada bir şəhər saldırır.

Bu şəhərin adına Bulğar deyərmişlər:

Şah Bulğardan rus elinə keçir və buranı abad edib, Rum dənizinə qayıdır. Buradan da öz ölkəsinə dönür. Şahın gəlməsilə Rum ölkəsi şənlik edir, tanrıya şükür edirlər. Şah ölkəsinə dondükdən sonra gətirdiyi xəzinələri xalqa paylayır, hər yerə ləl-cəvahirat daş-qaş dağıdır. Tabe etdiyi ölkələrə naiblər təyin edir və öz ölkəsini də abadlaşdırır. Sonra İskəndər dünya elmlərilə maraqlanır və tanrı hikməri haqda biliklər əldə edir. Sonra da haqqın əmriylə böyük İskəndər peyğəmbərliyə çatır.



## II hissə

# İQBALNAMƏ

## Kitabın başlanması

Bir yunanlı filosof nəql edir ki, dünyanı səyahət edən İskəndər bir neçə ölkədən keçib öz yerinə, yurduna çatdı. Ağılın hər bir sirrə yol tapması üçün fikrini elmə, biliyə yönəldib, doğma vətənini nurlara qərq etdi. Fikri, xəyalı göylərin dərinliklərinə baş vuraraq, çox bağlı qapıların sirrini açmağa müvəffəq oldu. Pəhləvi və dəri* dilində yazılmış bir çox əsərləri bəyənib (bununla bərabər fars dilində yazılmış şahanə dəftəri) dilində su kimi əzbər etmişdi.O,bilik xəzinəsini doldurmaq üçün Rumda,Yunanda ümumən dünya dillərində nə varsa tərcümə edilməsini buyurdu. Elm üçün hər yandan dürr yığıb böyük bir ümman yaratdı. Onun yaratdığı birinci əsər-dünyaşünaslıqdan, digəri-ruhani sirlərə açar olan bir əsər idi. Bununla yunanalar əbədiyaşarlıq qazanmışdılar. Biri də dəmiri mum kimi yumşaldan "İskəndərin qeyidləri" idi ki, bununla onlar fələyin sirlərindən xəbər tutardılar. İskəndərdən sonra İranda hakimiyyət sürmüş sultanlar nəslindən olan İntiyaxisin adına yazılmış eyniadlı bir kitab da



yadigar qalmışdır ki, neçə-neçə ağıl övladı bu kitablarla gələcək nəsillərə nur yaymışlar.

İskəndər də elmə, hünərə yüksək qiymət verərək, alimin yerini hamıdan uca olduğunu, ən əziz insan da elə alim olduğunu, hakimiyyətə gələrkən qərar vermişdi. Bir kəsin digərindən üstün olması yalnız və yalnız onun elminə görə idi. Onun dövlətinin elmə təşviq edib, xüsusi yer verməsi hamıda bu sahəyə böyük maraq yaratmışdı. İskəndər haqqın cəlalına baş əyib, elm üçün bərsiz-bəzəksiz söyüddən qurulmuş sadə bir otaqda bir dəri üstündə diz çökdüyündən qəsrinin bürcləri göyə dəyib elmilə məşhurlaşmışdı.

Haçan ki hökümdarın könlü dünyadan doyurdu, bir xeyli müddət tacını da götürüb ibadətxanaya rəvan olar, üzünü təmiz torpağa sürtərək Tanrıya yalvarardı. Keçmiş günlərinə şükür edərək, gələcək günlərinə kömək diləyib, bütün qazandığı qalibiyyəti Allahın hədiyyəsi sanardı. O, inanırdı ki, sidq ilə ibadət edən insan haqqın dərgahından naümid qayıtmaz. O zülmə, ədalətsizliyə imkan verməyib dünyanı daim bir mizanda saxlardı və bütün insanlar üçün qapısı hər zaman açıq olardı. Düzlüyü özünə şüar etdiyindən yeddi ölkə hakimi olmuşdur. Həmişə işbilənlərdən tədbir soruşduğu üçün özündə işbilən idi. Yoxsa rum papaqlı bir türk nə cür Çinə, Hindistana ayaq basıb, orada öz səltənətini qurardı. Deyirlər haraya üz tutsaydı yanında ən möhkəm mərd qılıncvuranlardan mahir cadugərlərdən dilləri atəş kimi natiqlərdən, alim və uzaqgörən hikmətşünaslardan, gecələr dua edən zahidlərdən və Peyğəmbərlərə pənah gətirənlərdən ibarət hazır altı dəstə olardı. Bu altı dəstədən ibarət bir məclis qurub, onlardan iş üçün məsləhət aldığına görə qarşısına çıxan

çətinlikləri eyni zamanda yaşlı kişilərin məsləhəti və xoştale ulduzların hərəkəti ilə yoluna qoyardı. Ona bir qatı düşmən rast gələrdisə ən əvvəl qızılı işə salıb bu müşkülə bir əncam çəkməyə çalışardı. Bundan bir nəticə hasil olmasa dərhal əlini qılınca atardı. Qılıncla da bir nəticə ala bilməsəydi, işi əfsunçulara tapşırardı. Onlar da bir iş görə bilməsəidilər natiqlər təsirli sözləri ilə düşməni yola gətirməyə çalışardı. Sözün də düşmənə təsir etmədiyini görən alimlər bir tədbir görməyə çalışardılar. Çarəsiz olduqda zahidlər Allaha yalvarar, yenə də səmərəsiz olduqda, bu iş peyğəmbərlərə həvalə olunardı. Hərgah müşkül həll olunmasaydı haqqa pənah gətirərdilər. Şahın da bəxti Allaha ümüd bağladığına görə daim gətirər, işlərinə xeyirlə əncam olardı. O, keçdiyi yollara diqqət edib, gördüyü şeylərdən ibrət alardı. Heç şeyə bir oyuncaq kimi baxmazdı.

Günlərin birində musiqiçilərin də iştirakı ilə İskəndər ucsuz-bucaqsız bir məclis düzəldib hər yanı şadlığa qərq etdi. Məclisdə libası yeddi rəng zərif ipəkdən, ərişi arğacı güldən-çiçəkdən olan gözəl bir oxuyan vardı ki, şah ona heyran qamışdı. O paltar sahibi bir xeyli müddət ömr edib hər yanda böyük şöhrət qazanmışdı. Ancaq o zərif paltar zaman keçdikcə köhnəlib üzülür, onu məclisdən qoyurdu. Bir gün müğənni üzü astar edib, xam bezdən olan astarı da üz edib məclisə çıxdığı zaman şah ona acıqlanıb dedi:

– Niyə qızılgülün ləçəklərini atıb, ətəyini tikanla bəzədin ki, geydiyin ipək də palaza döndü.

Xanəndə şahın başına, canına and içib təzim etdi:



– Ey hökümdar, diqqətlə nəzər salsanız heç nəyin dəyişmədiyinin və köhnəldiyi və sizi görəndə utandığım üçün astarın üzünə çevrildiyinin şahidi olarsınız .

Bu sözlər şaha o qədər təsir elədi ki, dayanıb heyrətlə bir qədər baxdıqdan sonra, ona xeyli hədiyyə-xələt bəxş edib dedi:

– Əgər bizim iç üzümüz açılarsa, bəlkə də dünyanı üfunət bürüyər. Madam ki, o rumi ipək içdən belə çirkin, üzdən qəşəngmiş, gərək biz də bu dünyada yaxşı qoxu verməyən qara ud ağacı kimi yanaraq, üzü rənglərlə örtülü eybimizi üzə çıxarmayaq.

## İskəndərin başqırxan qul ilə əhvalatı

Dünya şöhrətli sərkərdə Makedoniyalı İskəndər xalq arasında "Zülqərneyn" ləqəbi ilə də tanınmışdır.

Rəvayətə görə İskəndər yuxuda görüb ki, Şərqi və Qərbi günəşin əlindən almış, iki qərin (Şərq və Qərb) sahibi olmuşdur. Buna görə ona "Zülqərneyn" (iki qərin sahibi) ləqəbini vermişlər.

Başqa bir rəvayətə görə İskəndər Şərqi və Qərbi bildirmək üçün saçını başının dalında iki dəstədə hörüb burarmış. Buna görə də ona "Zülqərneyn" (iki hörüklü) deyərmişlər.

Dünya filosofu Əbu Məşər "Üluf" adlı məşhur əsərində yazır ki, İskəndərin ölümündən kədərlənən yunanlar kağız üzərinə şəklini çəkirlər. Rəssam onun sağ və sol tərəfində iki gözəl mələk şəkli də çəkir. Həmin rəssam mələklərin başında



iki rəngbərəng buynuz əks etdirmişdir. Allah insanı xəlq edəndə hər iki tərəfində mələklər oturdar. Guya İskəndər

Allah tərəfindən yaradılıb yerə göndərilmiş, bu mələklər də onun keşikçiləri hesab olunurdu. Rumlu rəssamların yaratdığı bu şəkil bütün dünyaya yayılmış və böyük şöhrət qazanmışdır. Sonra həmin şəkil ərəblərin əlinə keçmiş, onlar buynuzlu mələyi İskəndər bilib ona "Zülqərneyn" (iki buynuzlu) adını vermişlər.

Başqa bir rəvayətdə deyilirdi ki, İskəndərin qulaqları çox uzun olduğuna görə, onları qizlətmək üçün o tacının yanlarında buynuza oxşar iki balaca qın da qayıtdırıbmış. Onun başını qırxan quldan başqa bu sirdən heç kimin xəbəri yox imiş. Günlərin birində həmin qul öldü və İskəndər özünə ayrı bir başqırxan tapdı. Dəllək təzim etdi və İskəndərin saçını qırxmağa başladı. Xəlvətdə saçını qırxıb qurtaranda şah ona dedi:

– Bilsəm bu sirri səndən bir nəfər də olsa eşidib, başını bədənindən ayırtdıraram.

Bunu qulağına sırğa edən dəllək, hətta bu sirri yaxın dostlarından belə gizlətdi. Dəllək gündən-günə saralıb solurdu, çünki sirr saxlamaq çox çətin idi. Dözə bilməyən dəllək günlərin bir günü baş götürüb çölə üz tutdu. Bir qədər gedəndən sonra çöldə dərin bir quyuya rast gəldi. İskəndərin uzun qulaqları olduğunu deyib öz sirrini quyuya açdı. Bundan sonra elə bil ki, dəlləyin üzərindən ağır bir yük götürüldü.O,

evinə döndü . Həmin gündən sonra da bu sirri heç kimə danışmadı. Bir müddət sonra həmin quyuda bir qamış göyərdi. Qamış xeyli boy atmışdı ki, oradan keçən bir çoban qamışı gördü. Əyilib qamışı kəsdi və özünə bir tütək düzəltdi. Çoban hər gün böyük həvəslə tütəyi çalırdı.

Bir gün padşah səhraya çıxmışdı və uzaqdan çobanı gördü. Çobanın çaldığı neyin səsini eşidəndə padşaha elə gəldi ki, çöllər onun üstünə qalxıb. O, neyin səsindən sanki " İskəndərin uzun qulaqları var " sözlərini eşidirdi. İskəndər bərk qəzəbləndi və səs gələn tərəfə getdi. Çobanı yanına çağırıb tütəyin sirrini soruşdu.

Çoban dedi:

– Gördüm quyuda bir qamış bitib. Şəkər qamışı tək şirin suda bitən bu qamışı kəsib-doğrayıb öz əllərimlə tütək düzəltdim. Bu tütək cansız olsa da, məni isidir, dilsiz olsa da, hisslərimi, duyğularımı bəyan edir.

Bu əhvalat şahı çox heyrətləndirdi. O, öz ölkəsinə qayıdıb dəlləyi yanına çağırtdırdı və dedi:

– Sən hansı cürətlə bu sirri bəyan etmisən!

Əgər düzünü desən səni bağışlayaram, yalan söyləsən boynunu vurduracağam.

Dəllək şahın sözlərini eşidib səcdə etdi və sirri açıb şaha danışdı:

– Doğrudur, sirri gizli saxlamağı əmr etmişdiniz. Lakin tab gətirə bilmədiyim üçün mən bu sirri təkcə bir quyuya



açmışdım. Allaha and olsun ki, başqa heç kimə bu barədə bir kəlmə də danışmamışam.

Şah gördü ki, dəlləyin sözləri ilə çobanın sözləri uyğun gəlir. Qullardan birinə həmin quyudan bir qamış kəsib gətirməyi əmr etdi. Gətirilən qamışdan yenidən bir tütək hazırlandı. Elə ki, təzə tütəyi çalmağa başladılar şah yenə həmin səsi eşitdi. İskəndər başa düşdü ki, bu dünyada heç bir sirri gizli saxlamaq mümkün deyildir gec-tez o aşikar olacaqdır. Ona görə də o, dəlləyin boynunu vurdurmayıb, onu azad etdi.

## İskəndər ilə çoban dastanı

Dünyagörmüş qoca bir loğman nəql edirdi ki, rum kəmərli, çin taclı şah bir sabah taxtında çox kədərli oturmuşdu. Dünyanın cah-calalı, zövq və səfası gözünə görünmürdü. Günəş üzlü, ay çöhrəli yarının bənizi solmuş, əlacsız bir dərdə düçar olub qızdırma içində yanırdı. O qızın arzusu, kamı ürəyində qalmışdı, dərdinə çarə tapılmırdı. Şahın sevdalı ürəyi də o gündən dərdə mübtəla olmuşdu.

Şah əmr etdi ki, dünyada nə qədər məşhur həkim var yığılıb bu dərdə əlac tapsınlar. Dünyanın müxtəlif yerlərindən gələn həkimlər saraya yığıldılar. Lakin o gözəlin dərdinə heç bir çarə tapılmadı ki, tapılmadı. Könül verdiyi bu gözəlin dərdinə əlac olmaması şahı daha da qəm-qüssəyə qərq etmişdi.

Şah qəmgin halda eyvanda dayanıb dağları, çölləri seyr edəndə gözünə ağ saçlı, nurani bir qoca çoban göründü. Bu nur üzlü qocanı görən zaman şah bir az sevindi. Tez adam



göndərib bu pirani çobanı yanına çağırtdırdı. Qoca çoban gələndə gördü ki, bu saraya başı göylərə dəyən möhtəşəm bir qəsrdir. O başa düşdü ki, belə bir saray yalnız İskəndərə məxsus ola bilər. Çoban şahın hüzuruna gəldi və ədəblə təzim etdi.

Şah dedi:

– Ey çoban, sən dünyagörmüş adamsan mənə dağdan, dərədən elə bir hekayət danış ki, bəlkə könlüm açıla, fikrim dağıla.

Çoban söylədi:

– Ey böyük hökmdar, dünyanı abad edən sən özünsən, şöhrətin bütün dünyaya yayılıb. Ancaq söylə görüm könlün nə üçün qubar tutub. Əgər mən sizin dərdinizi bilsəm, bəlkə sözlərimlə bir çarə edə bilərəm.

Şah gördü ki, çoban çox ağıllı, müdrik, dinpərvər bir insandır. Ona görə də öz dərdni açıb ona danışdı.

Çoban şahın dərdindən hali oldu. "Allah sizi pis gözdən , bəd nəzərdən qorsun, taxt-tacınız bütün ölkəyə işıq salsın" deyərək söhbətinə başladı :

- Mən gənc vaxtlarımda çox şahlara xidmət etmişəm. Ancaq uca boylu, sərv qamətli Mərv şahzadəsi heç vaxt yadımdan çıxmaz. Onun gözəl, mehriban, ay üzlü bir yarı var idi. Bir gün bu mələk simalı qız əlacı bilinməyən dərdə tutuldu. Qızdırma da onu haldan salmışdı. Bir çarə edə bilmədikləri üçün hamı ondan ümidini kəsmişdi.

Ümidi gözəl qızdan kəsilən biçarə şahzadə dərd əlindən baş götürüb çöllərə düşdü. Ucu-bucağı görünməyən meşəsiz, dağsız, qupquru səhraya bənzəyən bu çölün hər tərəfində pələnglər, şirlər yatan xaraba mağaralıqlar var idi. Burada nə

bir ot, nə də bir ağac bitmədiyi üçün xalq bu yeri "Ölümlər çölü" adlandırırdı. Həyatından bezən hər kəs bu çölə üz tutardı və qayıtdığını da heç görən-eşidən olmazdı.

Şahzadə də dözülməz dərd əlindən o çölü özünə məskən seçmişdi. Onu canından çox sevən bir dostu var idi. Bildi ki, "Ölümlər çölü" ndə şahzadə məhv olacaq. Ona görə də quldur tək üzü niqablı, əlində yaraq onun arxasınca getdi. Özünü ona yetirib, tanınmaz bir səslə nərə çəkərək şahzadəni yerə sərdi. Dərhal onun gözlərini bağlayıb o qorxunc yeri tərk etdi. Sonra şahzadəni öz gizlin otağına aparıb inandığı yaxın bir adamınıda ora keşikçi qoydu. Tapşırdı ki, bu sirri şahzadə bilməsin. Ona hər gün az miqdarda çörək və sudan başqa yeməyə heç bir şey verilməzdi. Dərdli şahzadə bu bəlanın haradan gəldiyini, zindana niyə düşdüyünü anlaya bilmirdi. Dostu isə durmadan, gecə-gündüz onun sevgilisinin dərdinə çarə axtarırdı. Nəhayət o dərd bilən bir təbib tapdı, onu bir müddət yanında saxladı. Təbib dərman hazırlayıb o gözəli ölümün pəncəsindən xilas etdi. Şahzadənin dostu vəziyyəti belə görəndə çox sevindi və evində şahanə bir məclis qurdu. Udun xoş sədaları altında o gözəl qızı da məclisdə otuzdurdu. Sonra şahzadəni məclisə gətirən dostu pərdəni onun üzündən açıb min cür nəvazişlə qulluğunda durdu.

O məclisdə sevgilisini də əvvəlki tək sağlam, gözəl görən şahzadə elə bil ki, dünyaya yenidən gəldi.

Qoca çobanı dinləyən İskəndər elə bil yuxudan ayıldı, ümidləri yenə qəlbində baş qaldırdı. Elə bu an şah "Sağaldı! Sağaldı!" sözlərini eşitdi. Bu nurani qocanın uğurlu gəlişindən və eşitdiyi xəbərdən sevinən İskəndər onunla şahanə rəftar etdi. İskəndər o müdrik qocanın söhbətindən sonra belə



düşündü ki, səninlə xoş danışan hər kəsi ürəklə dinləyib, nalayiq sözlərlə müraciət edənə isə sükutla cavab versən, onun faydasını görərsən. Əgər hər hansı bir işdə səbirlə, ağılla hünər göstərsən muradına yetişərsən.

## Arşimeds ilə çinli kənizin hekayəsi

Rumlu bir filosof nəql edirdi ki, Yunanıstanda Arşimeds adlı xeyirxah , mərd, kübar bir alim yaşayırdı. Onun ağıllı, düşüncəli, böyük idrak sahibi olduğunu görən böyük alim Ərəstu ona atalıq qayğısı göstərib təlim vermək üçün bir ev də ayırdı. İskəndər Arşimedsə inanıb divanı ona tapşırmışdı. Ruslarla vuruşdan qayıdan zaman Çin xaqanı şaha bir kəniz hədiyyə etmişdi. Şah da bu kənizi Arşimedsə bağışladı. Başı kənizlə eyş-işrətə qarışan Arşimeds dərslərini unutdu. Onun bu halı müəllimi Ərəstunu da təşvişə saldı, İstedadlı tələbəsinin dərsdə olmaması ustadın da həvəslə dərs keçməsinə mane olurdu. Dünya şöhrətli alim Ərəstu diqqətli, ağıllı və istedadlı bir tələbəni yüz diqqətsiz, ağılsız tələbədən üstün hesab edirdi. Vəziyyəti belə görən ustad Arşimedsdən soruşdu:

– Nə üçün dərslərinə biganə olmusan? Elmə qarşı bu qədər laqeydlik sənə yaraşarmı?! Yoxsa bizlərdən soyumusan?

Arşimeds cavab verdi:



– Hörmətli ustad, şah mənə nəvaziş göstərərək bir çinli kəniz hədiyyə etmişdir. O gözəlin məhəbbəti ürəyimə düşdüyünə görə dərsləri unutdum. Mümkünmü bir qəlbdə iki məhəbbət daşımaq? Bunun üçün məni bağışla.

Ərəstu gördü ki, Arşimeds qızın gözəlliyinə uyub elmdən, təhsildən uzaqlaşır. Buna görə də Arşimedsdən xahiş etdi ki, ağlını başından alan o gözəl qızı əgər mümkünsə, onun yanına gətirsin. Arşimeds müəlliminin sözünə əməl edərək həmən gözəli ustadının yanına göndərdi. Ərəstu düzəltdiyi dərman vasitəsilə onun gözəlliyini əlindən aldı. Qızı sağlamlıq, gənclik və gözəllikdən məhrum etdi.

Bir gün şagirdini yanına çağırıb yarını ona göstərdi. Arşimeds vəziyyəti belə görüb ustadından soruşdu:

– Bu eybəcər qadın kimdir? Bəs mənim ürəkdən sevdiyim o gözəl dilbərim haradadır?!

Cavabında ustadı ona dedi:

– Əzizim Arşimeds, mən sənin ötəri zövqlərə, dünya ləzzətlərinə bağlandığını görüb bu işi elədim ki, sən əbədi olan şeylərə meyil göstərib ömrünün zövq-səfasını elmdə, təhsildə, mənəviyyatda tapasan. İnsan zahiri gözəlliyə uymamalı, eyş-işrətə aludə olmamalıdır. Abır-həyasını qoruyub saxlamağı bacaran insan həmişə alnıaçıq, şad yaşayar. Dünya və insanın həyatı ona görə durmadan dəyişilir ki, bir-birinə zidd olan müxtəlif qüvvə və maddələrdən, dörd ünsür (su, od, torpaq, hava) yaxud dörd cəhət (şərq, qərb, cənub, şimal) və göyün 7 təbəqəsindən ibarətdir. Müəllimin nəsihətindən nəticə çıxaran Arşimeds ondan üzr istədi və yenidən əvvəlki həvəslə təhsilini davam etdirməyə başladı.

Arşimeds dərslərinə davam etsə də, o gözəli heç cürə ürəyindən çıxara bilmədi. Bir müddətdən sonra dərmanın təsiri keçdi və sərv boylu kənizin əvvəlki gözəlliyi qayıdıb yerinə gələndə Arşimeds gül görmüş bülbül kimi yenidən meyilini o gözələ saldı. Elm və dərsin yolunu tərk edib o pəri qızıyla gizli görüşməyə başladı. Arşimedin iradəsizliyini görən Ərəstu onu danlamaqdan əl çəkdi.

Bir neçə il ötdü. Bir gün Çin qızı dünyadan köçdü. Qara torpaq o gözəli ağuşuna aldı. Parlaq üzü ilə ay işığının yolunu bağlayan, gözəlliyi ilə şahları belə mat qoyan çin gözəli əzəldən yoxmuş kimi bir anın içində yox oldu.

Bu dünyada insan əbədi olana meyil göstərməlidir. Daxilini gözəlləşdirməyə çalışmalıdır, zahiri gözəllik gəldi-gedərdi.



## Qibtli Mariyənin hekayəsi və onun kimyagərliyi

Qoca filosof nağıl edirdi ki, Şamda Mariyə adlı bir əmir qızı yaşayırdı. Düşmənlər tez-tez onun yurduna basqın edərək bir çox qalalarını əlindən almışdı. Mariyə bundan təngə gəlib İskəndərdən kömək istəmək fikrinə düşdü. Saraya üz tutan Mariyə orada vəzirlə rastlaşdı. Mariyə vəzirin bir dəstə gəncə elm öyrətdiyini gördü. Davanın bir cəncəlli iş olduğunu anlayıb əvvəlki iddiasından əl çəkdi və böyük həvəslə elm öyrənməyə başladı. Fikri, məqsədi təlim olan Mariyə üçün ustadı Ərəstu elm, bilik xəzinəsinin bütün qapılarını açmışdı. Mariyə elmlərin sirlərinə dərindən yiyələndi. O, vətəninə qayıdıb səltənətinə yenidən başçılıq etmək fikrinə düşsə də, hakimiyyətini bərpa eləmək üçün var-dövləti, qüvvəsi yox idi. Bundan xəbər tutan müəllimi Ərəstu düşündü ki, xəzinəsiz hökmdar olmaz.

Ərəstu Mariyəyə kimyəvi üsulla qızıl əldə etməyin sirlərini öyrətdi. Bu elmə dərindən yiyələnən Mariyə az müddətdə məşhur kimyagər kimi tanındı. Vəzir İskəndərin

izni ilə ona ordu və xəzinə verib öz ölkəsinə yola saldı. Mariyə doğma yurduna çatıb yenidən şah oldu. O, o qədər varlandı ki, əhalini vergidən azad etdi. Kimyanın sirlərini bildiyinə görə Mariyə xam gümüşdən qızıl əldə edirdi. Buna görə ölkənin xəzinəsi qızılla dolmuşdu. O, xəzinənin qapılarını xalqın üzünə açmışdı.

Başqa diyarda yoxsulluqdan əziyyət çəkən xeyli insan şahın xəzinəsindən xəbər tutub onun hüzuruna gəldilər. Şaha bildirdilər ki, bizim elmdən başqa heç bir peşəmiz yoxdur, heç vaxt qazanc güdməmişik, bəlkə də buna görə bir tikə çörəyə möhtac qalmışıq. Qərara gəldik ki, sizə müraciət edək, kimyanın sirlərini bizə də öyrədəsiniz. Bu dünya gövhər xəzinəsi ilə elə zəngindir ki, nə qədər paylansa da tükənən deyil. Biz də gəldik sizin sayənizdə çörək sahibi olaq.

Safqəlbli, işbilən hökmdar onların təkliflərinə hörmətlə yanaşıb öz razılığını bildirdi. Qibtli Mariyə qara saçlarına incilər düzüb ölkənin gözəl bir guşəsində olan Əzəm qayasına çıxaraq alimləri yaxınına çağırıb sözə başladı:

– Əgər alnımdakı bəndə diqqət etsəniz, o gizlin iksiri bilərsiniz.

Bu sözə hərə bir məna verdi. Saçlarına qiymətli daş-qaşlar düzdüyünə görə bu sirri kimi onun saçlarında, kimi də alnında aramağa başladı. Bu düşüncələr içində hərə bu sənətlə məşğul olmaq üçün bir yol seçdi. Lakin heç bir şey əldə edə bilmədilər. Ona görə də yenidən Mariyənin hüzuruna gəlib bu sirrin izah olunmasını xahiş etdilər. Mariyə kimya haqqında bilgilər verərək bu iksirin sirlərini açıqladı. Ağıllı adamlar bundan nəticə çıxarıb xeyli xəzinə əldə etdilər. Elmin gücü ilə



həqiqi kimyagərliklə insan çox şey əldə etmək qüdrətinə malikdir.

Belə hekayət edirlər ki, bir hiyləgər xorasanlı Bağdada gəlir. O, dolanmaq üçün xeyli əziyyət çəksə də, nəhayət özünə uyğun bir peşə tapır.

Xeyli qızıl əldə edib onu yeyəylə ovub sürtərək sarı palçıqla qarışdırdı. Xəmirtək yoğrulmuş bu qarışıqdan xeyli möhrə (yumru kürəcik) düzəldib bir əttarın yanına gəldi. Bir-bir bunları möhürləyib bir müddət əmanət kimi saxlamasını tapşırdı və əttarın bu işdən böyük xeyir əldə edəcəyini vəd etdi. Əlavə olaraq bildirdi ki, hələlik bunları bir dinara satsam da, yaxın vaxtlarda gəlib bu möhrləri səndən bizə on qiymətə geri alaram. Əttar ondan bu möhrlərin nə olduğunu soruşdu. Xorasanlı əttara bu sirrin öz aralarında qalmasını tapşırıb təbərrük olduğunu bildirirdi. Əttarın yanından qayıtdıqdan sonra Xorasanlı əfsunla kimyagərlik etməyə başladı.

Artıq hər tərəfə xəbər yayıldı ki, elmin sirlərini yaxşı bilən bir kimyagər peyda olub. O daha bir hiyləyə əl ataraq camaatı inandırırdı ki, mən bu iksirlə biri on, yüzü min etməyə qadirəm.

– Hər kim ki, bəri başdan mənə dinar versə, mən yüz dinarı min dinar edib ona böyük xeyir verəcəm. Əgər şübhəniz varsa, işbilən biri işimə nəzarət edə bilər. Yox, əgər dediyimdə dürüst olmasam, başımla cavab verməyə hazıram.

Xəbər xəlifəyə çatdı. O, çox tamahkar adam idi və bundan istifadə etmək qərarına gəldi. Xorasanlının yanına müəyyən qədər qızıl göndərdi.

Xorasanlı zərgər qaydası ilə kürə qurdu. Bir qabın içərisinə cürbəcür dərmanlar tökdü. Təbərrük axtarmaq üçün

şəhərin hər yanına adam göndərdi. Müştərilər hər yeri ələk-vələk edib axırda həmin əttarın yanına gəlib çıxdılar. Xorasanlının əttara verdiyi möhrələri ondan baha qiymətə aldılar.

Aldıqları möhrələri gətirib xorasanlıya verdilər. Xorasanlı həmin möhrələri doğrayıb kürəyə saldı. İsti kürədə gil yandıqdan sonra saf qızıl qaldı. Saf qızılı götürüb qəlibə tökdü.

Xəlifə gördü ki, o, qızılı birə-on qat artırır. Xəzinəsini daha da çoxaltmaq üçün o, xorasanlıya çox hörmət etdi və inanaraq on min misri qızıl göndərib tapşırdı ki, tez bir zamanda bu işi həll etsin. Xorasanlı xəlifənin etibarından istifadə edərək bir gecə qızılları atlara yükləyib gizlin bir yol ilə aradan çıxdı.

Xəlifə onun qaçdığını biləndə təbərrük söhbətini xatırladı. Təbərrük satanı yanına çağırtdırdı. Əttar xorasanlı ilə olan bütün əhvalatı padşaha danışdı. Xəlifə xorasanlının saxtakar kimyaçı olduğunu anlayıb düşündü ki, bu dünyada əfsuna, caduya inanmaq ağılsızlıq imiş.

İskəndərə xəbər çatdırdılar ki, Mariynin əlinə xeyli var-dövlət keçib. Dünya qədər xəzinəsi var, əfsunla daşı da qızıla çevirir, sədəfdən zərif incilər düzəldir. O qədər var-dövlət əldə edib ki, əgər şah tədbir görməsə, bir gün dünyaya hökmranlıq etmək fikrinə düşəcək. Şah bu sözdən qəzəbləndi və dedi:

– Onu gərək məhv edəm!

Bunu eşidən müdrik vəzir şahın hüzuruna gəldi, hörmətlə baş endirib dedi:

– O qadının saflığına heç bir şübhəniz olmasın. Onun məqsədi sizə xidmət etməkdir. Hətta kəniziniz olmağı özünə



şərəf bilər. O, bir müddət mənim xidmətimdə olmuşdur. Fərasətli, ağıllı olduğunu görüb elmin sirlərini, xəzinə əldə etməyin yolunu ona öyrətmişəm. O, zəhməti, ağlı hesabına kifayət qədər pul əldə edib öz doğma elınə hakim oldu.

Vəzirin bu sözlərindən sonra İskəndər fikrindən daşındı. Vəziyyəti belə görən vəzir Mariyəyə xəbər verdi ki, padşah elçi göndərib aranı düzəltsin.

Xəbəri alan ağıllı Mariyə qızıl dolu xəzinəsinin ağzını açdı, şaha misilsiz xəzinə göndərdi.

Beləliklə, şahın qəzəbi soyudu, Mariyəni gözləyən təhlükə sovuşdu.

## Fağır çörəkçinin hekayəsi və onun varlanması

Deyirlər Ruma başqa diyardan yoxsul bir kişi gəlibmiş. Çox az bir zamanda xeyli var-dövlət, karvan-karvan xəzinə, sərvət əldə etmişdi. Heç kəs bilmirdi ki, dərya qədər bu xəzinə onun bəxtinə haradan düşmüşdü. Camaat o yazıqdan əl çəkmirdi. Kimi mədən tapıb, kimi də ev talayıb deyə düşünürdü. Padşaha xəbər verdilər ki, bir ilə yaxındır bizim ölkəyə gələn yoxsul, quru çörəyə də, suya da möhtac olan bu adam indi o qədər qızıl, mal, sərvət sahibidir ki, hörmətli şahımız on katib ayırsa belə, onun dövlətini, varını hesablayıb qurtara bilməz. Onun heç bir sənəti yoxdur, ticarətlə məşğul olmur, əkinçilik bacarmır. Bəs bu qədər var-dövləti hardan əldə etmişdir?

Padşah əmr etdi ki, çörəkçi onun hüzuruna gəlsin və bu sirdən onu agah etsin. Çörəkçi padşahın hüzuruna gəlib ədəblə baş əydi. Padşah dedi:

– Eşitmişəm karvanların belə çəkə bilməyəcəyi qədər var-dövlət sahibisən. Bu qədər var-dövləti necə əldə etmisən?



Əgər doğru danışsan, canına, malına heç bir zərər gəlməz. Yox əgər sözündə bir yalan duysam, ən ağır cəza alarsan!

Şahın qəzəbləndiyini görən çörəkçi fikirləşdi ki, düz danışmaqdan başqa heç bir çıxış yolu qalmayıb. O başına gələnləri əvvəldən axıradək şaha danışmağa başladı:

– Ey şahım, mən bu ölkəyə gəldiyim zaman çox yoxsul idim. Çörək satıb arvadımla yarıac, yarıtox yaşayırdıq. Şahı səxavətli olan ölkədə çörək satıb varlanmaq olmaz. Günlərin bir günü yavan çörəyə də möhtac qaldıq. Hamilə arvadımın doğum möhləti çatmışdı. Aclıqdan taqəti qalmadığını görüb, onun üçün yeməyə bir şey tapmaq ümidi ilə evdən çıxdım. Şəhəri başdan-başa ələk-vələk etsəm də elə bil bütün qapılar üzümə bağlı idi. Sanki məni bədlik tutmuşdu. Şəhərdən çıxanda bir xarabalığa rast gəldim. Bu köhnə bir sarayın xarabalığı idi. Toz-torpaq basmış bu sarayın hər tərəfini axtarmağa başladım. Orada atəşpərəst bir zənciyə rast gəldim. Ocağın üstünə qoyduğu qazanda nə isə bişirirdi. O, məni görəndə dik atıldı və üstümə qışqırıb dedi:

– Sən kimsən? Heç oğru da oğrudan oğruluq edərmi?

Bu zaman özümü itirdim və zəncini dilə tutmağa başladım:

– Mən kasıb, fağır bir adamam. Sənin səxavətin, mərdliyin haqqında eşidib kömək istəməyə gəlmişəm. O, bu sözləri eşidəndə acığı soyudu. Mənə rud verib bir nəğmə çalmağımı istədi. Qorxudan rudu kökləyib çalmağa başladım. Zənci gah gülə-gülə şərab içir, gah da rəqs edirdi. O məst olub bütün sirlərini mənə danışmağa başladı:

– Mənim özüm kimi bir yoldaşım da var. Əlimizə gizli xəzinə keçmişdir. Ona görə də daha quldurluq etmirik. Xeyli

müddətdir o xəzinədən yeyib-içir, dərd-qəm bilmədən yaşayırıq. Xəzinə artıq tükənmək üzrədir. Dostum gedib ki, qalan xəzinəni də gətirsin. İndi mən onu gözləyirəm. Mənim məqsədim onu bu gecə öldürüb bütün xəzinəyə sahib olmaqdır. Sənə də könlün şad olsun deyə o xəzinədən bir az verərəm. Amma bir şərtim var. Gərək o gələndə sən bir küncdə gizlənəsən ki, səni görməsin.

Biz zənci ilə söhbət edərkən qafildən ayaq səsləri eşidildi. Dərhal qaçıb gizləndim. Mənim ürəyimdə bir tərəfdən arvad-uşaq dərdi, ölüm qorxusu, digər tərəfdən də xəzinə qazanmaq, varlanmaq arzusu var idi. Elə bu vaxt qara, pəhləvan cüssəli bir adam çiynində ağır bir bağlama içəri girdi və onu çətinliklə yerə qoydu. O, bağlamanı açmadan hazır şorbadan bir qab çəkib içməyə başladı. Sonra ocağın qırağında yuxulayan yoldaşına yaxınlaşdı, polad qılıncı ilə onun başını kəsdi. Bədənini şaqqaladı. Mən qorxudan huşumu itirdim. Bir müddətdən sonra özümə gələndə gördüm ki, o şaqqaladığı bədənin bir parçasını götürüb harasa getdi. Aradan xeyli vaxt keçəndən sonra yenidən qayıdıb o biri şaqqanı da alıb getdi. Onun uzaq bir yerə getdiyini başa düşüb tez yerimdən qalxdım, xəzinəyə tərəf cumdum. Xəzinəni çiynimə alıb hazır şorbadan da bir qab götürüb tez oradan uzaqlaşaraq evimə tərəf üz tutdum. Evə çatar-çatmaz çağa səsi eşitdim və çox sevindim. Oğlum olmuşdu. Şorbanı arvada verdim. İçib mənə dua etdi. Sonra tez bağlamanı açdım. Gördüm ki, bağlamanın içi qızıl, dürr, yaqut ilə doludur. Beləcə mən bir gecənin içində varlandım. Xəzinə ilə eyni vaxtda bəxtimizə düşən övladımızın ayağı uğurlu olduğuna çox sevindik.

Şah dedi:



– Bu uşağın taleyi məni maraqlandırdığı üçün uşağın doğum tarixini və anasının hamilə qaldığı günü mənə məlum et.

Çörəkçi tez evə gedib etdiyi qeydləri gətirdi. Şah uşağın bəxtini ulduzlardan öyrənmək üçün aldığı vərəqi alim Valisə göndərdi. Valis bu fərmanı alıb ulduzların hərəkətini bir müddət müşahidə etdikdən sonra əhvalatın sirrini anlayıb, gördüklərini məktubla şaha bildirdi. Hökmdar onun yazdıqlarına heyran qaldı.

Yazdıqlarından belə məlum olurdu ki, adi bir çörəkçi oğlu olsa da tanrı tərəfindən bəxtinə dövlət nuru ilə parlayan tale yazılmışdır. O, dünyaya gələn kimi xəzinə üstünə ayaq basacaqdır.

Bu əhvalatdan İskəndər çox təsirləndi və çörəkçini sarayına gətirib ən yaxın nədimlərindən biri etdi.

## Alimlərin Hürmüzü inkar etmələri və həlak olmalarının hekayəti

Rumlu filosoflar tez-tez bir yerə yığılar, hikmətli sözləri ilə müxtəlif elmlərdən söhbətlər açardılar. Alimlərdən hər kim ki, öz yeni fikrini sübut etsəydi onu başçılar başçısı hesab edərdilər. Hürmüz adlı alim həmişə haqq sözü ilə hamıdan seçilərdi. O, ağlı və elmi ilə tutarlı dəlillər gətirər, dinləyənləri heyran qoyardı. Yalançı elm və din xadimlərinin bəd niyyətlərini aşkara çıxartdığına görə Yunanlılardan ona düşmən kəsilənlər də az deyildi. Bir gün Hürmüzün fikirlərini inkar etmək istəyən alimlər ayrı bir yerə yığışaraq onu gözdən salmaq üçün alimin elmi baxışları ilə razılaşmayıb və hər doğru sözünə yalan demək qərarına gəldilər.

Böyük ustad ilahi elmdən söhbət açıb tutarlı dəlillər gətirərək hər şeyə aydınlıq verərkən gördü ki, onlar hay-küylə etiraz edərək onun fikirlərinə qarşı çıxırlar. Vəziyyəti belə görən Hürmüz daha dərin, elmi və fəlsəfi fikirləri ilə daşlara belə təsir edən sözlər söyləməyə başladı. Yenə də sözünün təsirsiz olduğunu görən alim bu işin kələk olduğunu yəqin



etdi. Üçüncü dəfə də o təmkinini pozmayıb gözəl nitqi ilə qəlbə fərən verən haqq sözlərini söyləməyə başladı. Alim yenə də onların son dərəcə etinasız və nadan olduqlarını görüb taqətsiz halda nifrətlə hiddətlənərək:

– "Qalın yerinizdə qiyamətədək!" – söylədi.

Sanki bu an onlar donub buz kimi hərəkətsiz qaldılar. Haqq işinə, həqiqətə əyri baxdıqları üçün belə bir vəziyyətə düşmüşdülər.

Əhvalatdan xəbər tutan İskəndər alimlər yığışan o yerə gələrək vəziyyəti öz gözləri ilə gördü və Hürmüzə afərin deyib onu alqışladı. Bu əhvalatdan sonra İskəndər hər dəfə məqamı gələndə bu dastanın ibratamiz vəziyyətlərindən söhbət açıb alimlərin qalmaqal yaratmasından, tufanda lazımsız çöp kimi məhv olmalarından, Hürmüzün isə dərin elminə və cəsarətinə görə ucalmasından söhbət açırdı.

Hər kim ki, ustad dərsini inkar edib dürr kimi qiymətli sözləri anlamasa, hünərə göz yumyb haqqı eşitməsə ömrünü puç etmiş olar.

## Əflatunun çalğı aləti qayırması

Gecə keçib dan yeri yenicə ağarırdı ki, İskəndər taxtına çıxdı. Onun dili kəsərli, ağlı isə hər nəqşi asanlıqla qəbul edən mum kimi olduğundan elmi, fəlsəfəni çox gözəl mənimsəyirdi. Taxtının qarşısında filosoflar əyləşib hərə bir elmdən bəhs edirdi. Hər kəsin öz aləmi olduğu üçün hərə öz sahəsinə uyğun, kimi təbiət, kimi riyaziyyat, kimisi əxlaq, kimisi də ilahiyyatdan iftixarla söhbət açırdı. Bircə Ərəstu şaha arxalanıb özünü yüksək tutaraq, bütün hikmət xəzinəsinin açarı məndədir - deyə düşünürdü. Ərəstunun özünü belə öyməsi, biliyi hamıdan çox olan Əflatunun xoşuna gəlmirdi. Çünki onların hamısının ilk müəllimi Əflatun olmuşdu.

Əflatun onlardan inciyib saraydan uzaqlaşaraq gizli bir məkanda qərar tutdu. O, dərin düşünərək bir saz icad etdi. Əflatun burada müxtəlif səslər verən yeddi küpün vasitəsilə yeni nəğmələr yaratdı. Dünyanı, kainatı seyr edərək ruda quru bağırsaqdan pərdə bağlayıb nəğmələr səsləndirirdi. Bundan sonra o içi boş qabağa qara ilə rənglənmiş ceyran dərisini çəkdiyindən ud daha da xoşahəng olurdu. Öz düşüncələrinə



uyğun olaraq hər dəfə yeni cəhətlə telləri yaxşı köklədiyi üçün həm zildə, həm də bəmdə bu ərğanun gözəl və ahəngdar avaz verirdi. Bu avazda o qədər məlahət var idi ki, insan səsi də daxil olmaqla təbiətdə olan hər bir səsə uyğun sehrli nəğmələr yaranırdı. Amma Əflatundan başqa heç kəs nə sazın sirrini bilərdi, nə də bir hava çalmağı bacarardı. Bu çalğı alətində elə bir cəhət də var idi ki, həkimlər saz sədaları altında xəstələrin dərdini bilər, xəstə isə bu səsin ecazkar sehrindən tez şəfa tapardı.

Saraya xəbər çatdı ki, əfsanəvi sehrbaz olan Harud zöhrə ulduzuna aşiq olanda qeyri-adililikləri ilə bəhsə girdikləri kimi Əflatun da bir çalğı aləti icad edib ki, heç yerdə onun sirrini bilən tapılmır. Ərəstu ustadının bu hünərindən məyyus olub sirri bilmək üçün xəyala daldı. İti əqlinin köməyi ilə bir müddət götür-qoy edib, nəhayət, o da saz düzəldə bildi. Nə qədər çaldısa da sazdakı nisbəti tam anlaya bilmədiyi üçün, istədiyi kimi nə kökləmək, nə də çalmaq olurdu. Elə ki, sənətin sehri qarşısında aciz qaldığını və müəllimin köməyinə möhtac olduğunu hiss etdi, yenə də ustadının yanında təlim almağa başladı.

Əflatu Ərəstunun sıxıldığını və heyrətləndiyini görüb onu sirdən agah etmək üçün yerdə bir dairə çəkərək düzəltdiyi sazı götürüb sehirli havalardan çalmağa başladı. İfa etdiyi ilk havada sazın səsinə toplaşan heyvanlar ustadın çəkdiyi həmin çevrəyə baş qoyub yuxuya getdilər. İkinci havanı ifa edəndə Ərəstunun özünü də yuxu apardı. Elə ki, Əflatun üçüncü havanı səsləndirdi burada yuxulayan heyvanlar oyanmağa başladılar. Yenidən o başqa bir havanı ifa

etdi. Ərəstu yerindən sıçrayıb qalxdı. Ustadından öyrəndiyi bu sirlərə görə özünün indiyə qədər yazdıqlarını sildi.

Ərəstu o gündən ustadının hünərini görərək ona ehtiram göstərməyə başladı.

Şah əsl istedadın kimdə olduğunu bilərək Əflatunun rütbəsini artırıb sarayda onu ən uca bir yerə təyin etdi.



## Əflatunun keçmişdən hekayə söyləməsi

Bir gün İskəndər yenə də öz qızıl taxtında alimlərlə bərabər məclis qurmuşdu. Sirli musiqi aləti icad etdiyinə görə Əflatunu heyranlıqla məclisin başına dəvət edərək dedi:

– Siz elə hikmətli, elə nurlu alimsiniz ki, elminiz və ağlınızla dünyada hər sirrə aydınlıq gətirə bilirsiniz . Bizim üçün çox maraqlıdır ki, keçmiş alimlərin arasında sizin özünüz üçün də sirli, müəmmalı, əlçatmaz hesab etdiyiniz elmli, bilikli, zəka sahibi olubmu?

Əflatun cavabında keçmişdə də çox böyük alimlərin olduğunu və onların insan düşüncəsinin fövqündə duran kəşflərini xatırladaraq bildirdi ki, böyük hökmdarın icazəsi ilə alimlərin sirli, sehrli aləmindən az da olsa söhbət aça bilərəm.

Əflatun hökmdara dua edib, onun elmə, fənnə olan məhəbbətini yüksək qiymətləndirərək, keçmişdən bir əhvalat danışmağa başladı:

- Belə nəql edirlər ki, bir vaxt buxarla alovun vəhdətindən yerlərin bağrını yaran zəlzələ nəticəsində bir

düzənlikdə mislə qalayın qarışığından at heykəlinə bənzər tilisimli bir daş görüblər. Xilqətin əli ilə yaradılmış bu heykəlin böyründə sanki suların açdığı bir oyuq vardı. Hər dəfə günəş bu oyuqdan nur saçanda orada sehirli bir aləm yaranardı. Həmin yerdən keçən bir çoban bu parıltılı tilisimi görcək tez yarğana yaxınlaşıb heykəli diqqətlə seyr etməyə başladı. Bu zaman orada barmağında par-par işıldayan üzük olan köhnə bir meyit gördü. Çoban sevincək üzüyü çıxarıdıb barmağına taxdı. Çox göz gəzdirsə də əlavə bir şey tapmayıb oradan uzaqlaşdı.

Elə ki, səhər açıldı çoban sürünü dağda tərk edib üzüyün qiymətini öyrənmək məqsədi ilə sürü sahibinin yanına yollandı. Sürü sahibi çobanla hal-əhval tutdu. Söhbət zamanı onun arabir gözə görünmədiyini müşahidə edəndə ona acıqlanıb dedi:

– Əfsunçular kimi hərdən gözdən itib, yenə də gözə görünürsən.

Çoban özü də bu sözlərə heyrətlənib ağası ilə söhbət edrkən hiss etmədən, əlinin hərəkəti ilə barmağındakı üzük çevrildiyi üçün, üzüyün qaşı gah barmağının üstündə, gah da ovcunun içində olurdu. Elə ki, üzüyün qaşı ovcuna tərəf olurdu çoban gözə görünmür, üzüyün qaşı üstə çevriləndə isə o yenidən görünürdü.

Göydəki ulduzların yerdəyişməsindən asılı olaraq müxtəlif hadisələr törəndiyi kimi, çoban da bu sirdən agah olduqdan sonra min cür kələk quraraq öz mənafeyi üçün istifadə etməyə çalışırdı.

Bir gün o əlində hindli qılınc gizlincə saraya keçib düz şahın önündə əyləşdi. Adamlar şahın yanından dağılışan kimi



qəflətən çoban şahın gözünə göründü. Ürəyi qorxu ilə dolan şah çarəsiz qalıb təslim olaraq həyəcanlı vəziyyətdə onun buraya kim tərəfindən göndərildiyini soruşdu. Özünü peyğəmbər kimi qələmə verən çoban şahın iman gətircəyi halda onu xoşbəxt edcəyini bildirdi. Nəinki şah, hətta bütün əhali də çobana itaət edərək ona tabe oldular. Çobanın hörməti o qədər artdı ucaldı ki, nəhayət şahlığı belə ələ keçirməyə nail oldu.

Öz hekayətini bitirən Əflatun üzünü bir daha İskəndərə tutaraq çobanı peyğəmbərliyə yetirən o qaşda necə böyük hikmət olduğunu, belə sehirli bir əşyanın hansı zəka hesabına icad edildiyini, bizimtək alimlərin də bu işə mat qaldığını etiraf etdi.

İskəndər bu hekayəti dinlədikdən sonra həm sehrli qaşın icadkarına, həm də Əflatuna böyük təriflər söyləyib, o məclisdə iştirak edənlərin hamısının belə bir hekayətdən ibrət aldıqlarını söyləyərək, bu işə əhsən dedi.

## İskəndərlə Sokratın əhvalatı

Kainat işindən xəbərdar olan bir alim söyləyir ki, bir zaman yunanlılar heç bir işlə məşğul olmayıb hər cür zövqə, istirahətə göz yumaraq zahidliyi özlərinə peşə etmişdilər. Onlar çox öyrənib az yeməklə, yalnız dindarlıq yolunu tutaraq düşünürdülər ki, bilikli, ağıllı olan kəslər heç zaman bu dünya zövqünə uymazlar. Hətta varlılar da yoxsullarla bərabər eyş-işrətdən əl çəkib, bu kimi işlərin əqlə xələl gətirdiyini düşünürdülər. Beləliklə onlar kişi və qadınların ayrı yaşamasına qərar verdilər. Belə bir adətin olması onların nəslinin kəsilməsinə də səbəb olurdu.

Bir səhər şah xidmətçiyə Sokratın yanına çağırılmasını tapşırdı.

Sokrat bu təklifdən imtina edərək xidmətçiyə bildirirdi ki, burada görünən yalnız mənim xəyalımdır. Mən tamam başqa bir aləmdəyəm. Əgər məni axtaran doğru bir kəsdirsə, biz onunla yalnız haqq dərgahında görüşə bilərik.

Qasiddən bu xəbəri eşidən İskəndərə gün kimi aydın oldu ki, Sokrat doğrudan da xəlvətdə yanan elə bir şamdır ki,



onun nuru ilə dünyanı daha aydın görüb, dərk etmək mümkündür. Hər kəs ay kimi gecə oyaq olmasa, o şamın işığından faydalana bilməz. Taxt-tac sahibi olmasına baxmayaraq İskəndər biliyə, hikmətə çox böyük qiymət verirdi. Aqil adamlar hər zaman ən gözəl gövhəri seçib şaha ərməğan etsələr də, Sokratın hər kəlamı İskəndərə bütün bəxşişlərdən üstün gələrdi.

Camaat danışırdı ki, Sokrat xalq ilə get-gəli kəsib qohum-qardaşdan uzaqda yaşayaraq, dünya işlərindən elə üz döndərib ki, hətta hər cür yeməyə də qənaət edərək bir az qovud ilə qidalanmaqla kifayətlənir.

İskəndər Sokratı çox sevdiyindən bu xəbərləri eşitdikcə onunla görüşmək arzusu daha da artırdı. Sokrat hamıdan uzaqlaşdıqca onlar da alimi görməkdən ötrü daha çox ehtiyac duyurdular. İskəndər özünə məhrəm olan bir nəfəri çağırıb alimin hüzuruna gətirməsini və bu məsələyə aydınlıq verməsini tapşırdı.

Qasidin sözlərini dinləyən Sokrat ona dedi, əgər bu dəvətdə bir səmimiyyət görsəydim, əlbəttə, etiraz etməzdim. Bir könül ki, dostluq iddiası ilə döyünə ondakı rəftar sözdən başqa çox şeylə seçilməlidir. Hökmdarın əhatəsində olan adamlar yolları elə bataqlığa çeviriblər ki, bu yolla keçmək çox müşkül işdir. İskəndər mənim barəmdə yaxşı söz deyib xoş fikirli olsaydı, yaxın ətraf da mənə dost kimi münasibət bəsləyərdi. O şahın ki, adamları insanlarla mehriban, həlim rəftar edərsə, onda şahlığa ümid bağlamaq olar. Bir səhnənin ki, günbəzi düz ola burada ifa olunan hər hansı bir musiqi alətinin köklənmiş bir teli də gözəl səslənər. Hansısa bir evin yaxşı olmayan sözü-söhbəti, həmin ev sahibinin əslini

göstərər. İskəndərin məni saraya dəvət etməsi ona bənzəyir ki, "bir dərya məndə dürr gövhər var"- deyə səni çağıra, ancaq bu təlatümlü dəryada nəhənglər ağzıaçıq durub gözləyələr. Mən tək olan Tanrıya pənah gətirdiyim üçün dünya əhlindən heç bir qorxum yoxdur. İnsan bu vəziyyətin necə uca bir məqam olduğunu bu halda daha yaxşı anlaya bilir.

Xidmətçi Sokratın dəyərli fikirlərini açıb İskəndərə deyərkən şah başa düşdü ki, bu böyük alimi yalnız xəlvətdə görə bilər. İskəndər piyada oraya yollandı. Sokratın xarabalıq bir guşədə tək və pərişan yaşadığını görüb çox məyus oldu. Onu dünya malından qane etmək məqsədi ilə söhbətə çəkərkən, alim cavabında, hər kəs arpa çörəyinə qənaət edib, buğdaya minnət çəkməzsə, bir ovuc dənə qane olub dəyirmantək sənin dövrəndə fırlanmaz, - dedi. Heç bir vara-dövlətə ehtiyac duymadan elmimlə, kamalımla xalq arasında hörmət qazandım. Sən də gəl mənə bu təkliflərinlə əziyyət vermə. Özün bu geniş dünyaya sahib olsan da dünya malına olan həvəsin bitib-tükənmək bilmir. Özün bu qədər ağırlıq altında ola-ola mənim tələbimi necə ödəyə bilərsən?

Hökmdar acıqlanıb bu örtülü sözdə hansı mənanın gizləndiyini ondan soruşdu.

Alim cavabında:

– Mənim həvəs adlı bir nökərim var ki, sən özün də ona qulluq edənlərdən birisən...

– İskəndər bu sözlərdən pərt halda dedi:

– Mənim fikirlərimin pak olduğunu üzümdə də görmək olar. Sən özün də pak olduğuna görə istəmirəm ki, paklardan uzağa düşəsən.



Sokrat isə ona təmiz cavab verərək bildirdi ki, əgər paklaşmaq iddiası sənin qəlbinə hakim olubsa deməli haqqa tapınıb, doğru yola gəlməli və insanlarla düzgün rəftar etməyi öyrənməlisən. Məni yuxudan oyatsan da sən oyaqkən hələ yuxudasan. Mumtək yumşalan İskəndər böyük alimdən öyüd-nəsihət almaq üçün minnət etməyə başladı. İskəndərin yola gəldiyini görən Sokrat şirin bir dil ilə ona gözəl nəsihətlər verdi:

İnsan əlində dəmir belə mum kimi yumşalarsa bu hiddətlə deyil, yalnız tədbirlə mümkün olar. Bu sayaq insan qəlbini də parladıb ayna kimi etmək olar. Dəmiri aynatək parlatmağı bacaran insan ilk növbədə öz vicdanını təmiz saxlamalıdır. Bu halda insan mənəvi sirləri qəbul edib, haqq dərgahında uca bir mövqe qazana bilər. İnsan zənci kimi qara olsa belə, əsas onun ürəyinin ləksiz olmasıdır. Hər kəsin idrakı işıqlı, inamı güclü olarsa əlçatmaz göyləri də dərk edə bilər. Ləkəsiz, tərtəmiz olan sübh, Allah sirlərinin ocağı hesab olunur. Bu zaman kim öz evinin pəncərəsinin pərdələrini açarsa günəş öz məhrəm şəfəqləri ilə o evi nurlandırar. İnsan həmişə həqiqəti, doğruluğu seçməli, heç vaxt ümidsiz olmamalıdır. Günəşə göz yumub çıraq işığına arxalanan insan, sərt küləklərdə, əlbəttə, ondan bəhrələnə bilməz. Hər bir insan evini, qapı-bacasını təmiz saxlayıb, hər gələnə mehribanlıq göstərməsi onun ədəb və səxavətindən xəbər verir.

Bu cür ibratamiz sözlərə Sokrat hökmdarın qəlbinə çox təsir edə bilmişdi. Aldığı təəssüratdan İskəndər dəyişib üzü günəş kimi parlaq olmuşdu. Sokratın yanından ayrılandan sonra İskəndər saraya tələsərək alimdən öyrəndiyi bu hikmətləri zərli bir xəttlə yazmağı katibə tapşırdı.

## Hindli həkimin İskəndərlə söhbəti

– Elə ki, dünyagörmüş filosofun hikmətli kəlamları İskəndərə təsir etmişdi şadlığı, meyi, məzəni mənasız görüb, dərin bilik həvəsi ilə yenə də möhtəşəm şahlıq taxtına çıxmışdı. Alimlərlə söhbət zamanı bir hindlinin elçi qismində şahın hüzuruna izn istədiyini bildirdilər.

Atəşpərəst olan bu elçini hörmət göstərərək şahın əmri ilə saraya dəvət etdilər. Məclisdəkilər öz gördüklərindən, bildiklərindən maraqlı söhbətlər açırdılar.

Deyilənləri maraqla dinləyən bu yaşlı qonaq hələ heç yerdə eşidilməyən, kainatın sirlərini işıqlandıran, insanlar üçün çox dəyərli, dərin mənalı söhbətləri ilə hamının diqqətini özünə cəlb etmişdi. Hindli öz tərif və duaları ilə bərabər hökmdara bildirdi ki, necə zülmətdə yanan çırağın pərvanəsi kimi, mən də elə böyük ümidlərlə tutqun könlümə bir işıq arzusu ilə dərgahınıza üz tutmuşam. Özüm yaşlı olsam da o qədər yeni fikirlərim var ki, onları şərh edə bilən çox az alim



tapıla bilər. Xalq arasında sizin dilinizin müşkül düyünlərə açar, əqlinizin bilik dövranına başçı olduğunu danışırlar. Sən həm dərin zəka, həm də taxt sahibisən. Verəcəyim suallara düzgün cavab alaramsa onda günəşə sitayiş etməkdən əl çəkərəm. Yox, əgər suallarıma cavab almasam, çıxıb öz diyarıma gedərəm. Xahişim odur ki, aramızda olan söhbət zamanı həm mənimlə mehriban davranıb, həm də söhbətimizə heç kəsin qarışmasına icazə verməyəsiniz.

Hindlilərin rəhbəri, həm də pənahı olan bu qoca, İskəndərin razılığı ilə yeri öpərək bir daha ona təzim edib,dilini hind qılıncıtək sıyırıb şahı tərif etdi. O, Allaha qovuşmağın hansı yolla mümkün olduğunu, ruhun bədəndən necə ayrıldığını, özü görünməyən, lakin yaratdığı göz qabağında olan o mənalar sahibinin necə təsəvvür edildiyini soruşdu. Böyük yaradanın varlığını necə isbat etməyi onun yerdəmi-göydəmi olduğunu bilmək istədi:

Şah cavabında dedi:

– Biz onu bilməliyik ki, yaradanın sirri sona qədər açılmaz. Yeri yaradanın yeri olmadığı kimi, ona yer axtarmaq da doğru sayılmaz. Özündən üz çevirən şəxs Allahın yolunu tapmış olar. Xəyal yalnız yaradılmış şeyləri təsəvvür edə bilər. Yaradanı insan ağlı ilə təsəvvür etmək müşkül bir işdir. Haqqın varlığına dəlil olan bir nişandan - gördüyümüz bu maddi aləmdən o yana getmək mümkünsüzdür. Allahı tanıyan hər bir insan yaradılışı dərk edərək, bu sədləri aşmamalıdır.

Şahın cavabından ürəklənən hindli soruşdu. Bütün mövcudatın - bu yerdə, bu göydə nə varsa hamısının, əlbəttə

bir nəhayəti də var. Bəs bu kainatdan kənarda başqa bir aləm varmı?

– Yox isə... Yəqin ki, yoxluğa da heç bir yol olmamalıdır.

Şah dedi:

– İnsan bu dünyada yeddi tilisim içində yaşayan kimidir. Gördüyümüz kainatdan o yana axtarışa çıxmaq istəsək, doğru yolu azıb səhv etmiş olarıq. Bütün bizim fikirlərimiz, xəyallarımız yaşadığımız bu varlıqla hüdudlanşmışdır. Kim bu aləmdən kənara çıxıb Allahı axtarmaq fikrinə düşsə, ölüm mələyi ilə qarşılaşmış olar. İnsan görünməz bir şeyi düşünərsə bütün zəhəmət və səyi hədər olar. Bu axtarışlar yalnız üstüörtülü olan başqa cahanda mümkün ola bilər.

Hindli yenə hökmdardan soruşdu:

– Belə gözəl bir dünya varkən və bu dünyada yaşamağın mümkün olduğu halda, bu cahan niyə ikiyə bölünüb? Nədən başqa bir dünya axtarmaq fikrinə düşürük. Əgər yerimiz o dünyadırsa nədən əvvəlcə bu dünyaya gəlirik?

Şah dedi:

– Ey sadədil insan, doğrudur, Xuda iki dünya yaratmışdır. Bu dünyada hər şey dəyişsə də, o dünyada hər şey hər zaman əbədidir. Bu iki dünyanın açarı bu dünyada ikən xəzinəsi o dünyada tapılar. Bura elə bir körpüdür ki, onu hamı keçməlidir. Necə ki, dağlardan süzülüb axan bulaqlar dənizə qovuşur.

Qoca hindli almaz kimi kəskin və parlaq sözlərini dərin mənalarla birləşdirib dilləndi:

– Mənə elə gəlir ki, bədənə həyat verən can bir atəşdir ki, insan bu oddan qüvvət almışdır. Can ölüb gedəndə atəştək



sönüb getdiyinin şahidi oluruqsa, niyə insanlar buna şübhə ilə yanaşırlar?

– Ey şah, arzu edirəm ki, pis gözdən, pis əməldən uzaq olub ömrünü sağlam və firavan keçirəsən. Bəs bədnəzər necə bir qüvvədir ki, təcrübəli müdrik bir insan bəyənilən bir şeyə xoş nəzərlərlə baxıb, ona daha gözəl şeylər əlavə edirsə, yəni o şeyi ki, bədnəzər bəyənsə onu məhv edər. Hətta öz sevdiyini də gözə gətirər. Başqalarından fərqli olaraq bədnəzər oxunu atan, nişanəyə düz vurar. Ondakı qüvvət nə olan şeydir ki, insanlar onun qarşısını üzərriklə ala bilirlər.

Qarşılaşdığımız adamın xoş fikirli və ya bədnəzər olduğunu nədən bilirik?

Iskəndər dedi:

– Alimlərin fikrinə görə bədnəzərin baxışları hava ilə birləşib həmin yerə öz təsirini göstərir. Əgər belə bir anda hava sağlam olarsa nəzərlər ziyansız ötüşər, yox əgər hava zəhərli olarsa, nəzərin təsiri artar, toxunulan hər şeyi məhv edə bilər.

Mənə elə gəlir ki, burada hələ də bizlərə məlum olmayan başqa bir sir də gizlənir. Beləliklə bədnəzər tək özü elə bir təsir qüvvəsinə malik olmazdı, əgər qarşısında cilvələnən – səbəbkar olmasaydı. O önündə gözəl nə varsa görcək, ona nəzər salıb məftun olmamaq üçün öz çirkin adəti ilə onu tələf edər. Hər kimin ki, alnı hərarətdən tez-tez tərləsə bu bədnəzər əlamətlərindən hesab olunur.

Başqa bir alim isə belə şərh edir ki, üzərrik yananda tüstüsü yaxın ətrafda olan havanı qara pərdə kimi bürüyüb gələn bəlanı qaytarar.

Məgər sən bilmirsənmi can səfər edəndə yenə gəldiyi məkana dönər? İnsanın canı atəşdən olsaydı onun qərar tutduğu məkan cəhənnəm olardı. Uca bir aləmdən bizə gəlmiş can heç vaxt ölmür və yenə də oraya dönür. O müqqədəs bir işıq – Allahın nurudur ki, nə torpaq, nə də sudan ibarətdir.

Bu dəfə hindli yenə ortaya söz ataraq şahdan soruşdu. İnsan yatan zaman yuxu görərkən dağları, daşları gəzir, min cür hadisələr görür. Yuxu görən kəs ordadırsa bəs yatağındakı kimdir?

Hökmdar acıqlanıb dedi:

– Yuxuda gördüyün hər şey sənin öz fikirlərinin məhsuludur. Onların çoxu insanın arzusu ilə bağlıdır. İnsan xəyalı elə ki, gördüklərindən azad olur, artıq heç bir hal ona gizlin qalmaz. Onun arzularından irəli gələn bu fikirlər yuxularda özünə yer tapır. Məgər bilmirsiniz ki, ibadət edənlər ayıqkən belə ən gizli sirlərdən xəbərdar olurlar. Başqalarının yuxuda gördüklərini onlar oyaq olarkən görüb dərk edirlər.

İskəndərdən xoşu gələn hindli iti dilini işə salıb yenə də soruşdu:

– Bizim üçün çox maraqlıdır ki, bir əməlin hələ üzə çıxmadığı halda onun xoşluğu və bədliyi haqqında münəccimlər əvvəlcədən necə məlumat verə bilərlər?

İskəndər ilahi kəlamlarla dilə gəlib dedi:

– Dünyada yaman və yaxşı hesab edilən nə varsa göylərin tağına naxış kimi çəkilmişdir. Hər hansı münəccim rəmlini atdığı zaman talelərə uyğun olan naxışları oxumağa çalışır. Böyük yaradan arzumuzdan, niyyətimizdən asılı olaraq öz sirlərini qədərincə bizə açaraq hər bir dərdimizə,



ehtiyacımıza əlac edir. Əlində açar olan elə bir mələk göndərir ki,insan gizli sirlərdən agah ola bilir.

İskəndərin sözləri hindliyə o qədər zövq verdi ki, yenə də ondan soruşdu:

– Dünya üçün insanlar bərabər olduğu halda zəncinin qara, çinlinin isə ağ olmasının, yəni bu ikiliyin səbəbi nədədir?

Şah dedi:

– Əslən hərlənən bu kürənin özü də güzgütək iki üz- iki rəngdən ibarətdir.

Hindli suallarına aldığı cavablardan məmnun qalaraq böyük heyranlıqla şaha təslim olub, diz çökdü.

Oradakı alimlər də şaha afərin deyib, Yaradana şükürlər etdilər.

## İskəndərin yeddi alim ilə xəlvətə çəkilməsi

Filosoflardan biri belə nəql edirdi ki, bu qoca dövran şaha o qədər xoş görünürdü ki, o mübarək bəxtindən razı qalıb xalqına saysız hesabsız var-dövlət paylardı. Başqa şahlar da onun səxavəti qarşısında baş əyib, qultək müntəzir olurdular.

Bir gün İskəndər firuzə rəngli taxtında oturaraq xeyirxahlıqdan, ilahiyyatdan dərin mənalı söhbət edib, sonra da heç kəsin qəlbinə dəymədən onların arasından yeddi filosof seçib onlarla bir xəlvətə çəkildi.

Bu alimlərdən biri Ərəstu idi ki, o çox tədbirli vəzir idi:

Bəlinas mərdliyi, cavanlığı, Sokrat isə piraniliyi ilə fərqlənirdi. Böyük hökmdar Valisə, Əflatuna, bir də Fərfuryusa eyni dərəcədə heyranlıqla qulaq asardı. Məqamı göyün yeddinci qatında olan Hürmüz isə bu alimlərdən yeddinci idi. Onlar bu məhrəm məclisdə quru təkəbbürdən, eyş-işrətdən uzaq olub gözəl və parlaq fikirləri ilə şirin söhbət edərkən İskəndər dedi:



– Biz boş şeylərə gecə və gündüzümüzü həsr edib çox vaxt keçirmişik. Gəlin bu günümüzü də elmə sərf edək. Günəşə, Aya baxıb dünya sirlərindən xəbərdar olaq. Bilək ki, öküzün belinə bənzəyən bu çadır yaşadığımız yer üzərində necə qərar tuta bilmişdir. Bu göyün, yerin əvvəlinin necəliyi haqqında fikirlərini gərəkdir ki, hamı söyləsin. Dünyada ilk tərkibin, yaranışın nədən ibarət olduğunu araşdırmaq hər bir zəka sahibinin başlıca vəzifəsi olmalıdır. Kainatda baş verən bu dəyişikliklər – yeni əksilmə və artırmalar yoxluqdan necə aşikar olmuşlar. Yaradılışın əsl səbəbini düşünüb-daşınıb bəlkə ulduzların vasitəsi ilə tədqiq edə bilərik. İnsanlar öz ağlının açarı ilə öyrənməli, bilməlidirlər ki, yermi, asimanmı əvvəl yaranıb və s. Ümumiyyətlə bu dünya nə sayaq bərqərar olmuşdur . İlk mahnı necə səslənmişdir.

İskəndər öz dərin sualları ilə maraqlı mübahisə açaraq filosofları söhbətə çəkib bildirdi ki, sizlərdən hər kəs cəsarət edərsə gərək varlığın ilk tarixindən söhbət açsın.

Alimlər ilk sözə bir səslə Ərəstunun başlamasını məsləhət bildilər.

## Ərəstunun dedikləri

Böyük şöhrət sahibi Ərəstu tacidara dualar edərək bildirdi ki, hər kim elm dalınca gedib dünya sirlərindən agah olursa, onun üçün heç bir açılmaz düyün qalmaz və haqqın köməyi ilə bütün ömrü xoş keçər.

Sizin əmrinizə əməl edərək yaranış haqqında fikrimi demək istəyirəm:

- İlk zamanlarda mövcud olan tək bir hərəkət sürət vasitəsi ilə iki yerə bölünmüşdür. Bu iki hərəkətin biri-birinə təsirində hər şeydə yeni bir hərəkət yaranırdı. Kainatda mövcud olmuş ilk hərəkət, o birilərindən fərqlənib, sonra bir-birinə qoşulurdu. Bunun nəticəsində yaranmış üç xəttdən, üç dövrə də alındı ki, onlar da mərkəzdən ayrılırdılar. Bu zaman ortaya bir gövhər çıxdı, gərgin mübadilədən doğub parlayan bu gövləri alimlər hərəkət edən cisim adlandırdılar. Həmin cisim durmadan hərlənir, ondan ayrılan parlaq saf parçalar mərkəzə sarı qaçmaqda idi. Bu cisimdən ayrılıb yüksəyə uçan hissələr hərəkətdə olsalar da, aşağı enənlər sükunət halına gəlirdilər. Cismin bu cür davamlı hərəkətindən öz mərkəızinə



meyl edən və mərkəzin ətrafında fırlanan parlaq göylər əmələ gəlirdi. Göyün gərdişi zamanı hərəkət edən bu odun qüvvəsindən yaranan hava od kimi yanmada idi. Havadakı rütubətlilik hərəkətsiz olduğu üçün çöküb suya çevrilirdi. Su daim sükunət vəziyyətdə olduğuna görə onun tərkibində xılt yarandırdı. Gördüyümüz bu torpaq həmin yığıntıdan törəmişdir. Həyatda Allahın yaratdığı bu dörd ünsürün qarşılıqlı təsiri nəticəsində bitki, nəbatat və müxtəlif heyvanlar vücuda gəldi.

Mənim ağlımın dərk etdiyi hikmət sizə söylədiklərim olduğuna görə ondan uzağa getməyə hələ ki, qüdrətim yetməz.

## Valisin dedikləri

Alim Valis padşaha bu qoca dünyada cavanlıq ruhu ilə yaşamasını və elm yollarında daim var olmasını arzu edərək dedi:

– Bir halda ki, şahlar şahı özü hər kəsin bildiyini bəyan etməsini buyurmuşdu, mən də sizə məlum edim ki, fikrimcə bu dünyada təməl hər şeydən öncə su olmuşdur.

Qızğın hərəkət və çaxnaşma nəticəsində yaranan odu elə ki, ildırım buxardan ayırdı bundan da rütubətli hava yarandı. Suyun qatılığı artdıqca, həmin qatılıqdan da yer yarandı. Təbiətdə gövhərlər yerbəyer olduğu zaman gördüyümüz cahan da pərvəriş tapdı. Onun ən saf, ən lətif və ən kiçik hissəsindən yaranan bu dövran hərəkətə gəldi. Hər kəs sudan bu kainatın yarana bitməyəcəyini deyərək fikrimizi inkar etmək istəsə, sözümə sübut olan nütfəni yada salması kifayətdir.



## Bəlinasın dedikləri

Bilici Bəlinas şahın hüzurunda torpağı öpərək ehtiramla dedi:

– Ey şahım, arzu edirəm ki, düyna durduqca Allah yanında şöhrətli olasan.

Gözü nur, nuru da göz zinətləndirdiyi kimi, kainatın hər sirri sənin əqlinə yar olsun. Kainatın gizli sirlərini bizdən soruşduğuna görə mən də öz fikirlərimi ərz etmək istərdim.

Gördüyümüz bu torpaq məncə ilkin tilsim kimi yaranmışdır. Bildiyimiz qalan tərkiblər də onda mövcud olmuşdur. Hərəkət qüvvəsi ona öz təsirini göstərdikdə və beləliklə atəşi söndükcə buxar yaranırdı. Mənim fikrimə görə onun ən parlaq zərrələrindən ulduzlar yaranırdı. Buxarın tərkibində vəzncə ağır olan nə varsa onların hərəsi bir mərkəzdə qərar tuturdu. Onlardan birincisi olan işıqlı od dünyanın ən yüksək tağı idi. İkincisi havadır ki, daima hərəkətdədir. Əgər o hərəkətsiz bir vəziyyətdə olsaydı varlığı bilinməzdi. Üçüncüsü hər şeyə təzəlik, təravət və incəlik gətirən su, dördüncüsü isə hamının tapdaladığı, sinəsindən daim toz qalxan torpaqdır.

## Sokratın dedikləri

Növbə Sokrata yetişəndə o hökmdara şadlıqla ömr etməsini din və bilik yolunda bütün sirlərin ona şikar olmasını arzuladı.

Hörmətli şahın maraqlandığı sirlər çox gizli olduğu üçün hər kəs yalnız öz kamalı müqabilində fikir söyləyə bilər. Zənnimcə hələ xilqət səhifəsi açılmamışdan şimşəyi də, yağışı da faydalı olan, əzmi və camalı bir bulud yaradan tək bir vücud vardır ki, o da böyük Yaradan idi. Onun ildırımından günəş , ay, ülkər yarandığı kimi, böyük göylər də yağışından yaranmışdır. Ondakı buxar maddələr cökdürüb, yerin yaranıb bərqərar olmasına səbəb olmuşdur. Artıq danışmaqda elə bir məna görmədiyim üçün daha heç bir fikir söyləmək istəmirəm.



## Fərfuryusun dedikləri

İskəndərin qarşısında alim Fərfuryus da təzim edərək dedi:

– İstəyirəm ki, zülmü, qəhri, qəhr eləyən, haqqı sevən bir padşah olduğuna görə zaman durduqca durub, bütün dövranların şahı olsan, sənin ədalətindən qoy bu dünya boş qalmasın.

Məncə bu dünya yaranmamışdan Allah bir gövhər yaratmışdır ki, o da bir müddətdən sonra dönüb suya çevrilmişdi. Elə ki, su ikiyə bölündü onun yarısı altda, yarısı isə üzdə qaldı. Bunlar necə ki, kafurun təbiətindəki nəmlik və müşkün təbiətindəki quruluq olan kimi - yarısı mayedən, yarısı da qurudan ibarət idi. Quru olan hissə (bu yer, bu torpaq) sükunət vəziyyətində olsa da, maye olan hissə hərəkət etdiyinə görə parlaq göyə çevrildi.

Mənim də düşüncəm bu həddən kənara çıxmadığına görə bildiyimdən kənar heç bir söz danışa bilmərəm.

## Hürmüzün dedikləri

Bəhs olunan mövzu barədə fikir demək növbəsi Hürmüzə çatanda o da məsələni öz anladığı kimi dərindən izah etməyə çalışıb dedi:

Arzum budur ki, açıla biləcək hər bir düyünə üstün gəlib, ömrünü şadlıqla keçirəsən. Əgər hökmdar lütf ilə bağımızdan bir meyvə istəyirsə, əlbəttə, biz belə bir istəyə məmnuniyyətlə əməl etməliyik. O zaman ki, düşüncə yolunu tutdum, elə o vaxtdan da firuzə rəngli göyləri seyr edərək düşünürəm ki, bu dərya şövkətli göylər necə də dağ başına çökən tüstüyə bənzəyir. Ancaq bu qorxunc tüstünün üstündə pak, təmiz və parlaq olan elə bir nur var ki, onun tutqun çöhrəsi şan-şan görünmədə olsa da, bu tüstü pərdəsində görünməz kimidir. Bu pərdəyə çəkilmiş pəncərələrdən cahana hərdən bir işıqlar süzülür. Bizim seyr etdiyimiz Gün, Ay, ulduzlar və ümumiyyətlə bütün hər nə varsa həmin işıqdandır. Bu xilqəti, əlbəttə, bir yaradan vardır. Fəqət ilk yaradılışın nə sayaq olması barədə bundan artıq heç nə deyə bilməyəcəyəm .



## Əflatunun dedikləri

Ustad Əflatunun qəlbi dəniztək dalğalanaraq, sözdən gövhərlər saçmağa başladı.

Dedi:

Gərək dünyada bütün şahlardan aydın düşünən şahımızdan heç bir sirr gizli qalmasın. Onun dərin zəkasından ehtiyatlanaraq sorğusunu deməyə çətinlik çəkirik. Amma cavab vermək məcburiyyətində olduğum üçün düşünürəm ki, varı yaradan onu vardan yaratsaydı bu halda maye hər zaman əbədi qalardı. Mayedən doğurmaq yaratmaq olmadığı ücün məncə bütün varlıqları Tanrı yoxdan yaratmışdır.

Bu qüdrət yalnız Allaha məxsus olduğuna görə özü bildiyini yoxdan xəlq edir, bunun üçün də insan oğlu ona Xaliq, Qadir, Xuda və başqa adla müraciət edir. O hər gövhəri ayrıca yaradıb digərindən bir vasitə kimi istifadə etməyib. Bir-birinə zidd keyfiyyətlərə malik olan dörd ünsürün (su, od, torpaq, hava) qarışığından hünərli, zəkalı insanı yaratdı. Hər kəs ətraf aləmə həssaslıqla, elmin gözü ilə baxmağı bacararsa ən xırda varlıqlarda, hətta kiçik qarışqanın zərif qanadında belə Tanrı qüdrətini görə bilər.

## İskəndərin dedikləri

Alimlərlə olan məclisi yekunlaşdıran zaman Günəş qüdrətli İskəndər sözün qədrini çox uca tutaraq hər bir alimin ayrı-ayrılıqda fikirlərinə hörmətlə yanaşaraq afərinlər söylədi.

Bir ölkənin hökmdarı müdrik olarsa o ölkədə müdriklərin sayı çox olar. Kainatın sirləri barədə dərin-dərin düşünən İskəndər alimlərə bildirdi ki, gördüyümüz bu surət, bu yaradılış əbəs deyil. Onu çəkən, nəqş edən, xəlq edən əlbəttə vardır. Bilsəydim ki, Allah yaratdıqlarını necə xəlq etmişdir bəlkə mən də bu sahədə bir iş görə bilərdim. İnsan düşüncəsi nəyisə qavraya bilirsə, şübhəsiz, özü də onu yaratmaq qüdrətinə malik ola bilər. Nə qədər ki, xilqətin sirrini kəşf edə bilməmişik. Onun tədqiqinə də qüvvəmiz çatmaz. Hər biriniz düşüncə kamalınızla uca göylərə qeybdən yazılmış vərəq kimi baxsanız da, fəqət hərəniz bu yazını ayrı cür oxudunuz. Biz hamımız bilməliyik ki, dünyanın özünü nəqş edən bir xaliq olduğu üçün, bundan artıq nə isə demək mənasız olardı.



## Nizaminin dedikləri

Kainatın, varlığın sirlərinə ağlın yetmədiyi və yaradılışın başlanğıcını heç kəs görmədiyi üçün əzəl nəqşləri oxumaq mümkünsüzdür. Yaradan ilk olaraq şübhəsiz əqli yaradıb ki, onu da öz nuruyla işıqlandırmışdır. Dünyada yaradılan hər nə varsa əqlin nəzərindən kənarda qalmamışdır. Yalnız ilk gizli nəqşindən savayı. Elə ki, Xaliq ilk xilqət nəqşini tamamladı bundan sonra əqlin gözündən pərdəni götürüb ona bir açar bağışladı. İnsan ağlı ancaq o yerə yol tapa bilər ki, ona nə qədər məsafə olduğunu bilsin. Qeyb yolu insan ağlından hədsiz uzaq olduğuna görə dünyada ağıllı adamlar gözü ilə görmədiklərini qəbul etmirlər. Əgər bir sənət sənətkarı nişan verirsə gərək insan ona başqa bir pərdə bağlamasın. Söz elə bir süvaridir ki, köhləninin şikəstliyi olsa belə o sərt uçurumlardan da salamat çıxmağı bacarar.

Bir gün sehirli göylərin qoynunda süzən Xızır adlı o hatif mülayim səslə Nizamiyə salam verib, fikirlərini işıqlandıraraq söhbət etmək üçün dedi:

– Bu dərin fikirlərin, incə sözlərin sahibi özün olduğun halda nədən lal dillərə isnad edirsən.

Nizami Xızırın bu fikirləri ilə razılaşıb öz dövründəki hakimlərin əsl elmə qiymət vermədiklərini, onların dünyasını dəyişənləri yaşayanlardan üstün tutduqlarını dilə gətirərək şikayətlənib, hazırda yaşayan insanları qiymətləndirib, daha çox sevmək lazım olduğunu bildirdi.

Xızır yenə Nizamiyə söylədi:

- Keçmiş filosofların fikrinə isnad etməkdənsə dərin elmin və kamalınla öz düşüncələrini ishar edib, öz fikirlərinə pərdə çəkməmək daha vacibdir.

İnsanlar nücuma həvəs edərək qara torpaqdan mərhəmət umub elmdən uzaqlaşırlar. Torpaq elə sehirbazdır ki, insan cəsədlərini, quru xəzəlləri və başqa varlıqları udub, təkrarən canlı heyvanları, yaşıl otları, nəbatat şəklində üzə çıxardır. Xəzan vaxtı udduğu quru maddələrdən qidalanıb müşk ilə baharda ətrafa xoş ətir yayır. İnsanı udan bu qara torpaq onu geriyə bəs nə sayaq qaytarır. Torpaqda hər şeyin dağılıb, dəyişib, amma yox olmadığını bilirik. Zərgər toz halına düşən dağınıq qızılı civə ilə topladığı kimi torpağa düşən və dağılan şeyləri tamamən bir yerə yığanda necə canlanırsa, bizim də dağılan əczamızı, əlbəttə, cəm etmək mümkündür.



## İskəndərin peyğəmbərliyə yetişməsi

Rum tarixindən söhbət açan bir filosof belə nəql edir ki,dünyaya hökmdarlıq edən böyük İskəndər elmdə o qədər yüksəlmişdir ki, ağlının gücü ilə hər müşkülə bir açar taparaq neçə-neçə bağlı düyünləri açıb, çox viranəliklərin üstünü örtərdi.

O, Rum və Yunan alimlərindən bütün elmləri o qədər dərin və möhkəm öyrəndi ki, artıq nücum məsələlərini başından lovğalıq tacı ilə bir tərəfə atıb, yaranışı araşdırmadan yaradanın kimliyini axtarmaqda idi.

O kainatın sirlərini kəşf etməyə çalışaraq həqiqətləri örtən yeddi qat sürmə rəngli, dumanlı göy pərdələrini açıb axtardığını tapmaq və onu olduğutək görmək istəyirdi. Gecəli-gündüzlü xeyli müddət düşünüb daşındıqdan sonra nəhayət onun bəxt ulduzu parladı.

Bir gecə Allah onu özündən agah etmək üçün yalan vəsvəsədən uzaq, ətrafa nur saçan bir mələk göndərdi. Bu mələk parlaq gövhərlər saçaraq şahın hüzurunda Allahın buyurduğu hökmləri söyləməyə başladı:

– Böyük yaradan bu saysız dağlar, çoşqun çaylar qədər alqışlar göndərib səni dünyada şahlıqla bərabər, peyğəmbərliyə də layiq bilir. Fərman belədir ki, haqqın dərgahına baş əyib, gərək asudəliyə son qoyasan. Azğınları, vəhşiləri əhliləşdirib, xalqı pis əməllərdən çəkindirərək, onları haqq yoluna dəvət edib, fələk kimi dünyanın başına dolanmalısan ki, insanlar da haqqa gəlib itaət etsinlər.

Gərək bütün dünyanı qəflətdən təmizləyib divlər zülmündən cahanı qurtarasan ki, insanlar səndən xeyir götürə bilsin. Bu dünya mülkünə özün ağa olduğun üçün, əqlin üzündən niqabı atıb dünyanı ələ almalısan, çünki sən Allah tərəfindən yoxsullara verilmiş mərhəmət xəzinəsisən. Bu yolda öz xeyrindən əl götürüb Allah rizasına zəhmət çəkib, nə hörmətin varsa canlılara göstərməlisən. Onlardan sənə bir ziyan dəyərsə ya zəncirləməli ya da məhv etməlisən. İskəndər cavab verdi:

– O böyük pərvərdigarın sözlərini dinlədikdən sonra xalqları yuxudan oyatmaq məqsədi ilə Məşriqdən, Məğribə üz tutub bu diyarı tərk edəcəyəm. Amma ellərin dilini bilmədən onlarla söhbət aparmaq, anlaşma yaratmaq, bu səfərin orduda vahimə yarada bilməsi, qoşunla uca dağları, ucsuz-bucaqsız çölləri keçmək olduqca çətindir. Düşünürəm ki, əgər insanlar kor olub ardımca gəlməsə, kar olub sözümü eşitməsələr, haradandır məndə elə bir qüdrət ki, möcüzə göstərib xalqı bir peyğəmbər kimi özümə cəlb edəm ki, insanlar mənə inansınlar. İnsan əvvəl yeriməyi öyrənməlidir ki, sonra da getməyi bacarşın. Elmi dərya kimi çox olan zəkalı, bilikli insanların rəvamıdır ki, vüqarını sarsıdıb qüdrətini zəiflədəsən.



Allahdan vəh gtirən o xeyirxah mələk dedi:

– Məlumdur ki, hər əmrin, hökmün bütün cahanda həm gizli, həm də aşkar şəkildə yerinə yetirilir. Qərbdə heç bir dinə bağlanmayan, ibadətgahı da olmayan Nasik adlı köçəri bir tayfa yaşayır. Şərqdə isə bir tayfa yaşayır ki, pərəstiş olunmağa layiq mələk xislətli bu tayfa dini ayinləri icra edərək ibadətlə məşğul olurlar. Cənubda dəryatək yaşayan bir tayfa da var ki, onlar Habilin törəmələrindən hesab olunur.

Qabildən qalan mütiliklə şimalda bir tayfa məskən salmışdır ki, gərək sən də bu səfəri başlarkən ağına-qarasına baxmadan ordunu Qərbdən Şərqə çəkib, sonra da Cənubdan Şimala tərəf irəliləyəsən. Yəqin ki, hökmünə baş əyməyənlər də başlarının qorxusundan sənə tabe olacaqlar. Aytək, müştəritək gecə nur saçan parlaq bir işıqsan ki, dünyada səni heç kəs əvəz edə bilməz. Ucalıqlardan düşən işığının şüaları altında hər xəzinənin qapısı üzünə açılar. Səfər qabağı səni hifz edənə pənah aparıb hər şeydən agah olmalı və niyyətini müəyyənləşdirməlisən ki, nə özünə nə orduna heç bir xəta gəlməsin. Bu nabələd yollarda öndən də arxadan da keşikçin olmalıdır. Hansı yola ki, səni işıqlı niyyətlər çəkir, o yolda bil ki, işıq da, qaranlıq da əmrinə müntəzir olacaqdır. Arxanda qaranlıq, önündə işıq olduğu üçün özün də görünməz olub, ancaq görənlərdənsən. Hər kəs sənə xoşluqla itaət edərsə, sən də o adama öz ədalətinlə yaxşılıq edərsən . Lovğalıqla qarşına çıxan adam isə, dəhşət və zillətdə saxlayaraq zülm və cəza ilə yamanlıq edərsən. Atını cilovlayaraq nə zamansa bir ölkə almaq fikrinə düşsən qarşına yad tayfa çıxıb, səninlə yad dildə söhbət etsələr, qadir köməkçinin eşqi ilə hər qövmün öz dilində cavab verərsən. Sən də Rum dilində danışarkən hər nə

desən tərcümansız hər bir insan səni anlayacaqdır. Allah da bu möcüzəni ona görə sənə bəxş edib ki, bununla bütün düşmənlərə qalib gələsən. Bu sözlərdə böyük mənanın olduğunu görən hökmdar bir bəndə kimi bu fərmana baş əyərək. "Biz hamımız Allahın müti bəndəsiyik" söyləyib, qasiddən peyğamı qəbul etdi. O gündən hökmdar başqa işləri bir tərəfə qoyaraq səfər tədarükünü görməyə başladı. İskəndər əlavə olaraq başqa alimlərin də məsləhətlərindən, tədbirlərindən bəhrələnərək, belə hazırlığın yəni çox tədbir bilməyin səfərdə həmişə faydalı olduğunu düşünürdü.

İskəndər səfər zamanı nə vaxt ki, tədbirə ehtiyac duyurdu onda Ərəstunun, Əflatunun, Sokratın fikirlərindən ibarət olan nəsihətnaməni bir-bir açıb oxuyardı. Hansısa bir tədbir görməyin, qərar çıxarmağın çətin olan məqamlarda isə hökmdar Allahdan kömək diləyirdi:

Bir gün o başına firuzə rəngli tac qoyaraq, fil sümüyündən hazırlanmış taxtında əyləşib vəzirinə elm və zəkaya əməl edib faydalı nəsihət yazmasını tapşırdı. Elə bir nəsihət ki, onu dinləyən zaman düşmən düşmənini belə özünə dost bilərək onunla xoşrəftar olur .

Vəzir hökmdarın göstərişini yerinə yetirmək məqsədi ilə gözəl tədbirlər düşünüb, şəkər qamışından hazırlanmış qələmlə ağıllı fikirlər yazdı.



## Ərəstunun nəsihətnaməsi

Ərəstu Allahın fəzilətlərini ifadə edərək rəhbərnamədə yazmışdır:

– Ey şah, sən daim nadandan, cahildən kənar olub elmə, fənnə meyl etsən, bağlı qapıların açarını alimlərin kəlamlarında tapa bilərsən. Sahib olduğun vara, dövlətə görə pərvərdigara şükür etməlisən. Zəfər çalıb, hər kim muradına yetərsə gərək Allah xofunu yaddan çıxartmasın ki, bəxti ona yar olsun. Allahdan qorxmayanlar daim el içində xar olar. Salamat yaşmağını istəyən hər bir insan hər gün üzərrik yandırmalıdır. İnsan bədnəzərdən kənar olub, özünü qorusa da öz gözünə də etibar etməməlidir. Çünki gözəl olan hər nə varsa gərək yaman gözdən qorunsun.

Bir ağac boy verib, çox da ucalara qalxmazsa şiddətli küləkdən belə heç bir ziyan görməz. Ovçuların atdığı ox ən çox dikbaş olanlara dəyər. Yarış vaxtı kimisə tez ötüb həsədə yol verməməlisən. Çünki həsəd həm insanı dərdə salar, həm də dostunu, yaxınını ondan uzaqlaşdırar. İnsan heç kəsi kin ilə yerindən qaldırmamalıdır, bu mümkünsüz olarsa lazımdır ki, qaldıran kimi arxasını yerə vurasan. Köhnədən olan kin gərək araşdırılmasın. Oğuldan ata intiqamını almazlar. Çalışıb onunla dost münasibəti yaratmaq gərəkdir. Biri işıqlı, digəri

qara olsa da günəşlə kölgə arasında məsafə çox azdır. Tikanla xurmanın eyni yerdə bitməsinə baxmayaraq xurma şirin, tikan isə zəhərlidir. Sədəf dənizdə, belində qılınca bənzər tikanlar olan nəhənglə bir yerdə olsa da, o tacları bəzəyən incilər verir.

Qardaş qardaşla ana südünə şərik olsalar belə birinin batdığı günaha görə o birisini cəzalandırmaq insafsızlıq olar. Axı cinayət işlərində onlar şərik deyillər.

Allahdan mərhəmət, kömək istəyən hər kəs pisliyi kökündən atıb, birinin günahına görə başqasını incitməz. Zaman özü pislərlə pis rəftar etsə də, yaxşılar həmişə əməllərinin müqabilində yaxşılıqla qarşılaşarlar. Yaxşı ad almaqda əbədiyyət olduğunu anlayan insan dünyada yalnız yaxşılıq axtarar. Yaxşı adlananla daim yaxşı olmalısan ki, əks halda özün də bədnam olarsan. Zatı pis olana üz göstərmək qurd bəsləyib ziyan çəkmək kimi bir işdır. Ağıllı adamla dost olan elmdən, mərifətdən, əlbəttə çox faydalanar. Çox pul qazanmağı niyyət edən insan pulsuz adamlarla məsləhət etməkdən necə faydalana bilər. Yüngül adamdan ciddiyyət gözləmək, arpa satandan gövhər istəmək kimi bir işdir. Təbiətdə bütün heyvanlar da yalnız öz həmcinsi ilə gəzib dolanır. Bir nəfər nacins olarsa ondan çoxları zərər çəkə bilər.İki təmiz güzgünü üz-üzə qoyduğumuz zaman gözə bir ləkə də dəyməz. Acizlərə zülm edənlərdən qorxan insan özü də mütləq qəm-qüssəyə düçar olacaqdır. Aslanların insanlara tabe olması onların insaflı olmasından deyil, qorxularındandır.

Həyası olmayan adama qarşı yumşaq davranmaqdansa sərt münasibət göstərmək daha faydalıdır. Fikri, düşüncəsi pis əməllərlə yoğrulan kəsi mülayimliklə dindirib, ona qarşı olan



qərarını sürətlə həyata keçirtməlisən. Eyni fikirli belə bədxahları ilk növbədə tədbirlə bir-birindən ayırmaq lazımdır.

Kiməsə tutduğu mənsəbə görə yox, mənəviyyatına görə qiymət vermək lazımdır. İşini bilən adama məsləhət vermək yersiz hesab olunar.Elm adamlarının bir-biri ilə fikir mübadiləsi aparmasını təmin etmək elmin inkişafına fayda gətirər.

Güclünün yanına güclünü göndərmək lazımdır ki, özünü təkəbbürlü aparmasın. Qılıncın pas tutsa, onunla bir iş görə bilməsən qızıl ver ki, daş kimi bərk olan düşməni dəmir kimi əridib yumşaldasan. Var-dövləti olmayan adamın düşməninə qələbə çalması şox çətindir. Xalqın kədəri-kədərin, sevinci də sevincin olmalıdır. İnsan öz mənfəətini xalqın mənafeyindən üstün tutmamalıdır. Sübh öz işığı ilə dünyanı bəzədiyi kimi, insan da elmi və əməli ilə dünyaya nur saçmalıdır ki, onun şəxsiyyəti səhər tək gözə gırünsün. Gül-çiçək kimi üzünü bəzəməkdənsə, çıraq kimi ol ki, yanaraq başqasına fayda verəsən. Xəzinə də insan üçün daim bir yükdür ki, dincliyini təmin etmək üçün gərək ondan əl götürəsən. Zər daim yığılan atəşə bənzəməz, əksinə o daim dağılan qığılcım kimi olmalıdır. Qızıl sahibi qızıl kisəsinə vurulmuş düyün kimidirsə, qızılın özü sahibinin ayağına vurulmuş bənd kimidir. Buna görə də hər ikisi yaxşı hesab olunmur. Səxavətli, əliaçıq olan insan özü də başqalarından xeyirxahlıq görüb, ruzisi bol olar. Süfrədə nə qədər bol nemət olsa da insan gərək qədərindən artıq istifadə etməsin. Dolu qədəh artıq bir qətrədən' də aşa bilir. Mümkün qədər insan nə çox kədərlənməli, nə də həddindən artıq sevinməlidir. Nə vaxtsa yoxsul bir adam xəzinə tapdığına görə çox sevinmiş,

ürəyi tab gətirməyib bu səbəbdən də dünyasını dəyişmişdir.

İstiyə düşən insan suya nə qədər təşnə olsa da, əsla tələsib soyuq su içməməlidir. Talayıb dağıtdığı yeri insan gərək mənzil edib orada yatmasın. Yad sınanmamış qidalardan öz nəfsini saxlayan insan özünə hakimlik etmiş olar. Heç kəsin ayaq basmadığı yola nə qədər yoldaş çox olsa da gərək sən də ayaq basmayasan. Nə qədər yaxın olsa belə, qorxusuz uzaq yol ondan yaxşıdır. Ehtiyacı olub səndən pay istəyənə yox deməsən, Allah rizası da sənə bəs edər. Hər kəsdən gizlin verilən bir bəxşiş insanı bütün dərddən-bəladan qoruyar. Orduya verilən pay rütbədən asılı olaraq elə bölünməlidir ki, hər kəs öz həddini qoruya bilsin. Onlarla münasibətdə ortaq bir rəftarın olması ona görə vacibdir ki, qazanılan etibar itirilməsin. Əgər hökmdar gündə iki dəfə ziyafət qurub bütün başçılarla görüşərsə, yad ölkədə olarkən vaxtını boş əyləncələrə sərf etməzsə şahlıqda ədalət bərqarar olar. Əmanəti gərək nurani adama tapşırasan ki, bu işdə bir xəyanətlə üzləşməyəsən. Təbiət də sirrini günəşdən ona görə gizlətmir ki, o, dünyada var olan hər şeydən təmzdir. Dünyada xoşbəxt olmaq istəyən insan gərək bədbəxt adamlardan kənar gəzib, xoşbəxt inasanların əhatəsində olsun. Adətini, xasiyyətini dəyişən adamdan fəqli olaraq sən gərək vəfalı olub əslini itirməyəsən ki, əldə etdiyin nailiyyətlər səni tərk etməsin. Hər şeydən ötrü bədraftar olub, münaqişə yaratmaq insana uğursuzluq gətirər. Ruzgarın verdiyini qəbul edib, dövlətin şıltaqlıqlarına səbir etməlisən ki, zaman gələndə sənin də qayğını çəkələr.

Çətinliklə əldə edilən dür, gövhər həmişə bərk daşlar içərisində gizlənər. Çətin vəziyyətə düşəndə insan ümüdsizliyə



qapılıb taleyin uğursuzluğundan şikayətlənməməli, bədbin olmamalı, əksinə könlünə qüvvət verib, bəxtinə də güvənməlidir. Pis vəziyyət tez bir zamanda bir daşın göyə atılıb yerə düşməsi müddətində dəyişib, yaxşılaşa bilər. Zülmkarlıq ömrü azaltdığı kimi, şah da ədalətsiz olarsa ölkə az bir vaxta zülm ilə viran qalar. Allah yaratdığı hər bir bəndəsini, əlbəttə, ədalətçün yaratmışdır. Hətta pis fikrə düşən bir insan inan ki elə özünə pislik etmiş olur. Dünya yaranandan istisi də, soyuğu da dəyişdiyindən bu dəyişikliyi - fəsilləri öz qaydasılə qarşılamayan şəxs sağlamlığına zərər vermiş olar.

Sənin kiməsə etdiyin yaxşılığı da, sənə edilən pisliyi də heç yada salmayıb, unutmalısan ki, camaat yanında hörmətli olasan. Ölkənin keşiyini yaxşı çəkmək üçün ayıq-sayıq olmaq lazımdır. Ağıllı insanın dərdi olsa da, zahirən sevinib özgələrinə bildirmədiyi kimi, uğurlu işlərinə görə də döşünə döyüb yersiz-yersiz özünü öyməməlidir. Hər bir işdə qələbə qazanmaq istəyən şah sınanmış, etibarlı, müzəffər başçılarla işini qurmalıdır. İnsan yaxşı və pis nə etsə həmişə düşünməlidir ki, yaxşı iş Allahdan, pis iş isə özümüzdənir. Böyük ustad Ərəstu bu məşhur nəsihətnaməni bitirib şaha təqdim etdi və şahın da könlü bu işdən şad oldu.

Fəzilətlər - çoxsaylı sehr, sirr, qüdrət
Qətrə-damla

## Əflatunun nəsihətnaməsi

Dan yeri sökülüb günəş çıxanda Müşkə', kafur'səpildiyi kimi hava işıqlanmışdı. Bu zaman şahdan xəbər gəldi ki, Əflatun dərin ağlı, kamalı ilə elə bir gözəl namə yazsın ki, oxuyan hər bir kəsin yoluna işıq tutub, işlərində ona yardımçı olsun. Şahın tapşırığı ilə bu əzəmətli ustad söz mədəsindən müti' qələmi ilə gövhərlər saçmağa başladı. Yaradana böyük ehtiramla yerdən də, göydən də salamlar göndərib şükranlıqla dedi. Bu dünya ki var bir mədəndir. Bütün aləmdən uca olan şahımız da onun parlaq gövhəridir. Nəcabət əhli xətərə düşməmək üçün özünü və nəsəbini' həmişə mühafizə etməlidir. Yaxşı və ya pis əməllərinə görə fərqlənən insan bununla öz zatını büruzə vermiş olur. Bizim bu cahan da oğruların ovlağına bənzəyir. Gərək onu heç zaman nəzarətdən qoymayasan. Bir keşikçi ki ayıq olmasa, deməli öz işinə yararsız şəxsdir. Dünyanı qılıncla bərabər, tədbirli olmaqla da, fəth etmək mümkündür. O şahın ki məclisləri eim adamlarına şərəfli məkan ola, onun hakimiyyəti də uzunömürlü olmaqla bərabər, bolluq və əminamanlıq şəraitində davam edər. Yoxsullardan uzaq olan iki bəla var ki, onlar daim şahı izləməkdədir. Bunlardan biri



bişirdiyi yağlı yeməklərlə padşahı cəlb edən aşpazdırsa, digəri cilvələnərək şahın könlünü, həvəsini özünə cəlb edən şux məşuqəsidir. Gördüyümüz bu dünya müxtəlif çalarlı adamaldadan bir rəngdədir. Bizim həmyerlimiz, həm də yerimiz-yurdumuz olan, canımızdan əziz bildiyimiz bu dünya əslində heç kimə kam vermir, ancaq can alır. O, məşuqə adlanan bir əjdahaya bənzəyir. Nə çox əylənən, nə də çox yeyən olmamalısan ki, bunlardan süst' olub qalmayasan. Nəyə görə insan dünyanı dördəlli tutub, can-ciyərlə süfrə bəzəsin ki, ciyərimiz qanla qidalanıb bizi yaşatdığı halda, bəs ciyərsiz necə ömür edərik. Birləşib insan həyatını var edən dörd cövhərin ipini yığa bilməsək bunların hərəsi bir yana baş alıb gedər. Torpaqda çiçək ətrinə dönən su bir gün yenə öz əslinə-ilkinliyinə qayıtmalıdır. Biz heç nəyə görə dünyanı pisləməməliyik. Əgər dünyanın üstü zülm tikanları ilə doludursa, bizim də təbiətimiz kirpi kimi tikanlıdır. Demək dünya da, biz də bir-birimizə bənzəyirik. Yuxu ölümə bənzədiyi üçün yatan adamlarda hiss, duyğu olmur. İnsan bacardığı qədər yatmaqdan çəkinməlidir. Belə olan halda o yaxşıya-yamana düz qiymət verib, hər bir gizli sirdən agah ola bilər. Niyə boş xəyallardan, qovğa və qalmaqallardan əl çəkməyib, yalnız bir qarın çörək üçün çəkişib, vuruşaq. Müdrik insanlar səfər zamanı dünyanı gəzib dolaşsalar da yolda yox, mənzil başında rahatlıq umarlar. Kəşməkəşli, mərəkəli dünyada bu qədər arzu və ehtirasa əsir olmaq, hamısı yemək və geymək üçün çəkilən bu zillət, əziyyət nəyə lazımdır. Bütün çətinliklərə dözüb canından keçməyə belə hazır olanlar dənizdən dürr, dağlardan mədən taparlar. Dünyada hər kəs ruzusunu qədərində yesə də, elə insan da

var ki, qədərindən artıq yığdığı üçün ondan həsəd əskik olmur. Köməksizə, imkansıza səxavət göstərib çörəyini dostlarla bölənlər Allahın qeyb xəzinəsindən bol-bol bəhrələnərlər. Gövhər ölçüsünə görə arpaca kiçik olsa da, dəyəri çox böyükdür. Yuxusuz və yeməksiz qalanda bədən yorulub əldən düşdüyü kimi, yolçunun da dəlitək nizamsız hər yana çapması onu əldən salar.

Gecə-gündüz öz işində ayıq olanları ruzgar (yatanları oğrutək soyduğu kimi) qarət edə bilməz. Rəhbərlik edən yola yaxşı bələd olub qoşunu ətrafında möhkəm birləşdirərsə, yollar nə qədər dağdan-daşdan keçsə də heç nədən qorxub - çəkinməz. Ağıllı hökmdar çatdığı ölkədən bir neçə nəfəri ələ gətirib, yedirdib-içirdib, ənamlar verib lazım olan sirləri öyrənər. Sülhü bərqərar etmək üçün bir baş kifayət edirsə artıq baş kəsməyin heç bir mənası yoxdur. Bəladan uzqlaşmaq üçün yolda qolu zorluya rast gələn ona qələbə çalmağın mümkünsüzlüyünü bilirsə, səbr edib özünü yormamalı, üstünə yeriməməli, hər çətin düyünün bir əlacı olduğunu səbirlə gözləməlidir.

Adətən çox işlərdə qarşılaşdığımız düyünlər bir gün fəqət öz-özünə açılar. Mən nə qədər hikmətli sözlər deməyə çalışsam da öz ağlını özünə rəhbər bilən böyük şahımız məndən də artıq zəka sahibidir. Allahın nəzəri üstündə olan kəs əsla qeyri bir kimsədən ehtiyac duymamalıdır. O qəlbə ki, bir Mələk salamlar gətirə insan fikirləri onun nəyinə gərəkdir. Sevimli şahımızın əmrinə əməl edib, bilənlər kimi bir nəsihətnamə yazdımsa yalnız onun tərifini deyə bildim. Əlbəttə ağlı ilə Allaha bağlandığından sevimli padişahımız heç



kəsin möhtacı deyildir. Qoy bu şərəfli yolda hər işinin uğurlu və xeyirli olmasında Allah ona yardımçı olsun.

Qoca alim naməni bitirib təzimlə hökümdara təqdim etdi. Şahın da qəlbi bu namədən şad oldu.

Müşk-qara mənasında
Kafur-ağ, yəni səhər günəş doğanda hava işıqlandı
Müti-hər əmrinə hazır olan

## Sokratın nəsihətnaməsi

Üçüncü gün səhər İskəndər əmr etdi ki Sokrat bilik və zəkasından istfadə edərək onun üçün bütün aləmə nur saçan bir qiymətli nəsihətnamə yaratsın. Alim hökümdarın uca fərmanına əməl etmək məqsədilə düşünüb-daşınıb zəkanın hökmü ilə sözə başladı. Nəqqaş hansı bir işə başlayarsa gərək ilk öncə hamıya kömək olan böyük Allahın adına layiq gözəl kəlamlar deyə. Çünki bütün bu cahan onun möhtacıdır...

...Allahın mədhindən sonra Sokrat İskəndərin adına gözəl və hikmətli kəlamlar bağlayaraq buyurdu:

-Gərək bu dünyada insan öz ağlı, huşu qərar verməyən işlərə girişməsin. Öz gücünə çox da arxayın olub yolda rastlaşa biləcəyi təhlükəni nəzərə almayanları uğursuzluqlar gözləyir. Döyüşdə də, şənlikdə də-hər yerdə olsan dostlardan gərək ayrılmayasan ki, çətin vəziyyətlərədə düşməyəsən. Fəqət bir siyasət məclisinə düşərsənsə, yanında artıq söz danışıb səni hörmətdən salmasınlar deyə hər yetənə fürsət verməməlisən. Dəniz hər şeyi özbaşına və təklikdə udduğuna görə suyu acı olduğu kimi, xudbin və xəsis olub, tək yeməyə



vərdiş edənlərin də yediyi nuş olub ağzı dada gəlməz. İnsan ömrü bulağa bənzəməlidir ki, onun xeyirxahlığından bəhrələnsinlər. Xəsislik edib xörəyi gizlətsən onun üfunəti çox evlərə yayılar. Müşk, ənbər rayihəli* bənövşə də qönçə vaxtı yaxşı qoxu verməz. Möhtəşəm saraylardan insana yalnız bir qismət ruzi çatdığını anlayaraq gərək nəfsini tox saxlayıb az-az yeməklə sağlığını və uzun ömürlü olmağını qoruyasan. Heyvan nəfsi ilə yeyib-içməyi ölçüsüz olanlar həm qorxaq, həm də tənbəldirlər. Qazancından bir az yeyib, bir az yığıb, bir az da paylayan insan dünyada xoşbəxt hesab olunar. Nəfsinə qalib gəlməyi bacaranlar öz böyüklüyünü də qoruyub saxlamış olarlar. Qəbul edilən qidaların cana nuş olması çox vacibdir. Dadına yox, faydasına diqqət yetirilməlidir. Sirkə ilə süd bir yerdə olanda xəstəlik törətdiyi kimi eyş işrətə həddən artıq meyl edib, səfərdən, işdən, soyuyan adam da sağlamlığına və nüfuzuna xələl gətirmiş olur. Minlərcə xidmətçin olsa belə, özün də iş qabiliyyətini qoruyub saxlamalısan ki, xidmətçilər olmadığı zaman kiməsə möhtac qalmayasan. Acıdil olub, əl tutanlardan, köməyi dəyməyən, lakin gözəl ülfət göstərən, şirindil insanlar daha üstündür. Həyalı söz danış ki, dinləyənlər də səndən öyrənib həyalı danışsınlar. Söz özü nə qədər gözəl və mənalı olsa da pis ədə və kobudluqla deyiləndə gözdən düşər. Belə danışmaqdan süküt yaxşıdır ki, bundan da heç kəs peşiman olmaz. Nalayiq işə qol qoyanlar dünyada həmişə özləri xar olarlar. Ümüdlə bəslənən zirə* kimi bir şeyi tapmayanda sən də özünü bir ümid ilə aldat və səbr et ki, dözümlülük göstərib istədiyinə nail olasan. Buludun çiskinindən yapıxan* gülləri gurşad* yağışlarda sellər apara bilir. Sorğu-sual gününü düşünən

insan zalımlara heç vaxt kömək etməzlər. Qan töküb, baş kəsmək göz yaşı ilə nəticələnən elə bir tordur ki, onunla oynamaq olmaz. Nahaq qan üçün boyun vuran qılıncının bir gün də öz başını kəsməsindən qorxmalısan. Ədalət, qanun qaniçənliyinə görə vaxt gələr səni xalqın ayağı altına atıb tapdaq edər. Viran etdiyin bu qədər ölkələrin, tökülən nahaq qanların hesabını bir gün sorsalar cavabın nə olacaq? Gözəlliklərə qıymağı özünə peşə seçmək ən böyük qəbahətdir. Çünki onları zaman bir daha yetirməz. Bu dünyanın gərdişi aldadıcıdır. Zahirən gözəl gəlinə bənzəsə də, əslində o, kinli bir əjdahadır. Şah gərək vüqarlı tərpənib fələk kimi tələsməsin. Yollarda çoxlu daş-kəsəyin olduğunu nəzərə alıb asta-asta addımlamalısan ki, məqsədinə nail olasan. Dərdə düçar olanda isə çox da ləngiyib vaxtını hədər etməməlisən.

Bir günahsızla dava məqamı yaranarsa təmkin göstərib səbr etməli, başqa təqsirlərdən, günahlardan keçsən də canini, oğrunu gərək heç vaxt bağışamayasan. İnsanlığa yad olan hər hansı bir şəxslə yaxınlıqdan çəkinməli və onları özündən uzaqda saxlamağı bacarmalısan. Ölkə başçısı camaat ilə ədavət edərsə, əlbəttə, xalq da bir gün onun üzünə ağ olacaqdır. Öz təbəənlə* çox yumşaq rəftar etmək də yaxşı əlamət sayılmır. Özgə kiliminin* üstündə rahatlıq tapmaqdansa, aslan kimi öz dərinin üstündə yatmaq daha xoşdur. Baramaqurdu kimi ev qurmaq məqsədilə özündən-özünə kəfən toxuyanlardan olmamalısan. Xeyirxah olmayanlardan özünü qoruyub, məsləhətlərini belə dinləməməli, acizlər kimi ah-vayla yaşamamalısan.

Sən özün də hikmət sahibi olub, göylərdən ilham aldığın üçün bundan artıq danışmağım bəlkə də sənə zərər



gətirər. Qılınctək kəsərli olan bu dediyim sözlərdən şahım gərək inciməsin. Mən inanıram ki, şah əlində bu iti qılıncla hara qoşun çəksə qələbə onunladır.

Qiymətli fikirlərlə dolu olan bu nəsihətnaməni də hökmdar bəyənib məmnunluqla qəbul etdi.

Zirə–dağlarda bitən ətirli bitki
Yapıxan–yerə yatan, əzilib-qırılan
Gurşad–şimşək çaxandan sonra güclü yağışın yağması
Təbəənlə–tabeliyində olanlarla
Kilim–xalça, palaz.

## İskəndərin peyğəmbərlik səfərinə çıxması

Bir səhər Nizami Xosrovnaməni yazmaq üçün hikmətli söz dünyasına baş vuraraq özünü hazırlayırdı. Parlaq güzgüdə baxnada, özünü yaşlı, üzünü solğun, saçlarının ağarmasını və gözlərinin yuxusuzluğunu görüb çox pəjmürdə oldu. Qərara gəldi ki, yenə əvvəlki həvəslə yuxu göz mülkünü tutana qədər bu əsəri yazmalıyam ki, bəlkə axır mənzilim kimi bir rahatlıq tapa bilim.

Dövrandan xəbərsiz olan bir alim keçmişdən nəql edərək dedi:

– Böyük İskəndər Allahın hökmilə peyğəmbərliyə yetişəndən sonra adını şahlıq divanından silib, zəhmət divanına nəqş etdi. (Yəni peyğəmbərliyə).

Rum ilə Rusun nə qədər gəliri var idisə hamısını təxt-tacınıda oğluna verib, anasının ona göz olmasını tapşırdı. Allahın əmrinə əməl edərək anasına xalqla gözəl rəftar edib, atatək himayəsinə, anatək dərdlərinə şərik olmağı vəsiyyət etdi. Əgər dindar olub ədalət göstərsən xeyrə çatarsan. Sənə əmanət etdiyim təxt-tacımda xeyrə yetərsən. Yollarım uzun, mənzillərim də saysız olduğuna görə geriyə dönəcəyim



haqqında bir söz deyə bilmərəm. Amma səfərdən qayıdaramsa nə mən, nə də sən gərək xəcalətli olmayaq. Nə qədər diqqətli olub haqq tərəfində dursan aqibətin də xoş olar. Səfər üstdə olan İskəndər sözlərini bitirib əmr etdi ki, önündə cəm olan Rum və Şam qoşunlarından yol üçün min pəhləvan ayırsınlar.

Güclü və qıvraq yeriyən, bir hissəsi dadlı yeməklərlə, bir hissəsi qiymətli daş-qaşla yüklü, bir hissəsi isə nəcib, iti yerişli dörd min dəvədən ibarət karvanla yola düzəldi. Qoşunun içərisində hər peşədən, hər sənətdən yüzlərcə mahir işbilənlər də cəm olmuşdu.

İskəndər bayrağını ucaldıb, Qərb ölkələrinə səfərə çıxdı. Elə ki, İskəndəriyyəyə gəlib çatdı, orada möhtəşəm bir təxt qurub, bir neçə gün şadlıqla orada qaldı. Başına parlaq güzgü bənd edilən uca bir mil düzəltdirdi. Güzgüdə uzaq məsafədən, dənizdən belə gəlib-gedəni görmək mümkün idi. Beləliklə paytaxtından arxayın olan İskəndər vüqarla öz köhləninə minib yenə günbatan istiqamətində yol başlayıb Misirə çatdı. Orada iki gün qaldıqdan sonra Allahın əmri ilə qəlbində min arzu yenə də xeyli yol gedərək bir çölə yetişdi. Yerli hökmdarın zülmünə dözə bilməyən bir dəstə adam şahdan mərhəmət diləmək üçün İskəndərin qarşısına çıxıb dedilər:

– Ey böyük hökmdar, sən dünyanı pak edib bədxahlardan təmizləməyə qadirsən. Allahın dostları ilə düşmən olan, bizlərə dinclik verməyən bir əhrimən də var ki, paklar yurduna, bizlərə bir əngəldir. Biz itaətkarlar da müqəddəs evdə o zalımın zülmündən bezar olub, tökülən nahaq qanlara necə biganə qala bilərik. Allahın yolunu azan belə div

xislətlilərə həmişə qənim kəsilənsən. Bizm şəhərimizi də öz bayrağın altında paklığa çıxartmağını istəyirik.

İskəndər onların ah-fəryadını eşidib, tökülən göz yaşalrına rəhm edərək, dünyanı hasardan qurtarmaq üçün atını Beytülmüqəddəsə sürdü.

Rumdan, Məqdəsə gələn hökmdar, ədalət səsini eşidib onlarla döyüşmək üçün gələn düşmənlərlə qarşılaşdı. İskəndər yolkəsən azğnların, yolunu kəsib Qüdsün qapısında onları çarmıxa çəkdirdi. Carçılar bu müqəddəs evə edilən zülmləri bir-bir sayıb, onların belə aqibətlərini xalqa çatdırdılar. Hökmdar bu pak evi zalımların zülmündən azad edib, abad bir vəziyyətdə müti olanların ixtiyarına verərək günçıxan tərəfə yol aldı. İskəndər olduğu yerlərdə əhali ilə görüşəndə də, hökm verəndə də ağıl və ədalətlə davrandığından hamı onu müdrik bir hökmdar kimi sevərək, doğru yolunu qəbul edirdilər.

Hər yerdə bir yeni məbəd tikdirib dünyanı tutmaq üçün bayraq ucaltmışdı. Dağlardan-dərələrdən keçsə də çəmənlik görəndə məskən salıb bir qədər dincələr və yenə də yoluna davam edərdi. Elə ki, dənizə yetişdi gəmilər salıb üç ay gecə-gündüz Məqribə tərəf yol getdilər. Hökmdar qoşunu və yoldaşları ilə bir yerdən başqa yerə keçərkən, qarşılarına müxtəlif canlılar çıxsa da, yaxın gəlməyib qaçıb dağılırdılar. Bu minvalla elə bir çölə gəlib çıxdılar ki, sapsarı qumları olan bu tozlu yerdən atlar çaparkən həmişə od-alov qopardı. Tərkibində kükürd olan bu torpaq başqa torpaqlara bənzəməzdi. Bir ay yol getdikdən sonra o sarı gil tozu qalxan yerləri ötüb keçdilər, İskəndər önündə əngin bir dərya gördü ki, ona Yunanlar Okyanos deyərdilər. Dalğalar ətrafı elə



dəhşətlə döyürdü ki, buradan uzağa keçmək çox müşkül işə oxşayırdı. Bu elə bir dərya idi ki, günəş batandan sonra da orada görünürdü. Fələk də öz odlu çeşməsindən gecə-gündüz ona nur saçdı. Mühit adlı böyük dənizə nəzər salanda sular asılmış kimi gözə dəyirdi. Günəş batanda sular qalxıb oyandığı kimi, sular yatanda günəş də dəniz rəglərindən ipəyə bürünərək yenidən boyalanıb ucalar, sonra da yerin o biri üzündən keçdiyi üçün yerin örtüyünü örtərdi. İdrak sahibi olanlar bu cür qeyri-adiliklərlə qarşılaşanda yol bilənlərə başqa bir rəhbərin də var olduğunu bildirirdilər. Dənizin suyunu isti görən şah heyrətlə alimdən soruşdu:

– Bu necə çeşmədir. Bəs bu çeşmənin gözətçisi kimdir?

Alim cavabında:

– Bu sirri çox adamlar gəzib axtarmış, amma tapa bilmədiklərinə görə məğlub olmuşlar. Bəzi alimlərin mülahizələrinə görə günəşin seyr etməsini kimi mərkəzdə, kimisi də yerin altıyla əlaqəli düşünər. Günəş, ay bu cilvəgahdan (gözəlliklərin təcəssüm olunduğu, əks edildiyi yer mənasında) keçib harada dövran sürdüyünü kimsə bilməzdi. Kənarda bir az dincini aldıqdan sonra yavaş-yavaş sahilə yaxınlaşanda bulud ordusunun yolları necə kəsdiyini və o dənizdə suyun civətək ağır olduğunu müşahidə etdi. Rəhbəri olamayan gəminin belə suda üzməsi təhlükəli idi. Belə olan halda şah bələdçilərdən bu yolun sirrini, hansı tədbirlər görməyi, yüklü gəmilərin suya nə sayaq salmağın mümkün olduğunu soruşdu. Yol bilənlər hətta yüz bələdçi olsa belə, bu sudan gəmini çıxara bilməyəcəklərini söylədilər. Suda civə rəngli qorxunc dəniz nəhənginin olduğunu da dedilər. Bu nəhəng hərdən heybətlə elə qorxunc dəhşət saçar ki, uzaqdan

görənlər elə o andaca vahimə içində quruyub məhv olurlar. Hələ bundan da betər işıqlı bir sahil də vardır ki, o sahil hərəsi bir-iki batman qədərində al-əlvan qızıl sürmə daşlarla dolu olan bir yerdir. Bu əlvanlığı görəndə insan şadlıqdan, qəhqəhə çəkib o qədər gülər ki, qəfil sevincdən ürəyi dayanar. Yox əgər o, daşın çəkisi misqaldan az olarsa insanda heç bir gülüş hissi oyanmaz.

Bütün bu söhbətləri dinləyən İskəndər xeyli fikrə getdikdən sonra təcrübə məqsədilə oraya adamlar göndərdi. Bu daşların çoxalrını torpağa yıxdığını görüb qocanın sözlərinin doğruluğuna inandı və əmir etdi ki, əsgərlərdən bir neçəsi dəvələrlə o yerə gedib (yetişən zaman gözləri sarınmaqla ) həmin daşlardan bezlə və ya başqa qalın şeylərlə bükərək, hərə bacardığı qədər dəvələrə çatıb geri dönsünlər. Şahın adamları buyruğu yerinə yetirən kimi şahın özü ilə birlikdə, ölüm qorxusundan tez o qorxunc yeri sürətlə tərk etdilər. Onlar imarət tikməyə yararlı olan, sulu bir çəmənə çatanda padşahın əmri ilə parçaya sarılmış həmin daşları yerə töküb orada qapısız uca bir bina tikdilər. Sarı torpaqdan palçıq hazırlayıb bayırdan hasara suvaq çəkdilər. Bu daşlarda gizli sirr olduğuna görə hasara içəri tərəfdən suvaq vurmadılar. Alimlər belə danışırlar ki, aradan bir xeyli müddət keçəndən sonra sarğılar cürüyüb yerə töküldükcə bu yeddi rəng gövhərlər görünürdü. Xaricinə sarı palçıqdan suvaq çəkildiyinə görə heç bir ziyan vermirdi. Bu yoldan ötənlərdən hər kəs binanı içəridən görmək istəyirdi qapı olmadığı üçün hasara kəmənd atıb hasarın üstündən içəri keçərkən, yenə dərya kənarında olduğu kimi torpağa düşüb ölürdülər. Hər batmanı adam öldürə bilən bu daşlardan



dağtək yapılan bu imarət gör nələr törədə bilərdi. Bina tam hazır olandan sonra İskəndər dəryadan səhraya səfər edib, sonsuz çöllərdən keçərək fillərin ayağı ilə altı ay yol getdikdən sonra Nil çayının sahilinə gəlib yetişdi. Hökmdar çayın mənbəyini görmək niyətilə böyük cürət göstərib çayla yanaşı dağları, çölləri keçərək atını dördnala çapıb, ətrafı uca dağlar olan mina kimi yamyaşıl bir təpəyə yetişdi. Büllur sütuntək axan şəlalə və daşlar yolu kəsdiyi üçün zirvəyə qalxmaq çox müşkül idi. Amma çox əziyyətlə kimsə zirvəyə qalxsaydı çəkdiyi əziyyətləri orada unudub geriyə dönmək istəməzdi. Gedənlər orada məskən salıb elə bil təxtü-tac sahibi olur, qoşunu bir daha yad etmirdilər. İskəndər işi belə görüb yenə də alimləri bir yerə topladı ki, bu işə bəlkə bir çarə etsinlər.

Alimlər dedilər:

- Oraya çıxanlar gərək cüt gedib on addımda bir dincəlib, təpəyə yetişəndə isə dayanıb gözləri heyrətə düşməsin deyə o üzə tədriclə baxıb sonra tədbirlərini işə salsınlar.

Bu son tədbirin də bir nəticə vermədiyini görüb, İskəndər alimlərlə elə bir qərara gəldilər ki, hünərli, vicdanlı, dünyagörmüş və yazmaq bacaran bir şəxs tapıb o yerə göndərsinlər. O da yanında öz əziz oğlunu aparmalıdır ki, yolda həm onu dərd-qəmdən qorusun, həm də oğlu onu arxadan təqib etsin. Oğlu dağın ətəyində qaldığı üçün ata geriyə qayıda bilməsə belə övladına olan sonsuz məhəbbətinə görə ya gördüyünü ona xəbər verər, ya da heyrətindən dili tutularsa, gördüyünü yazıb oğluna çatdırar.

Onlar həmin sifətlərə malik cəld, qıvraq, vicdanlı bir qoca tapıb, oğlu ilə birgə oraya gətirdilər. İskəndərin adamları qoca ilə oğlunu bu işdən agah etdilər.

Ertəsi gün günorta vaxtı bu gənc igid əlində bükülü bir məktub rəngi ağarmış vəziyyətdə padşahın hüzuruna gayıtdı.

Məktubda qoca keçdiyi darısqal və tozlu yolların onu necə bezdirməsini, bu qorxunc səfərin cəhənnəmə bənzədiyini, insan həyatının bir tükdən asılı olub canından əl üzməsini və bu çətin yolda geriyə dönməyin mümkün olmadığını yazırdı.

"- Elə ki, qayanın üstünə gəlib çıxdım keçdiym qorxunc yollara baxanda sıxıntıdan qəlbim zinhara gəldi. Ancaq bu tayın yolları düz və hamar, hər yanı bol gül-çiçəkli, sulu, müxtəlif meyvəli yaşıl bağlar idi. Bir yandan ötən quşların səsi, bir yandan təmiz və çiçək qoxulu hava, bir yandan da əsrarəngiz təbiət insanı valeh edirdi. Çeşmələr bulaqlarla əl-ələ verib böyük və gözəl bir çay əmələ gətirirdi. Dediyim kimi, bu yanda bəzəkli, elə gözəl bir həyat ki, hər bir insan yaşamaq üçün Allahdan yalnız belə bir yurd arzulayardı. O yanda isə azğınlıq, düşkünlük və fəryadla dolu cəhənnəm kimi bir yer. Əlbəttə, heç kəs behişti qoyub cəhənnəmə dönməz. Bir də kim o dəhşətli yerləri qayıtmağa bir daha cürət göstərər. Mən bu gözəlliklər qoynuna üz tutub şad olduğum üçün möhtərəm şaha da Allahdan şadlıq və səlamətlik arzulayıram."

Şah naməni oxuyub heç kəsə bir söz demədən hamının onu tərk edəcəyindən qorxub, əsla başqa bir şey düşünmədən qoşunun tez bir zamanda yola çıxmasına əmr verdi. O, xəzinədən xeyli sərf edərək, qumlu səhralardan yenə böyük çətinlikıə qoşunu geriyə qaytardı. Hər yanı vəhşilərlə dolu olan bu yolları bir tərəfdən də düşmənlər tutmuşdu. Ancaq



onlar hər dəfə şaha doğru hücum çəkəndə bir andaca yolu zülmət basırdı. Şahın icazəsi olmadan bir nəfər belə zülmətdən bir qədəm də kənara çıxa bilməzdilər. Hər kim ona rast gəlsəydi tərcüməsiz də onlarla anlaşmağı bacarırdı. Qarşısına çıxanların hər birinə öz dilində layiqli cavab verirdi. O, bu yollarda heç nəyə meyl etməyərək yel kimi, qəlblərdən tozları silərək, yadlara həqiqi din öyrədib, xeyirxah işləri ilə dostların könlünü şad edirdi. İskəndər qorxunc səhralardan tufanlar tək keçib, bol qızıl olan elə bir yerə çatdı ki, ağacdan, otdan bir nişan yox idi. Elə bil səhra gələnləri alov dili ilə qarşılayırdı. Qızıl mədənini görən hökmdar uşaqtək sevinib atını bir az da irəli çapdı. O ağacları qızıldan olan abad bir bağda cənnəttək gözəl bir düşərgə tapdı. Ölkələr fatehi düşərgənin qapısından keçib hər yeri sapsarı qızılla örtülümüş gördü. Bu yerdə bütün ağacların da gətridiyi bar qiymətli daş-qaşlardan ibarət idi. Sanki dünyanın bütün ləl-cəvahiratı bu yerdə cəmlənmişdi. Bu zinətli bağda elə bil yanan hər çıraq da gövhərdən idi. O yerdə insan biçimində qalxıb ucalan iki heykəl də vardı ki, görənlər qızıl olduğunu bilməsə idilər yəqin onlardan qorxardılar. İçindəki buzu da xalis gümüşdən olan hovuzda saf əqiqdən balıqlar vardı ki, onların seyrinə dalan hər kəs bu mənzərəyə heyran qalardı. Bir başı qızıldan, bir başı gümüşdən olan saraya İskəndər ayaq basanda bir cənnət qəsrinə girdiyini zənn etdi. Başdan ayağa gövhər içində qızıl günbəzli bu bağa özü əqiqdən olan bir köşk də zinət verirdi. Göyün günbəzinə girən mələk tək bu parlaq, kafur qoxulu, qapısı da, divarı da mina naxışlı olan məqbərəyə girən İskəndər burada üstü yazılı yaqut bir lövhə gördü. Lövhədə belə yazılmışdı!

– "Ey buraya girən qüdrətli qəhrəman, sən bu yazıları oxu və bil ki, bu qəbrin içində yatan Şəddaddır və bu gözəl bağın-bağçanın da yaradıcısı elə o özü olmuşdur. Gərək burada həyalı, ədəbli olub, niqabını açmaq haqqında belə düşünməyib, sirlərimizidə gizli saxlamalısan. Çünki biz də heç vaxt kimsənin sirrini açmamışıq. Bu torpaq gez-tez sənə də məskən olacaq. Hərçənd qəbrin günbəzi sərt qara daşdan tikilmişsə də fələk bir gün onu da toza çevirib, özünü də qarışqalara yem edəcək. Sən də bu sirlərdən ibrət götürərək kimliyindən asılı olmayaraq, öz bu gününü yada salıb insan olduğunu hər an düşünməlisən. Gördüyün bu xəzinə üzünə açıqdır. İstədiyin qədər bəhrələnə bilərsən. Amma bu günbəz bir yadigar olduğuna görə əsla ona toxunmayasan."

İskəndər bu sözləri oxuyub çox heyrətlənərək kədərli bir vəziyyətdə bir gövhərə belə toxunmadan oradan çıxıb yenə də səfər üçün qoşuna göstəriş verdi. Onun keçdiyi yolların hər addımı elə bil sərvətlə aşıb-daşırdı. Amma, yenə də öz yurdu yadına düşdüyü üçün yola düşdü. Yolu yarı edən hökmdar kahalarda, mağaralarda yaşayan, qırdan da qara insanabənzər vəhşilərlə rastlaşdı.

Onlardan soruşdu:

– Bu çöllərdə sizdən başqa yaşayan ya əhli, ya vəhşi heyvan varmı? Ümumiyyətlə qeyri-adi maraq doğuran əfsanə, sərgüzəşt nə bilirsiniz?

Onlar dedilər:

– Bu çölün suyu, buludu az olsa da biz ömrümüzü bu səhrada olvçuluqla keçiririk. Ovladığınız heyvanların tükündən də, dərsindən də özümüzə paltar hazırlayırıq. Bu yerlərdə günəş də görünmədiyi üçün gündüzlərin işığından



və istisindən istifadə etməyə çalışırıq. Nəmli havalarla biz nəfəs almağımızla havanın tərkibində olan su damlalarını da qəbul etmiş oluruq. Göründüyü kimi bizim məişətimiz və işimiz bu sayaq çətindir. Hətta bir quşun da cəsarət etmədiyi bu yerlərdə dəstə-dəstə vəhşi adamlar da yaşayır ki, onlar heç kəslə ünsiyyət bağlamırlar. Bizim iki ayda qət edə biləcəyimiz yolu onlar bir günə gedirlər.

Bir dəfə onlardan biri əlimizə düşmüşdü. Birtəhər onu dilə tutub susuzluğa necə tab gətirdiklərini soruşanda o bizə nifrətlə baxaraq: "Buranın suyu zəhər kimdir, burada suyu hava əvəz etdiyi üçün heç kəs bu sudan içməz. Özümüz də qarşımıza çıxan sürünənlər, həşəratlar və s. başqa canlılarla qidalanıb, ilan kimi heç kəsə yovuşmarıq" – dedi:

Yenə də bir dəfə onlardan yemək, yatmaq vaxtı gizlincə bir xəbər aldıq ki, ahutək bu ucsuz, bucaqsız çölü, dağı illər uzunu qaçsalar da başqa çöllülərə də çox rast gəliblərmi. Onlar da ta uzaqlarda gözəl, ağ bədənli, gözəl xasiyyətli, üzügülər insanların yaşadıqlarını və beş yüz ildən də artıq ömr etdiklərini, min il yaşasalar belə qocalıq əsəri olmadığını söylədilər və başqa qrup insanların da mövcudluğunu dedilər. Bizim bu torpaqda heç insan ayağı dəyməyən çox səhralar, dağlar var ki, o yerlərdə isti daha kəskin, soyuq isə daha sərt olur. o yerdə ki, əgər göyərti bitmirsə, orada canlı məxluq ömr edə bilərmi?

Onların halına acıyan İskəndər cürbəcür nemətlərdən bir qədər pay ayırıb, haqqa, dinə itaət etmələri üçün qayda-qanun yaradıb, onlara ayinlər də öyrətdi. Məchul yerlərin yolunu da düzgün nişanlarla bilmək üçün onlardan soruşub yəqinləşdirdi. Onlar İskəndərin qayğıkeş , insaflı, şəfqətli

olduğunu və onlara ürəkdən kömək etdiyini görüb torpağı atəş, küləyi zəhər olan bu səhradan çıxmaq üçün ona rahat yol göstərdilər. Hökmdar vaxt-bivaxt yollara baxmadan atını dördnala çapıb çöllərdən, səhralardan keçib axır ki, sahilə çatdı. Onlar o qədər yorğun idilər ki, büllur bulaqların başında bir aya qədər dincəldikdən sonra, yenə gəmilər düzəldib bütün qoşunla birlikdə yola düşdülər. Bir ay dənizdə yol gedib mənzil başına yetişdilər. Cənubdan əsən səhər yeli qoşunda olanlara şadlıq və fərəh verirdi. Bu zaman qarşılarında güllü, çiçəkli, gözəl havası, suyu, meşəsi olan cənnət kimi bir məkanı görəndə yolun bütüm əzablarını candan çıxarmaq üçün burada dincəlməyi qərara aldılar.



### İskəndərin başa sitayiş edənlər kəndinə yetişməsi

Belə rəvayət edirlər ki, şərq ölkələrindən geri dönən şah mənzil başına yetişdikdən sonra, cənuba tərəf yollanmaq qərarına gəldi. Təbiətin çox gözəl vaxtı idi. Bələdçilər şaha xəbər verdilər ·ki, səfərə çıxarkən onlar qarşıda hər yanı çəmənlik, gözəl bulaqları olan behişt kimi bir kəndə çatacaqlar ki, orada yaşayanlar bütü özlərinə Allah sanıb haqdan uzaq düşüblər. Bəlkə şah onlara mərhəmət göstərib, doğru yola gətirə bilər.

Günəşin qürub çağı şah öz qoşunları ilə o kəndə yetişib bir qədər rahatlansa da, əsl cənnəti xatırladan bu gözəl kənddə onların pişvazına heç kəs çıxmadı.

Burada hərə evinə bir küp qoyub, içərisinə küncüd yağı tökərək oraya bir nəfər salıb 30, 40 gündən sonra küpdəki o adamın başını kəsib götürərdilər. Küpdəki qalan bədəndə heç bir dəyişiklik olmasa da, baş dönüb qupquru kəllə olardı. Bu quru kəlləni özlərinə rəhbər hesab edərək, gecənin-gündüzün necə keçəcəyini və onları nələr gözlədiyini, hər şeyi, bəzən sakit, bəzən də çubuqlayaraq ondan soruşardılar. Guya bu

kəllədən danışıqtək bir səs çıxarmış ki, bundan da sabahın müqəddaratını, cahanın hansı yollar keçəcəyini öyrənərmişlər.

İskəndər bu sirdə bir div əli olduğunu anlayaraq əmr etdi ki, bütün yağla dolu olan küplər, onların sitayiş etdikləri kəllələr tez sındırılsın. Bununla da o ağıllı dəliləri bütün batil fikirləri alt-üst edib, onları təlqin edərək dinpərvərliklə Allah və peyğəmbər yolunu öyrətdi. Ölkə işlərini qaydaya saldıqdan sonra, öz aralarından təmizqəlbli bir nəfəri seçib özlərinə rəhbər təyin etdi. Bu yerdə hökmdar ləngimədən buruq-buruq dumanlı yollardan keçib, səfərinə davam etdi. Yolda zirvəsi qılınctək görünən bir dağın darısqal, tikanlı yollarını keçərkən ordusunun hədsiz əziyyətlər çəkdiyini, heyvanların da dırnaqdan olduğunu gördü. Polad kimi sərt daşlardan qorunmaq üçün əvvəlcə qalın keçə ilə, sonra da dəri ilə onların dırnaqlarının möhkəm sarınmasını tapşırdı. Yolda yeriməyə əngəl törədən daşları təmizləyərək, çala-çuxurları hamarladıqdan sonra bir neçə fərraş şahın yanına gəldi. Ədəblə-hörmətlə ona baş əyib minikdə dırnaq qoymayan bir neçə daş göstərdilər və bu daşlardan dad çəkdiklərini, hətta onların poladdan da möhkəm olduğunu şaha dedilər.
Şah qəzəblənib daşa zəhmlə bir qılınc çaldı. Ancaq qılınc özü parçalansa da elə bil bu zərbə daşa heç təsir etməmişdi. Daşı hansı maddəyə sürtdülərsə də qalaydan başqa ona heç bir şey təsir etmədi. Çox bərk və iti olduğuna görə İskəndər bu daşları almaz adlandırdı.

Hökmdar hamını toplayıb bu daşların qiymətli olduğunu və yəqin ki, bir gün kara gələcəyini bildirib, onları rast gəldikcə yığıb saxlamalarını tapşırdı. Şahın göstərişi ilə əsgərlər hər yeri axtarıb bu qiymətli daşları topladıqdan sonra,



dəniz kimi gövhər saçan, qoynunda ilanlar gəzən almazla dolu nəhəng bir dərəyə rast gəldilər. Xəzinələr həmişə ilanla bir yerdə olduğuna və almazın üstü ilə yol getməyin çətinliyinə görə ora qorxudan heç kəs ayaq basa bilmirdi. Şahın əmrilə o yerə min baş qoyun gətirib, ətini də doğrayıb mədən sayılan yerə doldurdular. Almazlar duz kimi ətə yapışırdı. Hər tərəfdən quşlar da uçub o yerə gəldilər. Əsgərlər həmin leşləri bağlar vasitəsilə çəkib, üstünə yapışan qiymətli daş-qaşları yığırdılar. Bu qayda ilə onlar dərədə olan almazları əldə edə bildilər. Quşların götürdüyü ət parçalarından tökülən daşları da bir yerə topladılar. Bir hissəsi göy rəngdə olan bu daşların ən yaxşıları sarı rənglilər olduğuna görə, əsgərlər onları ayırd etdilər. Şah işlərini sahmana salıb qoşunu ilə birlikdə dağdan sürətlə enməyə başladı. Nalından od qopan atların bu daşlıq-qayalıq yerlərdə döşündən tər əvəzinə qanlar axırdı. Heç bir bələdçi olmadan onlar belə vəziyyətdə bir ay yol getdilər. Şahın köməkliyi ilə nəhayət bu sərt qayalıqlardan çıxıb həm abad, həm də geniş bir yerə çatdılar. Yağışı da, qarı da əskik olmayan bu münbit torpağın hər yanı gömgöy əkinlərlə dolu idi. Bu yaşıllıqlarda atlar doyunca otladılar. Böyük bir zəminin yanında, əlində bel, ayağı yalın şir kimi dalğın bir gənc dayanmışdı. Şah onun çox zəhmətkeş və torpağa bağlı olduğunu görüb, ona bildirdi ki, sənin kimi gözəl düşüncəli insanlar, gözəl işlərlə məşğul olmalıdır. Bu cür əzab-əziyyətlə çöllərdə qultək işləməyə də layiq deyilsiniz. Mənim sözlərimə qulaq asıb bu torpaqdan əl çəksən lap sənə şahlıq da verərəm.

Ağıllı əkinçi padşaha ədəblə cavab verdi:

– Ey dünya alimi, siz ağıllı və ədalətli hökmdarsınız. Sizə o adamlar tabe olmuşdur ki, onlar öz işində xam və harındırlar.
Hər kəsə öz peşəkarlığı müqabilində elə iş verin ki, o bu işdən avara qalmayıb həm özünə, həm də xalqına fayda vermiş olsun. Mən də bir əkinçiyəm ki, vücudum bərkliyə öyrənib. Nə şahlıq bacararam, nə də rahat yatağa öyrənməmişəm. Yapışqan balı əvəz edə bilmədiyi kimi, kobud bədənlərin də zəriflik göstərməsi çətin olur.

Padşah ona ürəkdən afərin söyləyib soruşdu:

– Ey cavan, de görüm sənin etiqadın nədir? Səni dünyada şərdən qoruyan kimdir ki, özünü ona qul bilirsən?

Gənc dedi:

– Hamıya düz yol göstərməklə peyğəmbərlik edib, haqdan xəbərlər verdiyiniz üçün mən özümü səninlə bir yolun yolçusu hesab edirəm. Yeri-göyü yaradan Allaha gecə-gündüz səcdə edərək torpağa üz sürtüb şükr edirəm ki, özümüzdən də xəbərsiz bizə hər biri min fayda verən, nə qədər gözəl nemətlər göndərmişdir. Allahını tanıyan hər bir qul onun böyüklüyünü anlayıb, şükranlıqla dualara etməyə borcludur. Balıqlar suda həyat tapdıqları kimi , sənin dininin sayəsində mən də dirilib həyat qaznadım. İndi də sənin əmrlərinə varlığımla hazıram. Öz sədlərinlə dünyanı hifz edib, şadlıq və əminamanlıq yaratmısan.

Həmin xoşxasiyyət gəncin düşüncəsi və dini qəbul etməsi İskəndərin çox xoşuna gəldi, Allahın adı ilə ona şahanə xələt bağışlayıb alnından öpdü. Bu cənnətməkan yerin camaatı ilə yaxından hal-əhval tutan hökmdar bir qədər dincəldikdən sonra yola düşdü. Onlar xeyli yol gedib sonra



hər yanda şahanə saraylr olan, torpağı əkinsiz məhsul verən gözəl bir yerdə məskən saldılar. Ancaq buranın torpağını o qədər su basmışdır ki, orada hər nə varsa saralıb-solmuşdur. Şah bu yerdə xış sürənin, cilov tutanın, ümumən, camaatın əkin-biçinlə məşğul olmadığını görüb hansı ölkəyə gəlib çıxdıqlarını və bu yerə kimlərin hakim olduğunu soruşdu.

Yerlilərdən biri şaha təzim edib cavab verdi:

– Ey böyük hökmdar, bu yerlərin (tək bircə arpanın onu əyə biləcək qədər) incə bir qanun tərəzisi var. Qəlbə fərəh verən bu gözəl diyarın birə-min məhsul yetirən bərəkətli zəmiləri var. Buranın sahibi adil bir rəhbər olsaydı bura çox varlı, bərəkətli, abad bir yer olardı. Bu yerin torpağı ədalətə görə bar verdiyindən zülm, ədalətsizlik olarsa istidən quruyub, sudan çürüyüb gördüyünüz kimi zavala gəlib bu faydasız, bəhərsiz hala düşər.

Hökmdar bu yerdə ədaləti bərpa edib, oranı abadlaşdırdığı üçün o yerin adını İskəndərabad qoydular. İskəndər hər bir muzdurun haqqını yerindəcə verməyi, hər kəsin malına zəkat verməsini və heç bir tövcü yığanın oraya gəlməməsini qanunlaşdırıb camaatın alqışını qazandı.

## İskəndərin Qəndəhar bütxanəsinə yetişməsi

Bahar çağı qanları cüşə gəldikcə, qəlbləri nəğmə ilə dillənən quşları çöllərində ceyranları rəqs edən, bənövşənin, nərgizin, qızılgülün büsatından bülbülləri sazəndə olan, hər yanı al yaşıl bürünən bu təbiəti seyrə dalmaq özgə bir aləmdir. Belə bir fəsildə badam gözlü bir türk nəğməkarının ipək telləri simlərin üstünə tökülərək sənin qəzəllərinin ahəngi ilə gözəl nəğmələr səsləndirməsi nə xoşdur.

Rum ilə İranın böyük sərdarı olan İskəndər abad bir ölkəyə Hindistana yetişib, oradan da Məşriqə üz tutmağı qərara aldı. Bir ay gecəli-gündüzlü gündoğan tərəfə dağlardan aşıb uzun bir yol getdi. Həddən artıq isti olmasına baxmayaraq nəhayət onlar türklərin Fərrux behişt dediyi yaşıllıq içində bir şəhərə yetişdilər. Orada hərəsi bir bütə sitayiş eyləyən gözəl sənəmlərin yığışdığı, hər yanda bütləri qızlıldan olan,.şamtək şölələnən gözəl bir bütxanə gördülər. O yerə Qəndəhar deyirdilər. Gövhərlə bəzənmiş bu bağı gəzəndə şah bütlərin üzərində olan qızılı, gövhəri, tozu-ümumən qiymətli nə varsa hamısının sökülüb tökülməsini əmr verdi.



Bu fərmanın xalqın xeyrinə olduğunu artıq hamı anlayırdı. Burada çox yaraşıqlı, işvəli bir gözəl vardı ki, əyilib saçı ilə bütlərin tozunu süpürürdü. Şahı ürəkdən alqışlayıb dedi:

- Şərqdən qərbədək bütün dünyanı fəth edən ən adil sultan sənsən. Sənin taxt-tacın elə bir ucalıqdadır ki, kamalının gücü ilə düyanı işıqlandırmaqdadır.

Belə nəql edirlər ki, bir zaman bu yaşıl budaqlı bu zərli eyvan hələ bütxanə deyildi. Hərəsi dimdiyində bir gövhər tutmuş səadət gətirən humaya bənzər iki quş səhradan uçub yarım viranə olan bu gümbəzin üstünə qonmuşdu. Şəhər əhli təəccüb edib bu quşları tədbirlə tutmaq istəyərkən quşlar gövhərləri atıb getdikləri üçün camaat arasında müxtəlif fikirlər, mübahisələr artıb çoxalmışdır. Şəhərin başbilənləri ağıllı məsləhət edərək belə qərara gəldilər ki, o cüt gövhəri nəbada heç kimə verməyib bədəni zərdən olan bir büt bəzətsinlər. Onlar xahiş etdilər ki, quşların bəxşişi olan o gövhərləri gərək şah da onlardan almasın. Gözü işıqlı olanlar korları belə şad edən bir şamı əbəs yerə söndürməzlər.

O şirin dilli gözəlin sözlərindən sonra İskəndər camaatla razılaşdı.

Qız da padşahın bütləri qoruduğundan xoşhal olub, gizlincə ona bir xəzinə göstərdi. İskəndər bu xəzinədən camaata xeyli payladıqdan sonra yenidən qoşunu ilə şoranlıq, daşlıq yerlərdən keçərək yoluna davam etdi. O, qarşısına çıxan hər kəslə ətraflı söhbət edib, onlara Allahın, dinin hikmətlərindən tutiya verirdi.

Bütün şərq ölkələrinə bələd olan İskəndər yenidən Çinə döndü. Onun gəlişini eşidən xaqan dəbdəbə ilə istiqbal etdi. Hər iki xaqan uğurlu bir vaxtla, böyük ehtiramla görüşüb xoş

söhbət etdilər. Onlar köhnə əhdləri təzələmək qərarına gəldilər. Xaqan İskəndərin dinini bəyənib, qəbul etdikdən sonra İskəndər dəryaları səyahət etmək niyyəti ilə Çin xaqanının da onunla bərabər bu sirli aləmə çıxmasını arzuladı. Bu təklifdən çox şad olan xaqan İskəndərlə bərabər ən etibarlı dostlarını ətrafına yığıb səfər tədarükü gördü. Məşriqə doğru bu səfərdə onlar xeyli yol gedib, sonra cənuba üz tutdular. Beləcə düz qırx gün yol getdikdən sonra bir göy su kənarına çatıb dincəlmək qərarına gəldilər. Orada böyük bir məclis qurdular. Bu müddətdə qərar tutduqları sahil haqqında xoş bir rəvayət eşitdilər.

Burada gecə vaxtı gizlincə günüzlü, ayüzlü pərilər dəstəylə gəlib xoş nəğmələr oxuyar, səhərə kimi çalıb oynayardılar. Bu lətif nəğmələri dinləyən hər kəs çox təsirlənər huşunu itirərdi. Dənizdən sahilə yayılan bu xoş nəğmələri hələ heç kəs bu cür vəzində oxuya bilməmişdir.

Bunu eşidən şah ordunu bir qədər kənara çəkilməsini tapşırdı. İnsanı həm ağladan, həm də güldürən bu həzin nəvadan təsirlənən xaqan saçları ağ əndamına səpələnən pərilərin dəryada şövq ilə süzmələrini seyr edib öz məskəninə qayıtdı. Böyük hökmdar bu ilahi sirri daha yaxından seyr etmək üçün gəmiçiyə dalğalı dənizə bir gəmi çıxartmasını tapşırdı. Şah o gəmiylə dənizə girərkən sahildə onu gözləyən xaqana geri dönənə qədər yerindən bir qarış da uzaqlaşmamasını tapşırdı. Hökmdar vidalaşarkən bu təhlükəli səfərdən geri dönməyəcəyi halda xaqanın qalan işlərə əncam çəkməsini də xatırladı. İskəndər yoldaşlarından bir neçə nəfəri də özü ilə götürüb Çin dənizinə səfər etdi. İsa nəfəsli ustadlardan da onun yanında təkcə Bəlinas idi. Xeyli yol



getdikdən sonra dənizin sel kimi dönmədən axdığını görən dənizçilər heyrətə gəldilər. Qorxunc suların dəhşətindən onlar geri dönmək haqqında düşünürkən nurtək parlayan bir cəzirə (ada) görüb yaxınlaşdılar, və orada qərar tutdular. Vəziyyəti belə görən qoca bir dənizçi bir az da irəli getməyin çox təhlükəli olduğunu və o zaman geriyə dönməyin mümkün olmayacağını hökmdara bildirdi. İskəndər əl ilə işarə etmək üçün misdən bir tilsim düzəldilməsini tapşırdı ki, görənlər burdan belə yol olmadığını anlasınlar. Bu yerə gəlmələrinin səbəbini Allahın əmri ilə baş verdiyini indi anlayan İskəndər çəkilən zəhmətin hədər olmadığını, bundan sonra bu təhlükəli məkana yolu düşənlərin ölümdən qurtulacaqlarını alim Bəlinasa söylədi.

Bu gur axından salamat geri dönüb dənizdə on gün səfər etdikdən sonra azdıqlarını başa düşdülər. Onlar uzaqdan qarşıda yol kəsən qorxunc burulğan olan uca bir dağ gördülər. Mahir gəmiçi o yerə çatıb gəmi ilə suda pərgartək bir xətt çəkib dağın ətəyində lövbər saldı və sərnişinləri sahilə çıxartdı.

İskəndər onun çox kədərli olmasını səbəbini soruşdu:

Gəmiçi şir ağzı deyilən bu qorxunc girdabın başqa bir təhlükə olduğunu padşaha danışıb, buradan qurtulmağın tək bircə yolu olduğunu dedi. Çarə yalnız quru ilə Qeysura doğru gedib, oradan da Çinə sarı dönməkdir. Bu yerdə İskəndər söylədi ki, yolun son dərəcə uzaq olmasına baxmayaraq əsas sağ-salamaq mənzil başına çatmaqdır. Hökmdar çətin vəziyyətlə əlaqədar Bəlinasın da fikirlərini öyrənmək istədi.

Alim söylədi:

– Bu yolda şahın bəxtinə həmişə inanmışam. əgər mənə izn verilərsə qaya üstündə günbəzli tilisim düzəldib boynuna

da bir təbil asaram ki, günbəzin içində duran bir nəfər təbili şiddətlə və aramsız döyər, beləliklə də gəmi burulğandan salamat çıxar.

Alimin bu təklifi şaha çox qəribə gəldi və onun icrası üçün nə lazımdırsa yerinə yetirilməsini əmr etdi. Bəlinas tez bir zamanda bu çətin işi yerinə-yetirib şaha məluimat verdi. Elə ki, mahir gəmiçi şahın fərmanı ilə gəmini burulğana sürdü, şah da Bəlinasın məsləhəti ilə təbil ağacını ələ alıb dəhşətlə gurlatdı və gəmi də o burulğanda qalmayıb girdabdan qurtuldu.

Bu hikmətə çox sevinən şahın üzü yaz günəşi kimi gülümsədi. Alimin könlünü şad etmək üçün İskəndər ona çoxlu mal-xəzinə hədiyyə etdi. Başqa bir şəxs də xəritələrdən yoxlayıb, araşdırıb və həmin burulğanın Babil tərəfdə olması barədə rəy söyləmişdir.

Heyətşünas bir alimin (təbilin sirli səsi haqqında) açıqlamasından belə məlum olur ki, suyun altında heybətli bir balıq dairə üzrə dövr etdiyindən, ağır gəmiləri dağılana qədər suda hərlədir, qərq olanı da udurdu. Qurd dərisindən olan təbilin sehrli səsi gurlayanda bu mütiş nərədə balıq sarsılır və suları yara-yara dərinliklərə baş vurduqca gəmini də ardınca çəkib aparır. Bu sayaq gəmi də burulğandan azad olur.

Tilsimin sirrini hökmdar bildikdə dənizə çıxmağı qərar verdi. Hamı sağ-salamat dənizə çıxandan sonra şah artıq çəkdiyi əzabdan qurtulub rahatlıq tapdı. O şükranlıqla xeyli qul və dustaqları azad etdi.

Çin xaqanı onların salamat sahilə qayıtdıqlarını görüb hədsiz sevinclə şahın yanına qayıdıb onun ayaqları altına bol-bol xəzinə səpdi və Allaha sidq ilə şükürlər etdi. Şah onu



nəvazişlə qucaqlayıb başına gələnləri tamamən danışmağa başladı. Xaqan şahı dinləyib, bu üstüörtülü sirləri ağıl sahibi olmayan kimsə anlamaz, - deyərək ona bəxtiyarlıqla təriflər söylədi.

İskəndər bu yerdə yeddi gün dincəldikdən sonra, keçmişi əsla vecinə almadan dünya səfərinə çıxmaq qərarına gəldi. Onlar yola düşüb xeyli yol getdikdən sonra bir səhraya çatdılar. Bu zaman İskəndər qoşununa çoxlu yemək, mal-dövlət paylanmasını tapşırdı. Xeyli yol qət etdikdən sonra ətrafı əkinli, abad bir şəhərə çatdılar. Şah xaqandan bu yer haqqında məlumat öyrənməsini istədi.
Bilicinin sözlərindən aydın oldu ki, məhsuldan-bardan məhrum olan bu yerin padşahını camaat Allah qüdrətində hesab edir. Ürəyi nurlular zülmətdən qaçdığı kimi, qəriblər də bu məmləkətdən çəkinərlər. Bu yerdə qızıl-gümüş bol olsa da bazarlarında başqa şeylər az-az tapılar. Dan yeri sökülən kimi bu şəhərin dənizində taraqqataraq başlanır. O nərələr, gurultular o qədər dəhşətlidir ki, insanın qəlbinə vahimə düşür. Böyüklər bu dəhşətli səsdən qulağını tutar, körpələri isə zirzəmilərdə saxlayırdılar.

Şah alimdən bu işə bir tədbir görməsini tapşırdı.

Alim cavabında buyurdu ki, sübh tezdən gün qalxana qədər təbillər vurulsun ki, dənizdən qopan bu qorxunc səs heç kimi vahiməyə salmasın. İskəndər Bəlinasdan dənizdə eşidilən bu fəryadın səbəbini soruşdu.

Alim cavabında ustadından aldığı bilgilər əsasında dedi:

– Sübh vaxtı sular günəşdən qızaranda sanki dalğalar od alıb dağtək döş-döşə gələr, suya civə qarışıbmış kimi hərarətdən gurlayıb ətrafa qığılcım tökər.

Ordu şəhərə çatmamış hökmdar onların bu yerdə dincəlməsinə qərar verdi. Şəhər əhalisi xəbər tutub alver üçün onların yanına axıb gəldilər. Bu alverdən əhalinin qazancı qat-qat artaraq hamılıqla şad oldular. Şah da hər müştəriyə öz malından hədiyyələr bağışladı. Bir qədər də puldan, qızıldan ayırıb başçıya ərmağan etdi.

Şəhərin başçısı şahın ənamından vəcdə gələrək o da şaha balıqdan, ətdən hazırlanmış xuruşlarla dolu zəngin bir süfrə göndərdi. Sonra özü gəlib bu çöllərdə azuqə tapılmadığından yol azuqələrini tədarük edə bilmədikləri üçün üzr dilədi.

İskəndər də ona öz biliyini, doğru dinini şərh edib haqqı nişan verdi. Onların hər biri bu görüşdən məmnun oldular. Ertəsi gün dəniz təlatümə gələndə şahın əmri ilə təbillər nahara qədər elə çalındı ki, bütün şəhər əhlini cuşa gətirdi. Dalğaların gurultusunu batıran bu təbil səslərinə hamı heyran qalmışdır.

Səfərə hazırlaşan şaha təzim edənlər öz arzularını bildirərək bu səsli təbildən birinin də onlara bağışlamasını istədilər.

Böyük hökmdar vidalaşanda bir neçə təbili yadigar olaraq onlara bağışladı. Həmin gündən hər səhər tezdən şəhərdə təbil çaldırmağı adət etmişdilər. Şah bu adəti daima davam etdirirdi.

Bir ay yol getdikdən sonra nəhayət onlar abad Çin mülkünə yetişdilər.



## İskəndərin şimala çatması və Yəcuc səddini bağlaması

Yay fəsli olduğundan günəş çox yandırıcı idi. Hər çıxanda yerə od saçırdı. Daşı muma döndərən günlərin birində qoşunu xırxıza çəkmək məqsədilə İskəndər gözündən yuxunu qovaraq Çin xaqanına xəzinə, var-dövlət bəxş edib onunla vidalaşdı və yola rəvan oldu. Səhraya doğru irəliləyən qoşunu ilə hökmdar Məşriqdən Şimal həddinə yetişdi. Qarşıda qumları nur saçan böyük bir düzənlik görünürdü. Bələdçi buranın başdan-başa gümüş bir xəzinə olduğunu şahdan başqa bir nəfərə birldirmədi ki, bu xəzinədən çox götürüb əldən düşərlər. Şahın özünün saf qızılları çox olduğundan gümüşə əhəmiyyət də vermirdi.
Ancaq bir neçə dəvəni yüklədib torpağı gümüş, suyu isə civə ilə qarışıq olan bu yerdən uzaqlaşmağa çalışırdı.

Bu yerlərdə bulaqlar çalxanmasaydı o sudan bir kimsə zərər görməzdi. Çeşmələr bulanıb qaynaşan zaman əgər kimsə bilməyib içsə sudakı zəhər onu öldürərdi.
Onlar bu sayaq gümüşlü çöllərdən keçib bir ay yol getdilər. Ancaq qoşundan bir neçə nəfər susuzluqdan ölsə də, nəhayət gəlib vətənlərinə yetişdilər.

Qaranlıqda günəş kimi parıldayan bir düşərgə gördülər ki, bu dağla üz-üzə duran bir qala idi. Orada sakit, salamat bir tayfa yaşayardı. Onlar peyğəmbərə beyət etməyib böyük Tanrıdan ilham alardılar. Nur üzlü İskəndəri görcək onlar bu bilikli adil hökmdarı peyğəmbərtək qəbul etdilər. İskəndər də öz təlimilə din, bilik, mərifət sahəsində onlara çox bilgilər verdi.

Hökmdarı qayğıkeş və mərhəmətli gördükləri üçün kömək məqsədilə dərdlərini ona açıb danışdılar.
Bu dağdan o yana sonsuz səhralar, sərt qayalıqlar olan yerdə div xislətli, daş ürəkli, qurdtək yırtıcı olan Yəcuclar yaşayır ki, tükləri biz-biz, üzərində burundan heç bir əlamət olmayan bu insana bənzərlərin boyları bir qarış olsa da yeməkləri həddən artıqdır. İstinin, soyuğun belə onlar üçün heç bir qorxusu yoxdur. Orada bir nəfər də olsun nə Allah tanıyar, nə də yemək-içməklərinə görə şükür edərdilər. Qana həris olan bu yırtıcılar yeyinlikdə yelə də üstün gələrlər. Dünyada bu qədər yeməli şeylərin olmasına baxmayaraq, onlar yalnız heyvan kimi ot, ələf yeyərlər. İş-güc bilmədən yeyib-yatsalar da, uzun ömür yaşayarlar. Ay yarı olandan sonra onların bir daha iştahaları azalar. Deyilənə görə ildə bir dəfə qara buludlardan böyük bir əjdaha düşər. Yəcuclar da həmin o nəhəng heyvandan doyunca yeyib sərxoştək bir aya qədər yatarlar.



Ömürlərinin sonuna qədər xəstəliyin nə olduğunu bilməyib, yalnız köklə, otla qidalanar, bəzən də hücum edib var-dövlətimizi talayıb, evləri xaraba qoyar, özümüzü də didərgin salarlar. Biz də qorxudan uca dağlara qaçıb quştək ağaclarda məskən salarıq. İskəndər hər biri bir fil gücünə malik olan bu vəhşi xislətli yəcuclardan camaatı xilas etmək üçün poladdan bir sədd ucaltdı. Səddi tikilib, qurtardıqdan sonra dağlardan, çöllərdən keçib bir şəhərə gəldi. Burada heç kəsi tapmayıb bir ay, gözəl bir mənzildə məskən saldı. Hasarsız bağları, çobansız sürüləri, su ilə əkinlə zinət tapmış bu şəhəri yol töhfəsi kimi qəbul etdilər.

Qoşundan bir nəfər əl uzadıb meyvə dərmək istəyərkən bədəni kaman kimi qıc oldu. Başqa bir atlı isə qoyun tutanda bərk qızdırmaya düşdü.

İskəndər qoşuna, - heç kəs özgənin bağına toxuna bilməz, deyib, – bütün bunların insanlar üçün ibrətb olduğunu anlatdı. O yerdən də keçib, xeyli getdikdən sonra onlar qapısı bilinməyən bir şəhərin darvazasına çatdılar. Hökmdar müdrik qocalarla şəhərə girib qapısız, dolu dükanlar görüb heyrətləndi.

Nəcib şəhər əhli onları görən kimi təzim edərək hörmətlə qarşılayıb əziz qonaq kimi qəsrə gətirdilər. Onların şərəfinə gözəl bir süfrə açıb hamılıqla xidmətlərində durdular.

İskəndər onlara yüksək qiymət verərək bütün qapıların qıfılsız olmasını, heç nədən qorxmayıb belə arxayın yaşamalarının səbəbini soruşdu.
Bu ədalət yurdunun ağsaqqalları Allaha şükr edərək hökmdara tariflər söyləyib bildirdilər ki, biz ta qədimdən bu yerləri məskən etmiş dinpərvər, fağır bir tayfayıq. Əsla tük

qədər də olsun düzlükdən keçmərik. Narazılıq bilmədən Allahdan nə gəlsə ona şükürlər edərik. Biri dara düşsə hamılıqla yığışıb ona kömək edər, hər kəsin sevincini-sevincimiz, kədərini də kədərimiz bilərik. Ehtiyacımız olan şeylərdən israfçılığa yol vermədən yalnız qədərində istifadfə edərik. Aramızda belə bir qayda da mövcuddur ki, üzə deyilməyən sözü heç kəs kənarda da danışmaz. Hər kəs dediyimiz kimi, təmiz və pəhrizkardır. Tutduğumuz yoldan çıxan bir insan kim olursa-olsun aramızdan qovarıq.

Belə ədaləti görən İskəndər çox təəccübləndi, çünki bu qayda-qanuna nə oxuduğu kitablarda, nə də gəzdiyi yerlərdə rast gəlmişdi. O belə düşünürdü ki, dünyanı gəzməyim də, topladığım biliklər də bir yana, bu mərd insanlarda gördüyüm hikmət məni daha çox şad etdi.

Bu yerə gəlib çıxmalarını da Allahın məsləhəti kimi qəbul edib, peyğəmbərliyini də onlara bildirmədi. İskəndər bu əməlisaleh insanlara xəzinə bağışlayıb o yerdən fərəhlə geri döndü. Yolda atının nalı haraya dəyirdisə, o yerlərdən dərdi-qəmi də silirdi.



## İskəndərin Ruma qayıtması

Meyvələr yetişib bar-bəhərin aşıb-daşdığı bir zamanda İskəndər hamı kimi toy-bayram əhvalında olmayıb, gecəsini-gündüzünə qatıb dənizlərdən, düzlərdən keçirdi. Bir çox ölkəni o ya xoşluqla, ya da zorla çətinliklərdən geniş və rahat bir yola çıxartmışdı. Özü isə beş böyük səfəri – Misir, İran, Hindistan, Rus və Çin ölkələrini gəzib, dolanıb artıq səfərlərdən usanmışdı. Dünyada iki giriş və çıxış qapılarının olmasının hikmətini anlayan hökmdar artıq yunan torpağına-vətəninə qayıtmaq qərarı ilə yaxın dostlarına fikrini bildirib Ruma tərəf getməyi qərara almışdı. Durmadan xeyli yol qət edib, nəhayət yerin o başından Kirmana yetişdi. Bir müddət sonra orada Kirmanşaha, sonra Babilə, daha sonra isə Ruma tərəf yol aldı. Əmr şəhərinə çatan şahın bir anda səhhəti pozuldu. Ona elə gəldi ki, içdiyi sudan zəhərlənmişdir. Əl-ayağı süstləşib, taqətdən düşdü. Yola çıxmağın qeyri-mümkün olduğunu anlayıb Yunanıstana -vəzirin yanına bir qasid göndərib, onun yaxşı alimlərdən də bir neçəsini özü ilə

bərabər təcili yanına gəlməsini bildirdi. Vəzir Rumdan, Yunandan böyük alimlərlə bərabər tez şahın yanına gəlib yetişdi. Şahı taqətsiz vəziyyətdə görüb, onun düşdüyü dərdin əlacının olmadığını düşündü. Qarşısında diz çökərək əlindən öpdü və nəbzinin vurmasına diqqət yetirdi. Xəstəliyin bir neçə əlamətini müşahidə edib nə qədər imkan varsa axtarıb bu dərdə dərman tapılmasını buyurdu.

Artıq vücudunu müvəqqəti təşkil edən ünsürləri; torpağı-torpağa, odu-oda, suyu-suya havanı-havaya geri qaytarmağın vaxtı çatmışdır. Onun dərdinə çarə axtarsa da suda qənd, odda mum əriyən kimi İskəndər də anbaan şam tək əriyib bu nurlu aləmi tərk edirdi. Şan-şöhrəti bütün dünyaya yayılmış fateh başını yerə qoyub ölüm yatağında can verirdi...



## İskəndərin vəsiyyəti

Xəzan yeli əsib payız yetişəndə elə bil al günlərin yanar çırağı da sönmüşdü. Təbiətin belə bir vaxtında o Kəyan sərvi – İskəndər də dövranın amansız məngənəsində sağalmaz dərdə düşüb saralıb, solmaqda idi. Əgər bəxtin, dövlətin özülü çökərsə insan səhhətində də zəiflik baş qaldırar. Ordu həkimləri, şəhər əyanları o böyük hökmdarı araya alıb nə qədər səy göstərsələr də dərdinə əlac tapılmadı. Əsən yellərə sədd çəkmək mümkün olmadığı kimi, insan əcəli yetişəndə təbiətin hər cür cövhəri, dava-dərmanı faydasız olur. Zəmanə ağrı-acıların əli ilə insana o qədər əzab verib incidir ki, o özü Allahdan ölümünü istəyir.

Göyün hesabına bələd olanlar göy üzündə hər nə varsa hesaba salıb onun taleyini nursuz görəndə özləri də təşvişə düşmüşdülər. Artıq İskəndərin nə qəlbində qüvvət, nə də canında taqət qalmışdı. Aynaya baxıb ölümünü gözləri ilə görən hökmdar şam kimi əriyirdi. Ürək sözlərini demək üçün yaxın dostlarını ətrafına yığıb dedi:

– Qəmim elə bir girdaba düşüb ki, ölüm ağzıaçıq pələng kimi yolu kəsmişdir. Fələk mənimlə xoşrəftar olsa da indi

ruzgar gözlərimdə çənə bürünmüşdür. Sanki Günəş də, Ay da mənimlə rəftarını dəyişmişdir.

Ən qorxunc divləri tutub ram edən İskəndərin od qılınclı qoşununa deyin, canımdakı bu qızdırmanı qovsun. Bəlkə xəzinədar rüşvət verib məni bu bəladan qurtara bilər.

Zəhərli qılıncla tufan qoparan, çoxunu hökmranlığa çatdıran, gün çıxandan, gün batana qədər, zülmü ədalətlə əvəz edən, saysız müşküllər həll edən, bütövlər parçalayan sınıqlar calayan, taxt-tac sahibi İskəndərəm!..

Çox dağlar, dənizlər keçib hökmdar Daraya, Rus qoşunlarına və daha kimlərə qarşı ədalət uğrunda qanlı döyüşlər aparmış, atəşkədələri də yıxıb məhv etmişəm. Seylon adasına belə gedib çıxaraq Adəmin izinə ayaq basıb, onun kimi Qüdsü məskən edib, Kəbə həlqəsinə əl yetirmişəm.
Hansı yerə ayaq basdımsa o yerdə ellər ədalətlə bilik sahibi oldular. Amma indi məndən - "nə gördün?" - deyərək sorsalar sanki heç bir səfər etməmiş kimi bir günlük körpəyə bənzədiyimi söyləyərəm. Otuz altı deyil, lap otuz min il yaşasam da yenə də gözüm bu dünyadan doymaz. Ağılla, hünərlə yaşa dolub hər müdrik insana qədr-qiymət verərək, Yaradana şükürlər etdim, ömrümü qəflətdə keçirmədim. Yollarına qızıl səpdiyim dərin zəkalı alimlər də ölüm qarşısında acizdirlər.
Tək Pərvərdigar rəhm edib məni bu dərddən qurtara bilər. Fələk mənə belə cəza verərkən səs salıb fəryad etmək əbəsdir. Bu qoca dünyada doğulduğum torpağın pak sinəsinə indi baş qoymaq zamanıdır. Yəqin ki, pak ruhum paklara qovuşub əbədiyyət qazanar.



**İskəndərin anasına məktubu**

İskəndərin gözünə heç kəsin şəfqət və mərhəmət görmədiyi qatı bir zülmət çökmüşdü. Hər dərdə yüz çarə edən Ərəstunun təskinliklə dualarını dinləyən hökmdar dedi:

– Dövr edən göylər bizim əmrimizdə deyil. Bütün dünyada hökmüm işləsə də bu işdə Yaradanın əmrinə tabeyik. İyirmi yeddinci gecədə Ay qaralmağa və görünməyə başladığı kimi İskəndərin ömrü də yavaş-yavaş incəlib və sönürdü. İskəndər ölüm ayağında olanda çox sarsılıb kədərlənmişdi. Anası yadına düşdüyü üçün Rumlu katiblərdən birini çağırıb and verərək, anasının şirin dili ilə ona bir məktub yazmağı tapşırdı.

Mən bu məktubun bircə olan anama yetişməsini istəyirəm.

"Anacan, sən məni hər dəfə yadına salanda nə ürəyini sıx, nə də fəryad qopar!.. Hər çeşmə qətrəyə döndüyü kimi, meyvə, qızılgül budaqdan düşdüyü kimi, insan da vaxtı çatanda haqq dünyasına qovuşmalıdır. Qoy Pərvərdigar sənə

səbr versin. Əlini ürəyinin üstünə qoy və dərdə çox da yanma. Çünki gözüntək bəslədiyin balan bir də qayıdan deyil. O şirin laylaya, o ilk öyüdə, əmdiyim südə səni and verirəm ki, ağlayıb, fəryad qoparmayasan. Dünyanı yaradan Pərvərdigarın, qayda-qanun qoyan hər peyğəmbərin, dinə əməl edən pak insanların, behişt gülzarından zövq alanların xatirinə səbrli olmağını arzulayıram. Adların fövqündə dayanan ada, darda qalanların pak niyətinə, azad insanların xoş adətinə, gözütox insanlara, təşnə bir tifilin süd həsrətinə, pak, təmiz sevgiyə, gizli ibadətin qüdsiyyətinə, ümidsiz çəkilən son fəğanlara və daha neçə-neçə müqəddəsliyə and verirəm ki, bu məktub gəlib çatanda kədərdən üzülməyəsən. Çünki bu dünya fanidir başqaları kimi sən də toxtaq ol. Yox əgər bunlara baxmayaraq yasxana qurmaq istəsən onda gözəl yeməklərlə bəzənmiş şahanə bir məclis düzəlt. Bütün gələnlərə də bildir ki, hər kəsin qəbirdə adamı yoxdursa süfrəyə buyurub doyunca təam etsin. Belə bir nəfər tapılarsa sən də istədiyin qədər bu acı qəmləri çəkərsən. Fələk bizi dünya deyilən zindandan azad edirsə nə üçün bu işi narazılıqla qarşılamalıyıq"

İskəndər məktubu anasına yola salandan sonra özü də bu müvəqqəti dünya ilə vidalaşdı. Dünaydan köçüb gedən hökmdara çox yüksək bir taxt düzəltdilər. Sonsuz yaxşılıqlarına baxmayaraq İskəndər inciyərək dünyanı tərk etdi. Onun nəşini qızıl tabuta qoyub bir əlini də tabutdan kənara çıxartdılar. Ovcuna bir qədər torpaq töküb sonra hər tərəfə car çəkdirdilər ki, yeddi ölkə hakimi olan İskəndər dünyadan köçdüyü zaman görün özü ilə nə apardı. Sonra onu Zurdan Misirə yola saldılar.



Saysız insanların ömrü sona yetəndə dünyanın onlarla olan hesabı bitib tükənmir. Bu sirrə ömür sərf etmək də əbəsdir. Bu lacivərd tağda sütunundan axan qan selindən başqa bir şey görünməz. İnsan gərək dünyanın oddan qızarmış qızılı rənginə aldanmasın. Dünya odla su arasında qərar tutmuşdu ki, toz-duman içində yerlə göyün çarpışmasından sazişə gələ bilmədiyi üçün insanları yer üzündən silir.

## İskəndərin məktubunun anasına çatması

Fələk qışın gəlişilə tozdan xəstələnmiş dünyaya buluddan ələnən narın yağış damlaları ilə sanki dərman çiləyər. Geniş səmaların sərin şəbnəmləri bütün dünyanı istidən qurtarar.

Şaxtaların düşməsi ilə qara xəbərin Ruma gəlib çatması eyni vaxta təsadüf edirdi. Tayfa başçıları yığılıb böyük hökmdarın dünyadan köçdüyünü, indi cahanın sahibsiz olduğunu düşünürdülər. Bütün ölkə bu xəbərdən qara geyinmişdi. Şahın anasına yazdığı naməni oxuyanda hamı qəmə qərq olmuşdu.

Məktubu oxuyan ana qaralar bağlayıb, matəmə büründü, ağladı, ağladı...

İskəndərin məktubuna baxdıqca içində bu ağır dərddən tumartək qıvrılıb açılsa da oğlunun ruhu şad olsun deyə, qamətini şax tutub onun vəsiyyətinə əməl etməyə çalışırdı. Ancaq ürəyində ah-fəryadı bir an da kəsilməyən ana bu möhnətə dözə bilmədi, qara taleyinə əlvida deyib dünyadan köçdü.



## Atasının vəfatında İskəndərusun nalə çəkməsi

İskəndərdən sonra şahlığa layiq görülən oğlu İskəndərus uca mənsəbə meyl salmadan, güldən ayrı düşmüş bülbül kimi ahü-zar etməkdə idi. Ordu böyükləri vəliəhdin tacı qəbul etməsini çox təkid etsələr də, o, beşgünlük dünyaya tamah salmayıb üzr ilə onlara şahlıq məqsədinin olmadığını, atasının belə gənc yaşında dünyadan getdiyi üçün özünün də dünya əhlini tərk edib yalnız Allaha üz tutacağını, ibadıtlə məşğul olacağını bildirdi. O, gücün – qüdrətin atasına heç nə vermədiyini və fələyin bu səltənəti viran qoyduğunu, Kəyanlar taxtının da onun üçün boş və mənasız olduğunu düşünürdü. İskəndərus dünya deyilən mağarada hörümçəklərtək qarışqa, milçək ovlamaqdansa, qayalar içində bir məbəd tapıb ömür boyu göz yaşları ilə öz ürəyindən dünya çirkini təmizləmək qərarına gəlmişdi. Vaxtı yetişəndə atasıtək özünün də torpağa qarışacağını və torpağı bir ovuc da artıracağını bilərək əcəlin nə olduğunu anlayan insanların ölümü cəsarətlə qarşılayacaqlarına əmin idi.

## Ərəstunun ruzgarının sonu

İskəndərin vəfatından sonra onun sarayının filosofları da matəm içində qaralar geyinmişdi. Alim Ərəstu bu böyük itkidən çox sarsılmışdı. Bir gün onun da başının üstünü xəstəlik aldı. Ustadlı, şagirdli kim var idisə Ərəstunun başına yığışdılar. Yunanlılar uca asimanın nədən yarandığını və bəşər xəyalının niyə ondan uzaqda olduğunu alimdən sual etdilər. Səfərə tələsən xəstə Ərəstu cavabında dedi:

- Göyün, ulduzların sirri haqqında çox şeylər kəşf edib "Cahanmədxəl"ə yazıb, onu elm ilə bəzəyib, süsləsəm də Allaha and olsun ki, mən də bu böyük hikmət qarşısında aciz qalmışam.

Söhbətin bu yerində artıq Ərəstunun nitqi kəsildi. Onun istəyi ilə bağdan ətirli, gözəl bir alma dərib gətirdilər. Ərəstu almanı qoxlar-qoxlamaz elə bil canı rahatlanıb dinclik tapdı. Fələyin hökmü ilə nəfəsi tutulan anda, o gülərək qarşısında gözəl bir səhərin açıldığını və Allahın ona verdiyi bu canı geri qaytarmasını ətrafındakılara bildirdi.



## Hürmüzün ruzgarının sonu

Ruzgarının sonu yetişən Hürmüz, – yükü yüngül olan xoşbəxtdir, - deyib fəryad etdi. Gəmidə artıq yük bir gün dənizə tökülməlidir. Bu dünya deyilən vəhşətxanədə hər göyərən otu sonda ahlar, nalələr gözləyir. Dünyada ceyranlar ovlayan insan yaranandan qulanlar, ahular onların toruna düşdükləri kimi, mən də bu gün zalım ölümün amansız toruna düşmüşəm. Fani dünyada Allahdan başqa heç kimə ümid bağlanmaz. "Siz də bu dünyadan köçən zaman yalnız bir olan Allaha üz tutmalısınız"– deyərək gözlərini ədəbi yumub, şirin bir yuxuya getdi.

## Əflatunun ruzgarının sonu

Əflatun dünyadan köçüb gedərkən bu torpağın hamıya son məkan olacağını söylədi. Alim söhbətində onun uzun ömür sürməsindən danışıldığını xatırlasa da bir körpə uşağa bənzədiyini dedi. Su ilə torpaqdan, od ilə yerdən, yəni bu zidd ünsürlərdən əmələ gələn dünyada düzlükdən bir nişan görmədim. Təməli əyri qoyulan bir evin nə vaxtsa dörd divarı da uçub dağılmalıdır. Yüz on üç il ömür etsəm də gəncliyimdə olan arzularım hələ də başımda dolanır. Bu xoş arzulardan əlləri üzülərkən Əflatun da ruzgarına əlvida dedi.



## Valisin ruzgarının sonu

Valisin gözünü yuxu tutan zaman bildi ki, onun da ömrünün gəmisi tufana düşüb. Getdikcə şiddətlənən xəstəlik onu taqətdən salmışdı. Vəziyyəti bilən dostları onun yanına yığışmışdılar. Bəxtini göylərdə yoxlayan zaman gördülər ki, onun bəxt ulduzu çox uzaqlardadır. O da dostlarına müraciət edərək, öz ömründən haqq-hesab verib dedi:
– Günəş sistemini təşkil edən və bizə xoş bəxt verən bu yeddi ulduzdan çox da xatircəm olmayın. Əgər ulduzlar nəs dövrə başlasa, onda özü ilə bir zalimlik dövrü gətirər. Zülmün zəmanəsi tamam olmadan, dünyada adil bir adam yetişməz. Dönüş nöqtəsinə gedib çatmadan mənim də yazımı amansız zaman belə yazmışdır. Alim Allahın adı ilə sözünü bitirib əbədi olaraq gözlərini yumdu.

## Bəlinasın ruzgarının sonu

Bəlinas da ömrünün sonunda ariflərə üz tutub dedi:

– Bir halda ki, vaxtım çatıb, mən də bu yolda köçümü tutmalıyam. Çünki indi ürəyim başqa bir aləmi arzulayır. Bir vaxt palçıq bir daxmada yaşadımsa da, gedəndən sonra yerimdə yalnız heykəl qaldı. Bu fələyin yeddi heykəlinə isə əsla səmimi qəlbdən baş əymərəm. Mən göylərdən də uca elə bir hökmdaram ki, pəritək kimsəyə əyan olmadan, zamana sığmayan uçuşlarımla göyləri belə qanadlarım altına alaraq, istəsəm gizli və aşkar daşların içində də məskən edə bilərəm. Çöldə Xızr,dənizdə İlyas olaram ki, səhralar, dənizlər qarşımı ala bilməz. Ancaq o son məskənə uçarkən bu yerdə qalanların mənə aidiyyəti olmaz. Nəhayət bir gün gəlib mənzilimə baxsanız məndən savayı hər şeyin yerli - yerində olduğunu görərsiniz.

Dostlarla bir ölmək insana xoşdur... Mən də dünya əzablarına son qoyub, gedənlərin ardınca gedirəm.



## Fərfüryusun ruzgarının sonu

Dünyadan köçmək əmrini alan Fərfüryus da köç təbilini çalıb dostlarına dedi:

– Gördüyümüz bu bəzəkli dünya bağı nə qədər gözəl olsa da fani olduğu üçün bir gün bada gedəcəkdir.

Cəhənnəm, ya behişt olsun, bizə gələn hər qorxu, bəla bildiklərimizdəndir.

Yol bilənlər səfər üstə heç vaxt arxayınlaşmazlar. Yağ satanın qabı yağlı görünsə də zərrə qədər evində yağı olmaz. Hər kəs bu dünyada xəzinə yükünü çəkərsə fikirdən, qəmdən rahat olmaz. Fərfüryus sözünü deyib qurtaranda onun da ömrü tamam oldu.

## Sokratın rüzigarının sonu

Atını əcəlin önünə dördnala çapan Sokrat haqqında deyirlər ki, son məqamda əzabdan, ağrı-acıdan tez qurtarmaq üçün gizlincə zəhər düzəldib özündən xəbərsiz ona verirlər. O özü də əcəl gələndə ona bir çarə etməyin mümkün olmadığını və ölüm yatağına dünyada hamının bir-bir baş qoyub dincələcəyini deyirdi. Yüksəklik aşiqi o böyük ustada məzarının harada qazılacağını soruşanda gülərək dostlarına belə cavab vermişdi:

– Mənim üçün buradakı yerin elə bir fərqi yoxdur. Siz harada istəsəniz orda yer verə bilərsiniz. Buradan gedənləri də heç xatırlamayın.

Dostları da o an böyük ustadın fikirlərini anladılar.



## Nizaminin ruzgarının sonu

Dastan yazılıb qurtaran kimi Nizami də köçmək xəyalına düşdü. 63 yaşından 6 ay keçmiş dünya alimlərindən söz açıb, dostlarına səfər üstə olduğunu xatırlatdı və gülərək söylədi.

Ümidim var ki, pərvərdigar günahımdan keçəcək. Siz də bizim üçün boş yerə zəhmət çəkməyin. Qarşıda bizi cənnət gözlədiyinə inamım var.

Danışa-danışa gözünü yuxu elə tutdu ki, sanki dünyada heç oyaq deyilmiş.

**Bu kitab Hədəf Nəşrlərinin "İNCİ" uşaq ədəbiyyat silsilə kitablarına aiddir.**

İNCİ
UŞAQ ƏDƏBİYYATI

Çapa imzalanıb: 12.10.2012
Formatı: 60x84 1/16. Ofset çapı.
Həcmi 10
Sifariş № 271. Tiraj 100
Qiymәti: 3 manat

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 75 04, Tel.: 447 75 06
mətbəəsində çap olunub